RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 103 (8982) ÇƏRŞƏNBƏ, 18 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## İlham Əliyev Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik edib



Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.

Dövlətimizin başçısı Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı və fəaliyyətində uğurlar arzulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə ediblər. Söhbət zamanı əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi Azərbaycana rəsmi səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

***Prezidentin Mətbuat Xidməti***

## Qarabağ regionunda əməkdaşlıq üçün yaxşı potensial var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul edib.**

→ 2

# Sarsılmaz birliyin təntənəsi



Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyi tarixindəki ən yüksək zirvəyə yetişib

→ 8

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Bu, ölkənizdə Sizə olan böyük etimadın təzahürü, Birləşmiş Ərəb Əmirliklərinin inkişafı və çiçəklənməsi yolunda xidmətlərinizə verilən yüksək qiymətdir.

Biz Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Bu il ikitərəfli əlaqələrimizin tarixində əlamətdar ildönümü - ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəyik. Məmnunluqla vurğulamaq istəyirəm ki, bu dövr ərzində siyasi əlaqələrimizin yüksək səviyyəsi qarşılıqlı fəaliyyətimizin əhatə dairəsinin genişlənməsində mühüm rol oynamış, iqtisadi, enerji, investisiya və digər sahələrdə uğurlu əməkdaşlığımızı şərtləndirmişdir.

İnanıram ki, islam həmrəyliyi kimi möhkəm təməl üzərində qurulmuş, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dostluq əlaqələrimizin daha da inkişafı, əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2022-ci il*

## İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasına sədrlik Azərbaycana keçdi

Mayın 17-də Milli Məclisdə İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransı keçirilib. Konfrans "Postpandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" mövzusuna həsr olunub.



→ 3

## Regionun inkişaf və əməkdaşlıq mərkəzi

### Azərbaycanın təşəbbüsləri İƏT-in daha səmərəli fəaliyyətini təmin edib

**Dünən Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi etdi. Bakıda - Milli Məclisin inzibati binasında İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransı keçirildi.**

Tədbirdə iştirak etmək üçün Türkiyə, Pakistan, İran, Qazaxıstan, Özbəkistan, Tacikistan və Qırğızıstanın parlament rəhbərlərinin başçılığı ilə nümayəndə heyətləri respublikamıza gəliblər.

#### İƏT həmişə ölkəmizin ədalətli mövqeyini müdafiə edib

Xatırladaq ki, İƏT hökumətlərarası təşkilat kimi 1985-ci ildə Türkiyə, İran və Pakistan arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılıb. 1964-1979-cu illərdə fəaliyyət göstərmiş Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının davamçısı hesab olunan qurumun əsas məqsədləri üzv dövlətlər arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi, onların davamlı iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf olunması, iqtisadiyyatın və ticarətin liberallaşdırılması və regiondaxili ticarətin təşviqi, İƏT regionunun maddi sərvətlərinin səmərəli istifadəsindən ibarətdir.

→ 4

## "Azərbaycan" qəzeti, 4 oktyabr 1918-ci il, VI nömrə

### Hökumət qərardadları

"Yelizavetpol" şəhərinə "Gəncə" adı verilsin, "Qaryagin" uyezdi "Cəbrayıl" uyezdi adlansın.

### Qaçqınlara müavinət şöbəsində

Qaçqınlara müavinət şöbəsi tərəfindən Bakı qaçqınları üçün üç min pud buğda alınmışdır.

Bolşeviklər tərəfindən qapadılmış darüleytamlar (yetimxanalar) hamı millətlər üçün açılıb yenə də işləməyə başlamışdır.

Gökçay gölü ətrafında olan müsəlman əhalisini Yeni Bəyazid erməni çeteləri (banda) tərəfindən yəğma və talan edildiyindən bunlar Qazax və Gəncə cəhətlərinə toplanmışlardır. Bu zavallıların əhvalı pak fənadır. Mühacirlər İdarəsi onları Şamaxı və Ərəş nahiyəsindəki boş köylərdə yerləşdirəcəkdir.

### İspanyol nəzləsi

Nəhayət, bu müzic (usandırıcı) səyyar xəstəlik Bakıya da gəldi. Hər bir - ümumi yeni-yeni bir çox şeylər çıxardığı kimi, yeni xəstəliklərin də zühuruna şahid olur. Cahan hərbi də bitərəf bir məmləkətdən çıxan yeni bir xəstəliklə təməyyüz edir (seçilir): ispanyol nəzləsi (zökəmi)!

İbtida, teleqraflarda İspaniyada zühur edən qərib və əsrarəngiz bir xəstəlikdən bəhs olunduğunu görənlər, təbii bir heyrət hiss etmişlərdi. Hələ bu xəstəliyə başqa İspaniyanın gənc kralıyla sevimli kraliçası olmaq üzrə bütün ricalın (dövlət adamlarının) yaxalandıqları xəbərləri, hərb vəlvələləri arasında pozulmuş dimağlarda (başlarda, beyinlərdə) bir çox təfsirlər oyandırırdı. Fəqət İspanyol nəzləsi, təhlükəsiz və atəşin (atəşli, odlu) varlığını digər millətlərə də göstərərək, o kimi sui-təfsirin önünü almaqda gecikmədi. İsveçrəyə, Almaniyaya atladı; nəhayət, şəhərimizə də gəldi.

İspanyol nəzləsi, keçdiyi yerlərdə həman kimsəni ziyarətindən məhrum etmək istəməyən qərib və növzühur (yeni peyda olmuş) bir "dəvətsiz müsafir" üzsüzlüyünü göstərdi.

Madam ki, hər kəsin başından keçəcək, nə deyəlim, Allah yaxalananlara səri (tez) bir afiyət (sağalma) ehsan etsin, yaxalanmayalara da heç olmazsa, işlərini görə bilmək üzrə növbə ilə tutulmaq imkanını bəxş eyləsin!..

→ 6-7

## XINALIQ zirvəsi



→ 10

## İLHAM ƏLİYEV babalarımız Şah İsmayılın, Nadir şahın qələbə bayrağını Qarabağda dalğalandırdı

"Əsrlər sonra baba yurdum Azərbaycana, əcdadım Əliqulu xanın yaşadığı Qarabağa, Şuşaya ayaq basanda qəlbimdə heyrətamiz duyğular oyandı... Bu hisslər məni 400 il əvvələ apardı...
Şuşanı gəzərkən sanki ulu babalarımın şad olan ruhları da mənimlə birgə addımlayırdı. Hərdən mənə elə gəlirdi ki, əcdadlarım kimi mən də Qarabağın qızılı rəngli atının üstündə Cıdır düzündə çapıram. Həmin gün həyatımın ən qürurlu anlarını yaşadım və ömrümdə heç vaxt özümü belə xoşbəxt hiss etməmişdim".




→ 8

**Daxili İşlər Nazirliyi bəyanat yayıb** → 5

**Yazılı sözə ali qayğı** → 9

**Qlobal iqtisadiyyat 2,5 faiz azalıb** → 12

## İrəvanda polis qadın deputatı döydü



Ermənistanda baş verən son proseslər güclü qarşıdurma mərhələsinin başlandığını göstərir. Müxalif qüvvələrin Nikol Paşinyan iqtidarına qarşı fəaliyyəti daha da genişlənir. Elə bu xüsusda keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd göstərir. Etirazların növbəti günündə müxalifət tərəfdarları paytaxtın müxtəlif rayonlarında küçələri bağlamaq istəyib. Ermənistan polisi İrəvanda keçirilən etiraz aksiyalarının gedişində müxalifətin 414-dən çox tərəfdarını saxlayıb. Saxlanılanlar arasında Ermənistanın sabiq prezidenti Robert Koçaryanın oğlu Levon da var.

→ 5

# Qarabağ regionunda əməkdaşlıq üçün yaxşı potensial var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla İsrail arasında iqtisadi əlaqələrə toxunuldu, kənd təsərrüfatı sahəsində həyata keçirilən əməkdaşlığın perspektivlərindən danışıldı. İsrailin müasir texnologiyalarının Azərbaycanın kənd təsərrüfatında tətbiqi ilə bağlı fikir mübadiləsi aparıldı.

Oded Forerin səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Dövlət başçısı müasir dövrdə ərzaq təhlükəsizliyinin bütün ölkələr, o cümlədən Azərbaycan üçün də prioritet məsələ olduğunu qeyd edərək, ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərdən danışdı. Prezident İlham Əliyev yerli kənd təsərrüfatı istehsalının və ixracatın əhəmiyyətli dərəcədə artdığını vurğuladı, eyni zamanda idxaldan asılılığın maksimum dərəcədə azaldılması istiqamətində də işlərin həyata keçirildiyini dedi.

Erməni işğalından azad edilmiş ərazilərdə görülən işlərdən danışan dövlət başçısı bu torpaqlarda dərhal kənd təsərrüfatı layihələrinin həyata keçirilməsinə başlanıldığını və artıq müəyyən nəticələrin əldə edildiyini bildirdi. İşğal dövründə ermənilərin ərazilərimizdə ekoloji soyqırımı törətdiyini vurğulayan Prezident İlham Əliyev xüsusilə bunun nəticəsində bu yerlərin su mənbələrindən də məhrum olunduğunu, buna görə hazırda həmin ərazilərdə su mənbələrinin bərpası və irriqasiya sistemi ilə bağlı genişmiqyaslı işlərin planlaşdırıldığını qeyd etdi.

Oded Forer kənd təsərrüfatı sahəsində ölkələrimizin müvafiq qurumları arasında yaxşı əməkdaşlığın mövcud olduğunu dedi, Bakıda keçiriləcək "Caspian Agro 2022" - Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin əhəmiyyətini qeyd etdi və eyni zamanda Azərbaycan-İsrail kənd təsərrüfatı biznes forumunda iştirak etmək üçün onunla birlikdə İsraildən xeyli sayda şirkətin nümayəndələrinin də gəldiyini məmnunluqla bildirdi. İsrailin kənd təsərrüfatı sahəsində yaxşı təcrübəsinin olduğunu qeyd edən nazir bu təcrübəni azərbaycanlı həmkarları ilə bölüşməsindən məmnunluğunu ifadə etdi.

Oded Forer bildirdi ki, Azərbaycanda əldə edilən inkişafın böyük imkanlar yaratdığı nəzərə alınaraq, Qarabağ regionunda da əməkdaşlıq üçün yaxşı potensial var.

# Parlament rəhbərləri Şuşaya səfər edəcəklər

Mayın 17-də İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi konfransı çərçivəsində qurumun İcraiyyə Şurasının iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan İƏT PA-nın və Pakistan Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəf tədbirə evsahibliyi edən Azərbaycan tərəfinə təşəkkür edib, iclasa qatılan parlament nümayəndə heyətlərinin rəhbərlərini və iştirakçıları salamlayıb. İclasda Azərbaycanla yanaşı, Türkiyə, Pakistan, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan nümayəndə heyətləri iştirak ediblər. İƏT PA sədri təşkilatın tarixindən danışaraq indiyədək görülmüş işləri, əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirib, əvvəlki ümumi konfranslarda müzakirə edilmiş məsələlərin əhəmiyyətini qeyd edib.



Sonra Pakistan Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəf İƏT PA-ya sədrliyi Milli Məclisin Sədri Sahibə Qafarovaya təhvil verib.

Tədbir iştirakçılarını salamlayan Sahibə Qafarova qurumun ötən dövrdəki səmərəli fəaliyyətinə görə Pakistan Milli Assambleyasının sədri Raca Pərviz Əşrəfə təşəkkürünü bildirib. Milli Məclisin Sədri konfransın işinin məhsuldar olacağına əminliyini ifadə edib. Gündəlik təsdiq olunduqdan sonra iclasda İƏT PA-nın İkinci Ümumi Konfransının hesabatı, Üçüncü Ümumi Konfransın proqramı və gündəliyi təsdiqlənib, bir sıra təşkilati məsələlərə baxılıb.

İclasda İƏT PA-nın sədr müavini seçilib, növbəti konfransın keçirilmə yeri və vaxtı barədə razılığa gəlinib.

Sonra spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, konfransda iştirak edən nümayəndə heyətlərinin rəhbərləri Azərbaycanın mədəniyyət paytaxtı və Türk dünyasının 2023-cü il üzrə mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər edəcək, qısa müddətdə salınmış Zəfər yolu və Şuşa şəhərində aparılmış tikinti-quruculuq işləri ilə yaxından tanış olacaqlar.

Bununla da İƏT PA-nın İcraiyyə Şurasının iclası başa çatıb.

***"Azərbaycan"***

# Pakistan daim Azərbaycana dəstək verərək, qardaşlıq örnəyi nümayiş etdirib

Milli Məclisin Sədri Sahibə Qafarova mayın 17-də İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəflə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı səmimiyyətlə salamlayan spiker Sahibə Qafarova qeyd edib ki, ortaq dini və mədəni dəyərlər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəm bazasını təşkil edir. Gələn ay Azərbaycan və Pakistan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü tamam olur. Bu illər ərzində münasibətlərimiz uğurlu inkişaf yolu keçib.

Azərbaycan və Pakistanın beynəlxalq və regional təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq etdiyini diqqətə çatdıran spiker Sahibə Qafarova bildirib ki, parlamentlərimiz arasında qarşılıqlı fəaliyyət dövlətlərarası əlaqələrin inkişafına töhfələr verir. Bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub. Milli Məclisin Sədri ötən il Pakistan İslam Respublikasına səfərini, həmçinin Azərbaycan, Türkiyə və Pakistan spikerlərinin Bakıda keçirilən birinci üçtərəfli görüşünü məmnunluqla xatırladaraq qeyd edib ki, bu tədbirlər və görüşlər ölkələrimiz və qanunverici orqanlarımız arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

Görüşdə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm zəfərdən və münaqişənin həllindən sonra regionda yeni yaranmış vəziyyət haqqında məlumat verən Milli Məclisin Sədri xüsusilə qeyd edib ki, istər Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı 30 ilə yaxın dövr, istərsə də Vətən müharibəsi dövründə Pakistan daim Azərbaycana dəstək verərək, qardaşlıq örnəyi nümayiş etdirmişdir. Hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə böyük bərpa və quruculuq işləri həyata keçirir.

Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəf göstərilən yüksək qonaqpərvərliyə və tədbirdə iştiraka dəvətə görə minnətdarlığını bildirib. O, Azərbaycanın Pakistan üçün etibarlı dost və qardaş ölkə olduğunu, ölkəmizlə münasibətlərin inkişafına daim xüsusi önəm verdiklərini qeyd edib. O, Milli Assambleyanın Sədri kimi, ilk səfərini Azərbaycana etdiyini, ölkəmizin sürətli inkişafının təqdir olunduğunu, paytaxt Bakının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu diqqətə çatdırıb. Raca Pərviz Əşrəf İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Üçüncü Ümumi Konfransının yüksək səviyyədə təşkilinə görə Azərbaycan Milli Məclisinə təbrikini ifadə edib.

O, parlament diplomatiyasının beynəlxalq münasibətlərdə mühüm rolunu qeyd edərək, Pakistan Milli Assambleyasının Azərbaycan Milli Məclisi ilə əlaqələrin daha da dərinləşməsində maraqlı olduğunu bildirib, ikitərəfli əməkdaşlıq və beynəlxalq təşkilatlarda birgə fəaliyyətin önəmini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanla İran arasında dost və mehriban qonşuluq münasibətləri qurulub

Mayın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan İran İslam Şurası Məclisi Sədrinin müavini Əli Nikzad ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, ölkəmiz İranla ikitərəfli və çoxtərəfli formatda əlaqələrin inkişaf etdirilməsində maraqlıdır. Ötən il İrana səfərindən danışan spiker həmin səfər çərçivəsində keçirdiyi görüşləri və aparılan danışıqları məmnunluqla xatırlayıb. Qeyd edilib ki, iki ölkə arasında dost və mehriban qonşuluq münasibətləri var.

İranla parlamentlərarası əlaqələrdən danışan Milli Məclisin Sədri bildirib ki, qarşılıqlı əlaqələrin inkişafında parlamentlərimiz mühüm rol oynayır. Deputatlarımız tərəfindən müntəzəm olaraq qarşılıqlı səfərlər həyata keçirilir. Hər iki ölkənin qanunvericilik orqanlarında fəaliyyət göstərən işçi qrupları parlamentlərimiz arasında körpü yaradır.

Söhbət zamanı Milli Məclisin Sədri Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbədən sonra regionda yeni yaranmış vəziyyət haqqında məlumat verərək deyib ki, münaqişə başa çatdıqdan sonra Azərbaycanın Ermənistanın işğalından azad edilmiş ərazilərində genişmiqyaslı yenidənqurma və bərpa dövrü başlayıb, regionda yeni reallıq yaranıb.

Dost və qonşu ölkəyə səfər etməkdən məmnunluğunu bildirən İran İslam Şurası Məclisi Sədrinin müavini Əli Nikzad İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransının Azərbaycanda yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə təşəkkürünü bildirib. Qonaq Milli Məclisin Sədrinin başçılığı ilə ötən il Azərbaycan parlament nümayəndə heyətinin İrana səfərini və keçirilən görüşlərin əhəmiyyətini yüksək dəyərləndirib. İran parlamentinin vitse-spikeri parlamentlərarası əlaqələrin inkişafının ümumi məqsədlərə xidmət etdiyini bildirib, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı Əli Nikzad Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin tezliklə bərpa olunacağına və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdacaqlarına inamını ifadə edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***



# Oxşar mədəni dəyərlər əlaqələrin inkişafı üçün yaxşı zəmin yaradır

Mayın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzoda ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova qonağın Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirakını yüksək dəyərləndirib. Qeyd edilib ki, nümayəndə heyətlərimizin bu cür beynəlxalq tədbirlərdə iştirakı tərəfləri düşündürən məsələlərin müzakirəsi baxımından çox önəmlidir. Spiker Azərbaycan və Tacikistan xalqlarının oxşar mədəni dəyərlərə malik olmasının əlaqələrimizin inkişafı üçün yaxşı zəmin yaratdığını söyləyib. Bildirilib ki, Azərbaycan-Tacikistan dostluğunun qədim tarixi vardır. Biz gələcəkdə də bu ölkə ilə həyatın müxtəlif sahələrində əlaqələrimizi dərinləşdirmək niyyətindəyik. Diqqətə çatdırılıb ki, yüksəksəviyyəli görüşlər zamanı aparılan danışıqlar, ölkələrimiz arasında imzalanmış sənədlər əlaqələrimizin daha da inkişafına yaxşı zəmin yaradır. Bu gün iqtisadi, mədəni, humanitar sahələrdə münasibətləri daha da dərinləşdirmək üçün geniş imkanlar mövcuddur.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Tacikistan Ali Məclisinin Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzoda İƏT PA Üçüncü Ümumi Konfransında iştiraka dəvətə görə minnətdarlığını ifadə edib, burada gördüyü qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkil olunmasına görə təşəkkür edib. Bildirib ki, Tacikistan Azərbaycanla təkcə siyasi deyil, iqtisadi, mədəni, humanitar sahələrdə də əməkdaşlığı genişləndirmək istəyir. Parlamentlər səviyyəsində əlaqələrin inkişafı bu sahələrə də öz müsbət təsirini göstərə bilər. Bu baxımdan nüfuzlu beynəlxalq qurumlarda nümayəndə heyətlərimizin iştirakını və qarşılıqlı səfərləri qonaq təqdir edib.

Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasına sədrlik Azərbaycana keçdi

## Bakıda təşkilatın Üçüncü Ümumi Konfransı keçirilib











Mayın 17-də Milli Məclisdə İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransı keçirilib. Konfrans "Postpandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" mövzusuna həsr olunub.

Parlamentin Sədri Sahibə Qafarova tədbiri açaraq Azərbaycan Respublikası Milli Məclisi adından İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak edən bütün nümayəndə heyətlərini salamlayıb. O, Pakistan İslam Respublikasının Milli Assambleyasına İƏT PA-ya uğurlu sədrliyinə görə minnətdarlığını bildirib. O, Pakistan tərəfinin ötən dövr ərzində assambleyanın təsisatlandırılması baxımından mühüm işlər gördüyünü deyib, Pakistanın İƏT PA-nın Katibliyi qismində çıxış etməsinə görə təşəkkür edib. Sahibə Qafarova qurumun Üçüncü Ümumi Konfransının keçirilməsində Katibliyin rolunu yüksək qiymətləndirib. Qeyd edib ki, təşkilatın tam potensialını üzə çıxarmaq üçün böyük işlər görülməlidir və Azərbaycan Milli Məclisi dayanıqlı tərəfdaşlıq çərçivəsində işə başlamaq istəyir. Spiker bildirib ki, artıq qurumun 3 komitəsinin iclasları keçirilib.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. Sahibə Qafarova qurumun İcraiyyə Şurasının qərarları haqqında məlumat vermək üçün sözü İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Tahir Hüsseynə verib.

İƏT PA-nın Baş katibi Tahir Hüsseyn diqqətə çatdırıb ki, tədbirdə qurumun İkinci Ümumi Konfransının hesabatı təqdim olunub. İcraiyyə Şurası Bakı Bəyannaməsini təsdiq edib. Bəyannamə bütün nümayəndə heyətləri tərəfindən imzalanacaq. İcraiyyə Şurası İƏT PA-nın işçi qrupu tərəfindən verilən təklifi dəstəkləyib. Bu işçi qrupu Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin nümayəndələrindən ibarətdir. Beləliklə, İƏT PA Katibliyinin inzibati və maliyyə qaydaları qəbul olunacaq. Bununla yanaşı, İƏT PA-nın prosedur qaydalarına dəyişiklik təsdiq edilib. Qeyd olunub ki, Azərbaycan Milli Məclisi qurumun üç komitəsinin iclaslarına evsahibliyi edib.

Sonra İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında çıxış edən Milli Məclisin Sədri bildirib ki, Üçüncü Ümumi Konfransda İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasına sədrlik Pakistan İslam Respublikasının Milli Assambleyasından Azərbaycan Respublikasının Milli Məclisinə keçib. Sahibə Qafarova konfrans iştirakçılarını əmin edib ki, Azərbaycan Respublikasının Milli Məclisi təşkilata sədrliyi dövründə assambleyanın fəaliyyətinin gücləndirilməsi, parlamentlərimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcəkdir.

Spiker diqqətə çatdırıb ki, Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq Təşkilatını mühüm regional təşkilat hesab edir və üzv ölkələrlə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın inkişafında maraqlıdır.

O, qeyd edib ki, xalqlarımızı birgə tarix, mədəniyyət, ənənələr və din birləşdirir. Bu mənada xalqlarımızın təmsilçiləri kimi, biz, parlament üzvləri xüsusi məsuliyyət daşıyırıq. İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası təşkilatın hədəf və məqsədlərinin reallaşdırılmasını dəstəkləməklə yanaşı, parlamentlərimiz arasında əlaqələrin gücləndirilməsinə, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verir.

Sahibə Qafarova bildirib ki, Azərbaycan Respublikasının Milli Məclisi Parlament Assambleyası çərçivəsində fəaliyyətinə böyük əhəmiyyət verir. Assambleyanın Nizamnaməsinin ratifikasiya edilməsi bunun bariz nümunəsidir. O, digər üzv parlamentləri də, Assambleyanın Nizamnaməsini imzalamağa və ratifikasiya etməyə çağırıb. Qeyd edib ki, bu addım üzv parlamentlərimiz arasındakı əlaqələrin daha da genişlənməsinə xidmət edəcəkdir.

Milli Məclisin Sədri qeyd edib ki, Parlament Assambleyasının Üçüncü Ümumi Konfransının mövzusu olduqca aktualdır. COVID-19 pandemiyası qlobal iqtisadiyyata, səhiyyəyə və ictimai həyatın bütün sahələrinə kəskin şəkildə təsir göstərməklə ciddi çətinliklər yaratmışdır. Təəssüf ki, dünya ictimaiyyəti bu çətinliklərə hazırlıqlı olmamışdır və böhrandan çıxış yollarının tapılması üçün müəyyən vaxt tələb olunmuşdur. Pandemiyanın yaratdığı problemlərin bir-biri ilə bağlı olması və ilk növbədə sosial-iqtisadi yükünün ağır olması fonunda pandemiya ilə mübarizə və onun mənfi nəticələrinin aradan qaldırılması üçün qlobal səylərin səfərbər olunması zəruri idi.

Spiker deyib ki, Azərbaycan Respublikası bu istiqamətdə bir sıra uğurlu qlobal təşəbbüslər irəli sürmüşdür. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyası keçirilmiş, 2021-ci ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr qəbul edilmişdir. Digər tərəfdən, Azərbaycan pandemiyadan ən çox əziyyət çəkən ölkələrə maliyyə və humanitar yardım göstərmiş, xəstəlik əleyhinə peyvənd ianə etmişdir.

Milli Məclisin Sədri bildirib ki, pandemiya tamamilə aradan qalxmasa da, kəskin dövrü geridə qalıb. İndi biz növbəti addımlara hazır olmalı və gələcək mümkün çağırışlarla daha güclü mübarizə aparmaq üçün postpandemiya dövründə bərpa məsələlərinə daha çox diqqət yetirməliyik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev artıq pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərlə bağlı konkret tövsiyələr hazırlaya biləcək BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin təsis edilməsi təşəbbüsünü irəli sürüb.

Sahibə Qafarova diqqətə çatdırıb ki, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi regional əməkdaşlıq formatları postpandemiya dövründə bərpa məsələləri üzrə səylərin birləşdirilməsi və həmrəyliyin nümayiş etdirilməsi baxımından yaxşı imkanlar vəd edir. Parlament diplomatiyasının xüsusi əhəmiyyət qazandığı müasir dövrdə parlament üzvləri ölkələrinin çoxtərəfli əməkdaşlıq səylərini dəstəkləməlidirlər. Mövcud dialoqumuz çərçivəsində aparılan fikir və təcrübə mübadilələri, irəli sürülən yeni ideyalar, parlament komitələrimizin mümkün birgə fəaliyyət təşəbbüsləri bu prosesə töhfə verəcəkdir.

Sahibə Qafarova qeyd edib ki, postpandemiya dövründə ölkələrimizin maraqlarına cavab verən iqtisadi və ticari əlaqələrin əvvəlki səviyyələrinin yenidən bərpası zəruridir. Bu çərçivədə regionumuzun iqtisadi potensialının tam şəkildə reallaşdırılması baxımından nəqliyyat-kommunikasiya xətlərinin və tranzit yollarının diversifikasiyası mühüm aktuallıq kəsb edir. Azərbaycan bu istiqamətdə öz imkanlarını təqdim edir. Ölkəmizdə ən müasir nəqliyyat infrastrukturu yaradılıb. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin üzərində yerləşən Azərbaycan bu gün Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən biridir.

Milli Məclisin Sədri bildirib ki, regionumuzda uzunmüddətli sülh və sabitliyin təmin olunması postpandemiya dövründə bərpa məsələləri üçün zəruri şərtlərdən biridir.

Spiker hazırda bu istiqamətdə gedən proseslər haqda məlumat verərək diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoyub. 44 günlük Vətən müharibəsinin yekununda ölkəmiz tarixi zəfər əldə edərək öz ərazi bütövlüyünü bərpa edib. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin icrasını özü təmin edib.

Milli Məclisin Sədri qeyd edib ki, işğal dövründə Ermənistan bütün kənd və şəhərlərimizi tamamilə dağıdıb, tarixi, mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub. Məscidlərimiz, müqəddəs ocaqlarımız təhqir olunub.

Torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra Azərbaycan öz vəsaiti hesabına həmin ərazilərdə genişmiqyaslı quruculuq işlərinə start verib. Hazırda işğal dövründə dağıdılmış bütün infrastruktur yenidən bərpa olunur. "Yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Artıq bu ildən etibarən keçmiş məcburi köçkünlərin öz evlərinə geri qaytarılmasına başlanacaqdır.

Spiker onu da diqqətə çatdırıb ki, həyata keçirilən işlərə ən böyük maneə Ermənistan tərəfindən işğaldan azad edilmiş torpaqlarda basdırılmış çoxsaylı minalardır. 10 noyabr 2020-ci il tarixindən etibarən mina partlayışları nəticəsində 210-dan çox mülki şəxs və hərbçi həlak olub və yaralanıb. Azərbaycan dünyanın ən çox minalanmış ölkələrindən biri olsa da, təəssüf ki, hələ də bu istiqamətdə ən az beynəlxalq yardım alan ölkələrdən biri olaraq qalır.

Sahibə Qafarova qeyd edib ki, 44 günlük Vətən müharibəsindən artıq bir il yarım vaxt keçir. Azərbaycan Ermənistana bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlanması, regionda bütün kommunikasiyaların bərpası və münasibətlərin normallaşdırılmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması barədə təklif verib. Biz müharibə yox, sülh və gələcək haqqında danışmaq istəyirik.

Spiker onu da vurğulayıb ki, Azərbaycan regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirir. Son olaraq aprelin 6-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Brüsseldə daha bir üçtərəfli görüş keçirilib. Həmin ərəfədə və xüsusən bu görüşdən sonra Ermənistan Azərbaycanın sülh müqaviləsi üçün irəli sürdüyü 5 prinsipi qəbul etdiyini bəyan edib. Ancaq Ermənistanın bu istiqamətdə hansısa real addımlar atdığı hələlik müşahidə olunmur. Halbuki sülh müqaviləsinin hazırlanması üzrə Azərbaycan nümayəndə heyətinin və iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan milli komissiyasının tərkibi artıq müəyyən edilib. Azərbaycan sülh danışıqlarına başlamağa hazırdır.

Milli Məclisin Sədri qeyd edib ki, Ermənistan anlamalıdır ki, öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli, konstruktiv yanaşma nümayiş etdirməli və qeyd olunan prinsiplər əsasında münasibətlərin normallaşmasına getməlidir. Bu, regionda real sülhə və sabitliyə nail olmağın yeganə yoludur.

Çıxışının sonunda Sahibə Qafarova bildirib ki, postmünaqişə dövründə Cənubi Qafqazda yeni reallıqlar və yeni əməkdaşlıq imkanları yaranıb. Əldə olunmuş razılaşmalara uyğun olaraq açılacaq yeni nəqliyyat infrastrukturu olan Zəngəzur dəhlizi "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin önəmli hissəsinə çevriləcəkdir. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan bütün ölkələr də bu yeni dəhlizdən faydalanacaqlar.

Sonra İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak edən nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər.

Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəf öz çıxışında quruma üzv ölkələrin xalqlarının ümumi dəyərləri bölüşdüyünü söyləyib. Regionda sülhün və rifahın bərqərar olmasının iqtisadi tərəqqinin və əməkdaşlığın inkişafı baxımından əhəmiyyətindən söhbət açıb. Mövcud problemlərin həlli istiqamətində birgə səylərin önəmli olduğunu deyib.

Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzoda bu görüşün parlament əlaqələrinin daha da möhkəmləndirilməsinə xidmət etdiyini deyib. COVID-19 pandemiyasının bütün dünyada yaratdığı fəsadlardan danışıb. Pandemiyanın nəticələrinin aradan qaldırılması üçün ölkəsində görülən işlərdən bəhs edib. Bu istiqamətdə qarşılıqlı əməkdaşlığın vacibliyini qeyd edib. Qonaq region ölkələrinin iqtisadi inkişafı istiqamətində İƏT çərçivəsində əməkdaşlığın əhəmiyyətli olduğunu bildirib.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop öz nitqində İƏT PA-nın Bakıda keçirilən Üçüncü Ümumi Konfransında iştirakından məmnunluğunu ifadə edib. Konfransı yüksək səviyyədə təşkil və evsahibliyi edən Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib. O, bu konfransın ölkələrin və regionun inkişafı, xalqların rifahı baxımından əhəmiyyətli olduğunu deyib. Bildirib ki, iqtisadi və sosial inkişafın davamlı olmasına nail olmaq üçün qarşılıqlı inteqrasiya və əməkdaşlığın inkişafı çox vacibdir və Türkiyə bu istiqamətdə öz dəstəyini hər zaman göstərməyə hazırdır. O, ölkəsinin parlamentlərarası əlaqələrin gücləndirilməsinə böyük diqqət yetirdiyini qeyd edib, parlament diplomatiyasının regional inteqrasiya və inkişafa töhfə verəcəyinə inamını ifadə edib.

Mustafa Şentop koronavirus pandemiyasının bütün dünyada sosial, iqtisadi, humanitar sahələrdə çox dərin problemlər yaratdığını bildirib. Qeyd edib ki, bu problemlərin həlli üçün birgə hərəkət etmək lazımdır. Beynəlxalq həmrəylik prioritet məsələyə çevrilib və bu proses eyni zamanda parlament diplomatiyasının böyük əhəmiyyət kəsb etdiyini bir daha nümayiş etdirib. Pandemiyaya qarşı mübarizə ilə bağlı, o cümlədən sosial məsələlərin nəzərə alınması, maliyyə resurslarından səmərəli istifadə edilməsi sahəsində qəbul olunmuş qərarların qanunvericilik baxımından dəstəklənməsi çox önəmlidir.

Türkiyə parlamentinin Sədri çıxışında Azərbaycanın öz torpaqlarını Ermənistanın işğalından azad etməsi məsələsinə də toxunub.O, münaqişənin həlli ilə bağlı yaradılmış Minsk qrupunun fəaliyyətinin bir nəticə vermədiyini qeyd edib, Türkiyənin Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəklədiyini vurğulayıb. Mustafa Şentop Azərbaycan Prezidenti İlham Əliyevə 44 günlük Vətən müharibəsindəki zəfər münasibəti ilə bir daha öz təbriklərini çatdırıb və bildirib ki, "Qarabağ Azərbaycandır".

Konfransda çıxış edən Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının Sədri Nurdinjon İsmoilov, İran İslam Respublikası İslam Şurası Məclisi Sədrinin müavini Əli Nikzad, Qazaxıstan Respublikası Parlamenti Məclisi Sədrinin müavini Balaim Kesebayeva, Qırğız Respublikası Joqorku Keneşinin Sədr müavini Ulan Primov postpandemiya dövründə regional əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində İƏT PA-ya üzv ölkələrin qarşısında duran məqsədlərdən danışıblar. Konfransın regionda sosial-iqtisadi tərəqqiyə təkan vermək baxımından vacibliyini qeyd ediblər. Parlament rəhbərləri ölkələr arasında iqtisadi, ticarət, nəqliyyat, turizm sahələrində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin zəruri olduğunu söyləyiblər, mövcud problemlərin həlli ilə bağlı parlamentlərin üzərinə düşən vəzifələrdən bəhs ediblər. Onlar parlament nümayəndə heyətlərinin ikitərəfli və çoxtərəfli əlaqələrinin möhkəmləndirilməsi sahəsində belə tədbirlərin əhəmiyyətli olduğunu bildiriblər.

Bütün nümayəndə heyətlərinin rəhbərləri İƏT PA-nın Bakıda keçirilən tədbirinin yüksək səviyyədə təşkil olunduğunu və region ölkələrinin bütün sahələrdə, o cümlədən parlamentlər səviyyəsində qarşılıqlı faydalı əməkdaşlığının daha da inkişaf etdirilməsinə öz töhfəsini verəcəyinə əminliklərini ifadə ediblər.

Konfransda iştirak edən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri Azərbaycan hökumətinə, Milli Məclisin Sədri Sahibə Qafarovaya tədbirdə iştirak edən nümayəndə heyətləri üçün yaradılmış şəraitə görə təşəkkürünü bildirib. O, dünyada baş verən proseslərdə parlamentlərin artan rolundan danışıb, İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının yaradılmasını yüksək qiymətləndirib. Xusrav Noziri bütün üzv dövlətlərin bu forumun gücləndirilməsi istiqamətində göstərdiyi səyləri xüsusi qeyd edib. O, təşkilatın gələcək fəaliyyət istiqamətləri barədə də fikirlərini açıqlayıb.

İclasda İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Baş katibi Tahir Hüsseyn növbəti məsələnin Bakı Bəyannaməsinin imzalanması olduğunu diqqətə çatdırıb. Sonra nümayəndə heyətlərinin rəhbərləri Bakı Bəyannaməsini imzalayıblar.

Bəyannamənin imzalanma mərasimindən sonra Milli Məclisin Sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransının sona çatdığını qeyd edib. Spiker bildirib ki, hal-hazırda Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasına sədrliyi öz üzərinə götürüb. Biz əlimizdən gələni edəcəyik ki, bu təşkilatı gücləndirək və üzərimizə düşən bütün vəzifələri yerinə yetirək. Əminəm ki, bugünkü çıxışlarda söylənilən fikirlər bizim işimizi zənginləşdirəcək və imkan verəcək ki, bizim əməkdaşlığımız yeni səviyyəyə yüksəlsin. Milli Məclis üzv ölkələrin parlamentləri ilə əməkdaşlığı genişləndirməyə hazırdır.

Tədbirin yekununda Sahibə Qafarova tədbirdə iştirak edən bütün nümayəndə heyətlərinin üzvlərinə təşəkkürünü bildirib.

Sonra nümayəndə heyətlərinin üzvləri xatirə şəkli çəkdiriblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İƏT PA-nın Üçüncü Ümumi Konfransının iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər













Mayın 17-də İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransının iştirakçıları Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil qoyublar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ziyarət zamanı qurumun iştirakçılarını Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə təşkilatda nümayəndə heyətimizin üzvləri - İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, deputatlar Elnur Allahverdiyev, İltizam Yusifov, Könül Nurullayeva və digər rəsmi şəxslər müşayiət ediblər.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən konfrans iştirakçılarına Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransının iştirakçıları həmçinin "Türk şəhidliyi" abidəsini ziyarət edib, önünə əklil qoyaraq türk şəhidlərinə ehtiramlarını bildiriblər.

***"Azərbaycan"***

# İƏT PA-nın komitələrində







Mayın 17-də Azərbaycanın evsahibliyi ilə Milli Məclisdə İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA-nın) komitə iclasları keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, quruma üzv ölkələrin parlamentarilərinin iştirakı ilə komitə iclaslarında təşkilati məsələlərə baxılıb, komitələrin sədrləri, müavinləri və məruzəçiləri müəyyən edilib. İclaslarda "Postpandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" mövzusunda çıxışlar edilib, müzakirələr keçirilib.

* * *

İƏT PA-nın Ticarət və İqtisadi Əməkdaşlıq Təşkilatı Ticarət Sazişi üzrə Komitəsinin iclası Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin sədrliyi ilə keçib.

Tahir Mirkişili iclası açaraq iştirakçıları salamlayıb. Bildirib ki, bu il Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olmasının 30 ili tamam olur. İƏT-ə üzv olduqdan sonra ölkəmiz regionda iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə yönəlmiş müxtəlif təşəbbüslərdə konstruktiv şəkildə iştirak edib.

Milli Məclisin komitə sədri Azərbaycanın ticarət əlaqələri haqqında danışaraq bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan hər bir ölkə, xüsusən də İƏT-ə üzv ölkələrlə əməkdaşlığa açıqdır. Tahir Mirkişili eyni zamanda Azərbaycanın 44 günlük Vətən müharibəsində torpaqlarını erməni işğalından azad etməklə bölgədə yeni reallıqlar yaratdığını qeyd edib, əməkdaşlıq imkanları barədə danışıb.

Gündəliyin "Postpandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" mövzusu ilə bağlı Milli Məclisin deputatı Elnur Allahverdiyev çıxış edib. O, pandemiya dövründə ölkəmizdə görülən işlərdən danışaraq qeyd edib ki, Azərbaycan dünyada vaksin qəbul edən ilk ölkələrdən olub. Milli Məclisin deputatı dünyanın bir daha belə bir bəla ilə üzləşməyəcəyinə ümidvar olduğunu söyləyib.

İclasda mövzu ətrafında fikir mübadiləsi aparılıb, parlamentarilər postpandemiya dövründə görüləcək işlər barədə düşüncələrini səsləndiriblər.

* * *

İƏT PA-nın Kommunikasiya və əlaqələndirmə üzrə komitəsinin iclasına Milli Məclisin deputatı İltizam Yusifov sədrlik edib.

İclası açan İltizam Yusifov qonaqları salamlayıb, iclas iştirakçılarına uğurlar diləyib.

İltizam Yusifov gündəliyin "Postpandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" mövzusu ilə bağlı çıxışında Azərbaycanın İƏT çərçivəsində əməkdaşlığın gücləndirilməsində maraqlı olmasından danışıb. O, Azərbaycanın nəqliyyat-tranzit əlaqələrinin genişləndirilməsinə böyük önəm verdiyini vurğulayıb və bu istiqamətdə həyata keçirilən layihələr barədə məlumat verib.

İltizam Yusifov iclas iştirakçılarına 44 günlük Vətən müharibəsində əldə olunan zəfərin regionda, xüsusən də nəqliyyat-kommunikasiya əlaqələrinin inkişaf etdirilməsində yaratdığı yeni reallıqlardan bəhs edib. Bildirib ki, Azərbaycan bölgədə sülhün məhkəmləndirilməsi və iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi üçün bütün maraqlı tərəflərlə tərəfdaşlıq etməyə hazırdır.

İclasda mövzu ilə bağlı müzakirələr aparılıb, parlamentarilərin fikirləri dinlənilib.

* * *

İƏT PA-nın Qadın, gənclər və mədəni məsələlər üzrə komitəsinin iclasına Milli Məclisin deputatı Könül Nurullayeva sədrlik edib. Gündəliyin "Postpandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" mövzusu ilə bağlı çıxışında Könül Nurullayeva koronavirusla mübarizədə Azərbaycan təcrübəsindən danışıb, görülən qabaqlayıcı tədbirlər sayəsində insanlar arasında itkilərin az olduğunu diqqətə çatdırıb, pandemiya dövründə gənclər və qadın problemləri ilə yanaşı, mədəniyyət sahəsinin çox zərər çəkdiyini qeyd edib.

Milli Məclisin deputatı Azərbaycanın Vətən müharibəsindəki zəfərindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən bərpası və qurulması barədə məlumat verib. Bildirib ki, bölgədə reallaşacaq kommunikasiya və logistika layihələri regional əməkdaşlığa və iqtisadi inkişafa böyük töhfələr verəcək.

İclasda parlamentarilərin mövzu ilə bağlı məruzələri dinlənilib, fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

## *Əli NİKZAD:* "Üzv ölkələr arasında sıx əməkdaşlığı təmin etməklə inkişafa nail olmaq mümkündür"



"İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin təbii ehtiyatları çox zəngindir. Ticarət, iqtisadiyyat və digər sahələrdə inkişafa kollektiv təşkilat qurmaqla və sıx əməkdaşlığı təmin etməklə nail olmaq mümkündür".

AZƏRTAC xəbər verir ki, bu fikirləri İran İslam Şurası Məclisinin Sədr müavini Əli Nikzad mayın 17-də İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Bakıda keçirilən Üçüncü Ümumi Konfransında deyib.

2021-ci ilin noyabrında keçirilən Zirvə toplantısında mühüm məsələlərin müzakirə olunduğunu qeyd edən Ə.Nikzad İƏT-ə üzv ölkələr arasında regional ticarətin, parlamentlərarası, turizm əlaqələrinin inkişafının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Davamlı məsləhətləşmələrə ehtiyac olduğunu bildirən iranlı parlamentari konfransın ümumi işə töhfə verəcəyinə əminliyini ifadə edib.

# Regionun inkişaf və əməkdaşlıq mərkəzi

## Azərbaycanın təşəbbüsləri İƏT-in daha səmərəli fəaliyyətini təmin edib

*Əvvəli 1-ci səh.*

Azərbaycan İƏT Nazirlər Şurasının 1992-ci ilin 28 noyabr tarixində İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı təşkilatın üzvlüyünə qəbul olunub. Həmin gün Azərbaycanla yanaşı, daha 5 ölkə - Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan təşkilata daxil olub. İƏT-in bu genişlənməsi hazırda "İƏT günü" kimi qeyd olunur. Genişlənəndən sonra İƏT Avrasiyada əhəmiyyətli regional birliyə çevrilib və nüfuzlu beynəlxalq təşkilat kimi təşəkkül tapmağa başlayıb.

İƏT həm də artıq həllini tapmış Qarabağ məsələsində hər zaman Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə edib. Təşkilatın ötən il keçirilən XIV onlayn Zirvə toplantısında çıxış edənlər Prezident İlham Əliyevi qələbə münasibətilə təbrik etmişdilər.

### Azərbaycan təşkilat daxilində inteqrasiya proseslərini gücləndirib

Azərbaycan İƏT çərçivəsində əməkdaşlığa önəm verir və təşkilatın səmərəli fəaliyyət göstərməsində maraqlıdır. Ölkəmiz 2006 və 2012-ci illərdə İƏT Zirvə toplantılarına evsahibliyi etmiş və bu tədbirlərdə qəbul edilmiş sənədlərdə üzv ölkələr arasında bir sıra sosial-iqtisadi və siyasi əlaqələrin əsas prinsipləri, regional münasibətlərin prioritetləri və istiqamətləri öz əksini tapmışdır. Regional həmrəyliyə diqqətlə yanaşan Azərbaycan daim İƏT-in fəaliyyətinin daha da canlandırılmasına çalışıb və bu istiqamətdə üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirib. İndiyədək Azərbaycan çox mühüm iqtisadi, o cümlədən enerji və nəqliyyat layihələri həyata keçirib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu xətti İƏT üzvü olan dövlətlər üçün də ən əlverişli iqtisadi imkanlar yaradıb. Bütün bunlarla ölkəmiz İƏT-in regionda daha səmərəli fəaliyyətini təmin edib. Bütövlükdə Azərbaycanın təşəbbüsləri ilə İƏT daha da inkişaf edib, dünyada öz mövqelərini möhkəmləndirib, təşkilat daxilində inteqrasiya prosesləri güclənib.

Azərbaycan İƏT vasitəsilə ortaq maraq kəsb edən layihələrin həyata keçirilməsini dəstəkləyir və müxtəlif sahələrdə əməkdaşlığın inkişafı məqsədilə təklif və təşəbbüslər irəli sürür. Bu xüsusda ölkəmizin təşəbbüsü ilə Bakıda İƏT Tədqiqat Mərkəzinin təsis edilməsinə dair İƏT Xarici İşlər Nazirləri Şurası tərəfindən müvafiq qərar qəbul edilib. Bundan əlavə, Azərbaycan təşkilat çərçivəsində digər üzv dövlətlərlə bir sıra prioritet sahələr, o cümlədən ticarət, investisiya, nəqliyyat, enerji və ətraf mühit sahələri üzrə əməkdaşlıq edir.

### İƏT PA-ya sədrlik Azərbaycana keçdi

Ümumiyyətlə, İƏT-ə üzv olan olkələrin strateji coğrafi məkanlarda yerləşməsi, Qərblə Şərqi birləşdirən ən qısa və səmərəli nəqliyyat dəhlizinə malik olması, təbii sərvətlərlə zənginliyi bu təşkilatın əhəmiyyətini artıran amillərdəndir. Qeyd olunan keyfiyyətlər baxımından Azərbaycan bu təşkilatda xüsusi çəkiyə malikdir. Ona görə Azərbaycan İƏT-in iqtisadyönlü təşkilat kimi inkişaf etməsini və bu istiqamətdə layihələr həyata keçirilməsini dəstəkləyir, İƏT üzvləri arasında əməkdaşlığa önəm verir. Bu da onu göstərir ki, Azərbaycan təşkilatın səmərəli fəaliyyət göstərməsində maraqlıdır.

Bu baxımdan Azərbaycan həm də İƏT-də fəal rol oynayan üzv dövlətlərdən biridir. Azərbaycanda səfərdə olan İƏT Baş katibi Xusrav Noziri də mayın 16-da Milli Məclisin Sədri Sahibə Qafarova ilə görüşdə Azərbaycanın təşkilatda fəal təmsilçiliyini yüksək qiymətləndirib. İƏT PA-nın Baş katibi Tahir Hüsseyn isə Azərbaycanla rəhbərlik etdiyi təşkilat arasında əlaqələrin hazırkı səviyyəsindən razılığını bildirib.

Qeyd edək ki, dünən Bakıda keçirilən İƏT PA Üçüncü Ümumi Konfransının mövzusu "Postpandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" idi. Konfransda həmçinin İƏT PA-ya sədrlik Azərbaycana keçib. Şübhə yoxdur ki, Azərbaycan sədrliyi dövründə İƏT PA-nın fəaliyyətinin gücləndirilməsi istiqamətində səmərəli addımlar ataraq, mühüm uğurlara nail olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İqtidar-müxalifət siyasi dialoqu davam edir




Mayın 17-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkəmizdə aparılan iqtidar-müxalifət siyasi dialoqu çərçivəsində Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov ilə görüşüb.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə son illər ölkədə aparılan məqsədyönlü islahatlar, bu islahatların ölkəmizin güclənməsinə, insanlarımızın rifah halının yaxşılaşmasına müsbət təsirləri, genişmiqyaslı islahatların məntiqi davamının yeni siyasi konfiqurasiyanın formalaşmasında özünü göstərməsi və nəticədə iqtidar-müxalifət siyasi dialoqunun dərinləşməsi prosesinin davam etdirilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılan və ölkəmizdə fəaliyyət göstərən bütün əksər siyasi güclərin cəlb olunduğu siyasi dialoq prosesinin əhəmiyyəti haqqında danışan şöbə müdiri Ədalət Vəliyev qeyd edib ki, bu proses ali siyasi iradənin ifadəsidir və bu prosesin davamlı olması dövlətçiliyimizin möhkəmlənməsi baxımından çox önəmlidir.

Şöbə müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı qələbədən sonra işğaldan azad edilmiş torpaqların yenidən qurulması, postpandemiya dövründə ölkəmizin iqtisadi gücünün artırılması, əhalinin sosial təminatının yaxşılaşdırılması və dövlət idarəetməsinin təkmilləşdirilməsi istiqamətində atılan addımların müsbət nəticələri, ölkəmizdə korrupsiyaya qarşı sərt mübarizə tədbirləri barədə danışıb və bu çoxşaxəli proseslərdə siyasi dialoq çərçivəsində müxalifət partiyalarının iştirak etmək istəklərini yüksək dəyərləndirib.

Görüş zamanı Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov Vətən müharibəsi zəfəri və ölkəmizin ərazi bütövlüyünün təmin olunması ilə nəticələnən uğurlu xarici siyasətin Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun möhkəmlənməsinə böyük töhfə verdiyini, haqlı mübarizədə dünya dövlətlərinin ölkəmizi dəstəklədiyini vurğulayıb və bunun Ermənistanın bütün cəbhələrdə məğlubiyyətinin əsas səbəbi olduğunu bildirib. Ölkədə aparılan siyasi dialoq prosesinin müxtəlif formatlarda inkişaf etdirilməsi və dərinləşdirilməsində maraqlı olduğunu, həmçinin siyasi dialoqun dövlətçilik, milli birlik üçün böyük əhəmiyyət daşıdığını qeyd edən Abutalıb Səmədov bu istiqamətdə rəhbərlik etdiyi partiyanın ümumi işə daim dəstək vermək istiqamətində fəaliyyət göstərdiyini qeyd edib.

Tərəflər siyasi dialoq prosesi çərçivəsində gündən-günə inkişaf edən və davamlı şəkil alan əməkdaşlığın qısa zamanda müsbət nəticələr verdiyini, bunun gələcəkdə ölkəmizə qarşı baş verə biləcək xarici təhdidlərin aradan qaldırılması üçün xalqımızın birliyini simvolizə edəcəyinə əminlik ifadə edib.

Sonda Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov ölkədə aparılan siyasi dialoq prosesinin inkişafına xidmət edən görüşə dəvət edildiyi üçün öz təşəkkürünü bildirib.

# Litva Prezidenti Gitanas Nauseda Azərbaycana rəsmi səfərə gəlib



Litva Respublikasının Prezidenti Gitanas Nauseda mayın 17-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Litva Respublikasının Prezidenti Gitanas Nausedanı və xanımı Diana Nausedanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

# Bakıda Avropa İttifaqı-Azərbaycan biznes forumu olub





Mayın 17-də Avropa İttifaqı-Azərbaycan biznes forumu keçirilib. Tədbirdə hər iki tərəfdən rəsmi şəxslər, beynəlxalq təşkilatların nümayəndələri və sahibkarlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, forumda Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko Aİ-Azərbaycan əlaqələrindən danışıb, ölkəmizin əlverişli biznes və investisiya mühitindən məmnunluğunu ifadə edib. Bildirilib ki, tərəflər arasında ticarət genişlənir, 2021-ci ildə ticarət dövriyyəsi 15 milyard dollardan çox olub. Yeni layihələrin icrasının tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyini qeyd edən səfir Peter Mixalko Azərbaycanın əlverişli coğrafi mövqeyinin, nəqliyyat-tranzit potensialının Aİ şirkətlərini cəlb etdiyini və onların ölkəmizdə fəaliyyətdə, eləcə də işğaldan azad olunmuş ərazilərimizin bərpası və quruculuq işlərində iştirakda maraqlı olduqlarını bildirib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizin Avropa İttifaqı ilə əlaqələrə xüsusi önəm verdiyini diqqətə çatdırıb, tərəflər arasında münasibətlərin artan dinamikasında qarşılıqlı səfərlərin, yüksəksəviyyəli görüşlərin əhəmiyyətini qeyd edib. Aİ-nin Azərbaycanın ən böyük investisiya tərəfdaşı olduğunu diqqətə çatdıran nazir indiyədək Avropa İttifaqı ölkələrindən Azərbaycan iqtisadiyyatına 20 milyard avrodan çox sərmayə yatırıldığını, Aİ-nin ölkəmizə Tvinninq və digər mexanizmlərlə dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib. Vurğulanıb ki, 6-cı nəşr "Aİ biznes mühiti hesabatı-2021"də qarşılıqlı əməkdaşlığın genişlənməsinin, Azərbaycan-Aİ işgüzar əlaqələrinin inkişaf etdirilməsinə böyük marağın göstəricilərindəndir.

İqtisadiyyat naziri biznes forumda Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin uğurlu nəticələr verdiyini vurğulayıb, son illər ölkəmizin fiskal gəlirlərinin, vergiödəyicilərinin sayının, məşğulluğun, ticarət dövriyyəsinin artmasını, sahibkarlığın inkişafını qeyd edib, iqtisadi inkişafın davamlılığının dəstəklənməsini təmin etmək məqsədilə Azərbaycanın sosial-iqtisadi inkişaf prioritetlərini diqqətə çatdırıb. Qeyd olunub ki, ölkəmizdə iqtisadiyyatın "yaşıl" və davamlı inkişafına, innovativ sahibkarlığın, rəqəmsallaşmanın genişləndirilməsinə, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərində "yaşıl" və "ağıllı" konsepsiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Tədbirdə həmçinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan infrastruktur və tikinti layihələri barədə məlumat verilib, yeni reallıqların investisiya qoyuluşu üçün böyük imkanlar yaratdığı vurğulanaraq, Aİ-yə üzv olan ölkələr bu layihələrdə fəal iştiraka dəvət edilib. Bildirilib ki, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları işğaldan azad edilmiş ərazilərimizin ölkə iqtisadiyyatına reinteqrasiyasını daha da sürətləndirəcək.

Vurğulanıb ki, sahibkarlıq ölkə iqtisadiyyatı üçün xüsusilə əhəmiyyətlidir, özəl bölmənin inkişafı üçün geniş dövlət dəstəyi mexanizmləri tətbiq edilir. Bütün bunların nəticəsi olaraq, 2026-cı ilədək Azərbaycanda KOB-ların ÜDM-də payı 60 faizə, məşğullluqda 70 faizə və qeyri-neft ixracında 40 faizə çatdırılması qarşıya hədəf kimi qoyulub.

Tədbirdə "Aİ biznes mühiti hesabatı-2021"in təqdimatı keçirilib. Hesabata əsasən, ölkəmizdə təmsil olunan Aİ ölkələri şirkətlərinin 80 faizi iqtisadi fəaliyyət üçün Azərbaycanı seçmək, 53 faizi isə ölkəmizdə biznes fəaliyyətlərini genişləndirmək niyyətini bildiriblər. Aİ ölkələri şirkətlərinin 54 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya yatırmaqda maraqlıdırlar, 14 faizi isə artıq investisiya layihələrində iştirak edirlər.

Biznes forumda hesabat barədə ekspertlərin rəyləri dinlənilib, işgüzar əlaqələrin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi imkanları barədə müzakirələr aparılıb, suallar cavablandırılıb.

Tədbir öz işini panel müzakirələrlə davam etdirir.

# Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İrana səfər edəcək

Cari il mayın 18-də Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasına səfər edəcək.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Energetika, Rəqəmsal İnkişaf və Nəqliyyat, Xarici İşlər nazirlikləri, Gömrük Komitəsi, Avtomobil Yolları Dövlət Agentliyi, "Azərbaycan Dəmir Yolları" QSC və digər qurumların məsul vəzifəli nümayəndələri daxildir.

Səfər çərçivəsində nümayəndə heyətinin İranın Yol və Şəhərsalma Nazirliyi, Xarici İşlər Nazirliyi, Silahlı Qüvvələrin Baş Qərargahı və digər qurumlarında görüşlərin keçirilməsi nəzərdə tutulur.

Görüşlərdə Azərbaycanla İran arasında nəqliyyat-tranzit, logistika, energetika, sənaye, ticarət, sərmayə  və digər məsələlər müzakirə olunacaq. Azərbaycan Hökuməti ilə İran Hökuməti arasında İranın ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun icrası, bu layihənin həyata keçirilməsinin regional inkişafın təmin edilməsində oynayacağı rol əsas müzakirə mövzularından biri olacaq. Həmçinin İran şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərinə cəlb edilməsi və bu sahədə həyata keçirilən tədbirlər də ətraflı müzakirə ediləcək.

Qeyd edək ki, mehriban qonşuluq, dostluq, qarşılıqlı hörmət və səmərəli əməkdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-İran münasibətləri dinamik inkişaf edir. 2021-ci il noyabrın 28-də Aşqabad şəhərində keçirilmiş İƏT dövlət başçılarının Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin İran Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü ikitərəfli əlaqələrin inkişafına önəmli təkan verdi. Bu gün İran şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidənqurma işlərinə cəlb edilməsi ikitərəfli əlaqələrin dinamik inkişafının təzahürüdür.

# "Anatolian Phoenix-2022" təliminə hazırlıq brifinqi təqdim olunub

Türkiyənin Konya şəhərində keçirilən "Anatolian Phoenix-2022" taktiki-uçuş təliminə hazırlıq və mərhələlər üzrə icra olunacaq tapşırıqlar barədə təlimə qatılan müxtəlif ölkələrin nümayəndələri üçün brifinq təqdim olunub.




Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotlarının və aviasiya vasitələrinin iştirakı ilə keçirilən beynəlxalq təlim mayın 27-dək davam edəcək.

# Daxili İşlər Nazirliyi bəyanat yayıb

Artıq xəbər verildiyi kimi, mayın 14-də bir qrup şəxs Səbail rayonu ərazisindəki Fəvvarələr meydanında müvafiq dövlət qurumları ilə razılaşdırılmamış aksiya keçirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu aksiyanın "Sərbəst toplaşmaq azadlığı haqqında" qanuna zidd keçirilməsinə baxmayaraq, polis əməkdaşları tərəfindən aksiyaya müdaxilə edilməyib, əksinə iştirakçıların təhlükəsizliyi təmin olunub və aksiyanın yekununda müvafiq bəyanat səsləndirilib. Aksiya zamanı hər hansı insident qeydə alınmayıb və saxlanılan olmayıb.

"Bununla belə, elə həmin gün Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin polisin aksiyaya ciddi müdaxilə etməsi və çoxlu sayda saxlanılan şəxsin olması barədə yanlış məlumat yayması qəbuledilməzdir və Azərbaycan Respublikasının daxili işlərinə əsassız müdaxilədir. Bu aksiyanın təşkilatçıları və iştirakçıları tərəfindən aksiyanın normal şəkildə keçdiyi və polisin davranışının qənaətbəxş qiymətləndirildiyi halda Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin aksiyaya yanlış qiymət verməsi və ittihamedici iddialarla çıxış etməsi başadüşülən deyil. Bu bəyanatı öz xidməti vəzifələrini yerinə yetirən polisin nüfuzuna xələl yetirmək cəhdi kimi qiymətləndiririk.

Böyük Britaniyanın Azərbaycandakı səfirliyini yaydığı bəyanatı təkzib etməyə və yol verdiyi səhvi etiraf etməyə çağırırıq.

Ümid edirik ki, Böyük Britaniyanın Azərbaycandakı səfirliyi iki ölkə arasında əməkdaşlığın və səmimi dialoqun inkişafına xidmət edəcək tərzdə fəaliyyət göstərəcək, süni siyasi əngəllər yaratmaq cəhdindən çəkiləcək", - deyə nazirliyin bəyanatında qeyd olunub.

# Nümunəvi ictimai-siyasi hazırlıq dərsləri keçirilib

Bu ilin hazırlıq planına uyğun olaraq, Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində nümunəvi ictimai-siyasi hazırlıq dərsləri keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi tərəfindən yaradılan komissiyanın iştirakı ilə keçirilən dərslərdə hərbi kollektivdə döyüş əzminin daim yüksək səviyyədə saxlanılması, milli-mənəvi dəyərlərə ehtiramın, o cümlədən xalqa, dövlətə və hərbi anda sədaqətin şəxsi heyətə daha dərindən aşılanmasının əhəmiyyətindən danışılıb.

Qeyd edək ki, dərslərin səmərəli və keyfiyyətli təşkili ilə fərqlənən qrup rəhbərləri Azərbaycan Ordusu üzrə keçiriləcək "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsində iştirak edəcəklər.

# İrəvanda polis qadın deputatı döydü

## Etiraz aksiyalarında yüzlərlə adam saxlanılıb

Ermənistanda baş verən son proseslər güclü qarşıdurma mərhələsinin başlandığını göstərir. Müxalif qüvvələrin Nikol Paşinyan iqtidarına qarşı fəaliyyəti daha da genişlənir. Elə bu xüsusda keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd göstərir.

Etirazların növbəti günündə müxalifət tərəfdarları paytaxtın müxtəlif rayonlarında küçələri bağlamaq istəyiblər. Ermənistan polisi İrəvanda keçirilən etiraz aksiyalarının gedişində müxalifətin 414-dən çox tərəfdarını saxlayıb. Saxlanılanlar arasında Ermənistanın sabiq prezidenti Robert Koçaryanın oğlu Levon da var.

Parlamentin müxalif "Ermənistan" fraksiyasından olan vitse-spikeri İşxan Saqatelyan genişmiqyaslı itaətsizlik aksiyaları elan edib. Polislə müxalif "Şərəfim var" fraksiyasından olan deputat Anna Mkrtçyan arasında gərginlik yaşanıb. Nəticədə polis qadın deputatı sürüyərək və döyərək xidməti avtomobillərə doğru aparıb. Bundan sonra polislə etirazçılar arasında toqquşma yaranıb.

Etiraz edənlərə İkinci Qarabağ müharibəsi zamanı ölmüş hərbçilərin yaxınları da qoşulublar. Valideynlər Apellyasiya Məhkəməsinin yaxınlığındakı küçəni bağlayıblar. Onların prokurorluqdan tələbi oğullarını zərərçəkmiş, özlərini isə həlak olanların yaxın qohumu statusu almalarıdır.

Beləliklə, proseslər Nikol Paşinyan və müxalifət arasında münasibətlərin daha kəskin xarakter almaqda olduğunu göstərir.  Belə görünür ki, qarşıdakı günlər ərzində ölkədə ictimai-siyasi gərginlik daha da artacaq. Çünki müxalifətin etiraz aksiyaları fonunda vətəndaş müharibəsinə hazırlaşdığı nəzərlərdən yayınmır. Vəziyyəti gərginləşdirən başqa bir səbəb  isə Paşinyana qarşı olan qüvvələrin bir qisminin sabiq prezidentlər Serj Sarkisyan və Robert Koçaryan ətrafında birləşməsi, sonuncuların isə yenidən hakimiyyətə iddialı olmalarıdır.

Müxalifət müharibədə Ermənistanın məğlubiyyətinin əsas səbəbkarı qismində Nikol Paşinyanı təqdim edərək, hakimiyyətin yürütdüyü siyasətin dövlətçiliyin itirilməsi təhlükəsi yaratdığını əsas gətirir. Onlar cəmiyyəti baş nazirə qarşı qaldırmağa çalışsa da, bu istiqamətdə  fiaskoya uğradıqları aydın görünməkdədir. Hakimiyyətdən narazı olan erməni cəmiyyətində müxalifətə də heç bir inamın olmadığı, bu düşərgəyə etimad göstərilmədiyi üzə çıxmaqdadır. Bununla belə, keçmiş hərbi xunta və onun liderlərindən olan sabiq prezident Robert Koçaryan  hakimiyyətə iddialıdır. Lakin təhlillər onun da Ermənistan əhalisi tərəfindən dəstəklənmədiyini göstərir. Xüsusən də Koçaryanın revanşist mövqeyi,  Qarabağ münaqişəsinin yenidən alovlanmasının tərəfdarı olması, 1999-cu ildə Ermənistan parlamentində baş verən terror aktında, 2008-ci ilin martında əhaliyə qarşı törədilən qırğında bir sıra korrupsiya və digər cinayətlərdə əli olması fonunda cəmiyyətin mütləq əksəriyyəti ona nifrət edir. Erməni mediası isə onu satqınçılıqda, ölkəni vassala çevirməkdə ittiham edir.

Müharibədəki məğlubiyyətdən sonra baş nazir Paşinyanı təslimçilikdə ittiham edənlər çıxış yolu kimi onu devirməkdə görsələr də, məsuliyyəti də üzərlərinə götürmək istəmirlər. Koçaryan-Sarkisyan koalisiyası hələ də konseptual xilas strategiyasını ortaya qoya bilməyib. Regionda baş verən son hadisələr fonunda siyasi dairələr də yaxşı dərk edirlər ki, Azərbaycanın tələbləri Ermənistanın nicatı üçün bəlkə də son şansdır və bunu maksimum şəkildə dəyərləndirmək lazımdır.

Ermənistanın başqa bir problemi iqtisadi vəziyyətin kəskin pisləşməsidir. Onsuz da bu ölkə azad iqtisadiyyata sahib deyil. Pandemiya iqtisadiyyatın olan-qalan sahələrini də iflic edib. Qarabağda müharibə başlayandan isə vəziyyət daha acınacaqlı hal alıb, o cümlədən xarici ticarət dövriyyəsi görünməmiş azalıb. Yerli medianın verdiyi xəbərlərə görə, yaranmış ağır iqtisadi durum bazarların fonunda özünü aydın göstərir.

Belə ki, bazarlar kimsəsiz qalıb, heç kim gəlmir, alış-veriş yoxdur. Satıcılar bildirirlər ki, qiymətlərin baha olması ilə əlaqədar burada satış kəskin azalıb. Satıcılardan biri deyib: "Bizdə almanın kiloqramı 3 dollara, armud 4 dollara yaxındır. Ona görə də insanlar bazara gəlmirlər. Onların pulu yoxdur, necə alış-veriş etsinlər?"

Bazarlardakı qiymətlərdən daha çox pensiyaçılar şikayət edirlər. Onlar 60 dollar həcmində pensiya aldıqlarını, bununla alış-verişin mümkün olmadığını vurğulayırlar. Görünən odur ki, Ermənistan hökuməti növbəti aylarda vətəndaşların əmək haqlarını, pensiyalarını ödəyə bilməyəcək.

Bütövlükdə, proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 4 oktyabr (Cümə günü) tarixli VI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



Birinci səneyi-dəvamiyyəsi.

# AZƏRBAYCAN

27 zilhiccə 1336.
4 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

Siyasi, ictimai, ədəbi və iqtisadi gündəlik
**«AZƏRBAYCAN»** qəzetəsinə
abunə dəftəri açıqdır.

Qəzetəmizdə iştirak etmək üçün müqtədir qələm sahiblərindən lazımi əşxas[ı] idarəmiz dəvət etmişdir.

Böyük şəhərlər və əhəmiyyətli mövqelərdə müxbirlərimiz mövcuddur.

Tiflis ilə xüsusi telefon müxabərəmiz [xəbərləşməmiz] olmaqla bərabər, teleqraf acentəliyimiz hər bir mühüm xəbərləri intişara [yaymağa] çalışacaqdır. Kağız bahası [qiyməti] və başqa məvadd [maddələr] sabit olmamağı münasibəti ilə, şimdilik abunə bahası yanvar ayının birinədək qəbul edilir.

| Bakıda: | Başqa şəhərlərdə: |
|---|---|
| 3 aylığı 35 rublə; | 3 aylığı 42 rublə; |
| 1 aylığı 12 rublə. | 1 aylığı 19 rublə. |

**Müraciət üçün adres:**
Bakı, Kolyubakinskaya küçədə (Parapet) "Azərbaycan" qəzetəsi idarəsi.

Баку, Колюбакинская, контора газеты "Азербайджанъ".

## MÜSƏLMAN TEATROSU

*Bu gün cümə günü "Mikado" teatrosunda (Malakan bağının müqabilində) Hacıbəyov Bəradərləri teatro dəstəsi tərəfindən mövqeyi-tamaşaya qoyulacaqdır:*

**"Arşın mal alan"**

Operetta, 4 pərdədə.
Əsəri-Üzeyir bəy Hacıbəyov.
İştirak edənlər: Mahru, Münəvvər, Nina xanımlar. Ələkbər Hüseynzadə, Qəmərlinski, Anatollu və qeyrilər.
Soltan bəyin rolunu Ələkbər Hüseynzadə ifa edəcəkdir.
Böyük musiqi dəstəsi Müslüm bəyin təhti-idarəsində [idarəsi altında].

**Tamaşa saat 5-də başlanacaqdır. Biletlər "Mikado" teatrosunda satılmaqdadır.**

Biletlər türk zabitanına 75 faizlə satılacaq və əsgərə təxsis [edilmiş] mövqelər də məccanən [pulsuz] olacaqdır.
İxtar [xəbərdarlıq]: Birinci cərgə sandalyaları əziz qonaqlarımız olan türk zabitanına və hökumət məmurlarına həsr etdiyimizə görə, həman cərgə biletləri satılmayacaqdır.

Şənbə günü həman teatroda Üzeyir bəyin

**"O olmasın bu olsun"**

nam gülməli əsəri mövqeyi-tamaşaya qoyulacaqdır.

Yekşənbə günü də yenə:

**"Arşın mal alan"**

Sabiqdə Gəncədə rus dilində nəşr olunan "Azərbaycan" qəzetəsi şənbə günündən etibarən Bakıda nəşr olunmağa başlayacaqdır.
Ünvan: Bakı, Kolyubakinskaya küçədə, "Azərbaycan" idarəsi.

**Tək nüsxəsi 60 qəpikdir.**

## BAKI ŞƏHƏRİ VƏ ƏTRAFI ƏHALİSİNƏ ELANİ-RƏSMİ

1 – Bəzi başıpozuq əşqiya [quldurlar] və əşərranın [yaramazların] əğrazi-xüsusiyyələri [şəxsi məqsədləri] uğrunda kəndi-kəndilərinə məmur süsü verərək, gecə və ya gündüzləri bəzi erməni ailələrinə bilmüraciə filan və ya filan adamın polis müfəttişi və ya qradanaçalnik tərəfindən tələb edildiyindən bəhslə, kəndilərini götürdükləri və ya götürmək istədikləri xəbər alınmışdır.

2 – Əhali ümumən bilməlidir ki, hökumətcə kəndilərinə lüzum görülən hər hansı adamı gecə aramaya lüzum yoxdur; hökumət istədiyi təftişatı gündüz yapar. Binaileyh, gecə bu yolda müraciət vüququnda ilk tədbir olmaq üzrə hadisəni dərhal ən yaxın polis mərkəzinə xəbər verməli və gündüzləri 25-80 nömrəli, gecələri nisfülleyldən [gecə yarısından] sonra üçün 44-66 polis müfəttişliyinə telefon etməlidir.

3 – Polis vəzaifinin [vəzifələrinin] başıpozuqlarla əlaqəsi olmadığından, hüviyyət [şəxsiyyətini] və sifəti-rəsmiyyəsini [rəsmi kimliyini] uniformasıyla olmazsa belə, övraqi-rəsmiyyəsiylə [rəsmi sənədləri ilə] isbat edəmməyən heç bir kimsəyə əhali etibar və təbəiyyət [tabeçilik] etməməli və vüququnda [baş verdikdə] bərvəchiməruz [deyildiyi şəkildə] polisə ixbari-keyfiyyət olunmalıdır [hadisə xəbər verilməlidir].

4 – Tərəfimizdən şiddətlə təqib edilməkdə olduqlarından er və ya gec yaxalanacaq bu misilli əşxası [bu kimi şəxsləri] bilənlərin lütfən müfəttişliyə ixbar etməsi və bilib də səlaməti-ümumiyyə əleyhində bunları kətm edənlərin [gizlədənlərin] faili-müştərək ədd edilərək [cinayət ortağı hesab edilərək] ən şədid [şiddətli] cəzaya məruz qalacaqları əhəmiyyətlə elan olunur.

*2/10/34*
*Azərbaycan Polis müfəttişi-ümumisi Bəhaəddin*

## DAXİLİYYƏ NƏZARƏTİNDƏN ƏMR

**Nömrə 2**
Bu gündən etibarən, avtomobil, at və arabalardan istifadə edə bilmək üçün hökumət dairələrindən vəsiqə almaq lazım gəlməyir. Fəqət bu əşya sahibləri ancaq Bələdiyyə İdarəsindən icab edəcək şəhadətnamə almaları vacibdir.

**Nömrə 3**
Bütün Qafqaziyada, xüsusilə Azərbaycanda hökmfərma olmuş ixtilal günlərində dəmiryolları əşyasının bir çox qismi dəmiryolları mənatiqinə [məntəqələrinə] yaxın bulunan köylər əhalisi tərəfindən qarət edilmişdir.

Fəqət məvaddi-məzkurə [bu əşyalar] bunlar tərəfindən lazım olan məhəllində istemal [istifadə] edilməyərək, büsbütün başqa cəhətlərə sərf edilmişdir.

Binaileyh [ona görə] əhalinin izanına [anlayışına] müraciətlə, hər fərdin, keçirməkdə olduğumuz zamanın əhəmiyyətini nəzər-diqqətə almağa məcbur olduğunu dərxatir edərək [yada salaraq], dəmiryollarına aid hər bir maddənin iadəsi [qaytarılması] fəqət məsqəti-rə'simiz [doğma vətənimiz] olan Azərbaycanın dəmiryolları işlərini layiq olduğu dərəcəyə yüksəltəcəyindən, bu əmrin nəşr və elanı günündən etibarən bir ay müddətində dəmiryollarına yaxın bir nöqtədə bulunan stasyon naçalniklərinə yaxud polis məmurlarına verilmələrini təklif edirəm.

Yuxarıda göstərilən müddətin axırında hər kimin nəzdində dəmiryollarına aid əmvaldan [mallardan] zühur edərsə, bu əmrə müxalifət etmiş olan müttəhimlər qəvanini-hərbiyyənin [hərbi qanunların] bütün şiddəti ilə cəzasına düçar olacaqlardır.

*Daxiliyyə naziri:*
*Behbud xan Cavanşir*

## HÖKUMƏT QƏRARDADLARI

97 – Bəzi şəxslər ki, buğdanı və qeyri ərzaq şeylərin qəndə və qeyri zəruriyyata mübadilə etmək üçün icazə tələbindədirlər, bu xüsusda onların beş min manat girov qoymaları icbaridir. Məzkur icazənamənin verildiyi zamanda ifasını öhdəsinə götürən şey üçün iki həftəlik vədə təyin edilir. Bu vədə müddətində öhdəsinə götürən icazəni ifa etməz isə məzkur girov qoyduğu məbləğ xəzinə mənfəətinə keçir.

98 – Əmlak və Ziraət nazirin[in] binagüzarlığına binaən [sərəncamı əsasında] Muğan çölünün aşağı kanalının baş arx bəndinin təmiri və məzkur [bu] kanalın yuxarıkı hissəsində də sulamaq üçün arx qayırmaq üçün iyirmi altı min beş yüz manat 75 qəpik kredit açılsın.

**25 iyul 1918-dən**
99 – Almaniya İmperatorluğunun Qafqazda mövcud Heyəti-mürəxxəsəsi [Səlahiyyətli heyəti] nəzdində bulunan İqtisad cəmiyyətinin nümayəndəsinə, məzkur [bu] dövlət tərəfindən Arzumanovdan Gəncədə mövcud zavodundakı xam və məcmu [yığılmış] pambığın aparılmasına müsaidə edir.

100 – Qafqazdakı Alman imperator Heyəti-mürəxxəsəsi nümayəndəsinə Almaniya Hökuməti aldığı və Gəncədə Arzumanov zavodunda saxlanılan pambığı, nə qədər olmuş olsa, aparmağa izin verilir.

Hökumət İşlərinin müdiri: R. Xoyski

**26 iyul 1918-ci il**
101 – Alman xəstə və yaralı əsgərləri üçün min vedrə şərab, on put un, on dörd girvənkə də kürü gömrüksüz aparmağa izin verilir.

**27 iyul 1918-ci il**
102 – Ağdaş Milli Komitəsinin əşyalarını təhvil almaq üçün bir komisyon təşkili Daxiliyyə, Maliyyə və Ərzaq nazirlərinə mühəvvəl edilir [tapşırılır].

103 – Ərzaq nazirinə izin verilir ki, öz dəftərxanasında katibə bir müavin, dəftərxana məmuruna bir müavin və bir də bir qeyri dəftərxana məmuru təyin etsin.

104 – a) Konyakın bir qradusuna 40 qəpik aksiz qoyulur.

b) Və onun Azərbaycan məmləkətindən aparılmasına izin verilir.

105 – Ərzaq və Maliyyə nazirləri tərəfindən sirkəyə gömrük xərci qoyduqdan sonra onu qeyri yerlərə aparmağa izin verilir.

106 – Daxiliyyə nazirinə yüz iyirmi beş min rublə buraxılır. Həmin məbləğdən köçəriləri mühafizə etmək və uyezd[d]ə sakitlik bərpa etmək üçün Şuşa Milli Komitəsinə verilsin. Həman binagüzarlığa binaən [sərəncama əsasən] əlli min manat da Zəngəzur komandanına verilir. Verilən məbləğ məzkur uyezdlər divanxanalarının 1918-ci ilin iyun, iyul və avqust aylarının hesabına daxil olur.

107 – Hökumət xəzinəsindən zirai xəzinələrə [kənd təsərrüfatı banklarına] əlli min manat buraxılması Maliyyə nazirinə mühəvvəl edilir [tapşırılır] ki, zirai xəzinələrdən maaş alan məmurların məvacibləri verilsin.

108 – Mərkəz Posta və Teleqrafxana idarə edilməsi üçün lazımi şeylər mühəyya [tədarük] etməyə Posta və Teleqraf naziri binagüzarlığına [sərəncamına] yetmiş beş min manat təxsis edilir [ayrılır].

112 – a) Azərbaycan Hökumətinin ərzaq işlərini qaydaya salmaq üçün nazirlər: 1) A. Aşurov, 2) Ə. b. Əmircanov, 3) X. b. Məlikaslanov və 4) N. b. Yusifbəyovdan ibarət bir komisyon düzlənir.

b) Ərzaq nazirinə əlli min manat buraxılır ki, Ərzaq İdarəsinin məmurları xidmətlərində təsdiq edilənədək, onlara maaş verilsin.

**30 iyul 1918-ci il**
113 – Rusiya Alman alayının Birinci batalyon komandanına min put buğda və min put arpa Tiflisə aparmağa izin verilsin. Bu şərtlə ki, əvəz olaraq Gəncəyə min put qənd gətirsin. Həman qəndin bir hissəsi Ərzaq naziri ixtiyarına veriləcəkdir ki, əhaliyə ucuz qiymətə satılsın. Qalan hissəsi isə Birinci batalyon komandanı ixtiyarına verilir.

114 – Lazım olduqca milli komitələrin əmlakını satmağa ləğv komisyonları təşkil olunmasına izin verilir.

117 – Zaqatal nahiyəsinin ümumi halına bələd olmağa, camaatın ərzhalını bilməyə və həmçinin xidmətdən kənar ediləsi məmurları başqa xidmətlərə köçürüb onların haqq-hesabını vermək məsələlərini həll etmək üçün təcili olaraq həman nahiyəyə Maliyyə, Ədliyyə və Daxiliyyə nəzarətlərinin vəkillərindən ibarət bir komisyon göndərilsin.

Zaqatal okruqunda qeyri quberniyalar qaydası üzrə divanxanalar düzəltmək Daxiliyyə nazirinə tapşırılsın.

118 – Xaçbulaq vuruşmasında şücaət göstərmiş divan məmurlarına ənam paylamaq üçün Daxiliyyə nazirinə beş min manat verilsin.

119 – Azərbaycanda olan şəhər bələdiyyə idarələrini təzədən işə salmaq Daxiliyyə nazirinə mühəvvəl edilmişdir [tapşırılmışdır]. Bəzi uyezd mərkəzləri olan Ağdaşda, Salyanda, Ağdamda, Bərdədə, Qazaxda və qeyr[d]ə bələdiyyə idarələri olmadığına görə, oralarda yüzbaşılara donluq üç yüz manata qədər verilə bilər. Lazım olsa, yüzbaşı bir dəftərxana məmuru, bir də bir qapıçı tuta bilər. Məmurun məvacibi iki yüz manat, qapıçının isə yüz əlli manatdır.

120 – "Yelizavetpol" şəhərinə "Gəncə" adı verilsin, "Qaryagin" uyezdi "Cəbrayıl" uyezdi adlansın.

## VERİN ZAVALLILARA

*"Vatəsimu bihəblillahi cəmiən*
*və lətəfərrəqu"*

Şamaxı və Göyçayda ermənilər tərəfindən yaxılıb-yıxılan xanimanları, söndürülən [ocaqları], qadın-erkək qurşunla öldürülən, bıçaqlarla kəsilib doğranan bigünah millətdaşlarımızı, dün zəngin və dövlətli ikən bu gün viranxanalarda iqamətlə bir loğma yavan əkməyə möhtac buraxılan zavallı qardaşlarımızı düşünürmüsünüz?

Əgər düşünməyirsinizsə, eyi biliniz ki, kainatın beş sənədir bir-birini boğazlayan bu ən mühüm dövrəsində əsəbiyyəti-qövmiyyəsi [qövmünün qeyrətini çəkmək hissi] əlil və ya nöqsan olan millətlər üçün həyat yoxdur.

Bu günə qədər olduğundan ziyadə yarın üçün də Qurani-əzimüşşənimizin [şə'ni uca Quranımızın] balada [yuxarıda] nəql etdiyim əmri-mübini vəchilə [açıq-aşkar əmrindəki kimi] mətin bir surətdə yekdigərinə sarılaraq siyasi birliklərini təmin edəmməyən əqvam [qövmlər] bilxassə bundan sonra qətiyyən yaşayammayacaqdır.

"Əl-müminu lilmümini kalbünyani yəşüddü bə'zuhü bə'zə" həqiqəti-siyasiyyəsini min üç yüz sənədir qulaqlarımızda çınladan islamiyyət, bir müsəlmanın digər müsəlmana nisbətini, bir binanın yekdigərinə istinad edən daşlarına bənzətməklə siyasəti-milliyyəyi pək bəliğ bir surətdə təsvir buyurmuşdur.

Bir divarın bir qaç daşını yıxıb çıxarmaqla nasıl ki, divar yıxılarsa, milliyyətimizi təşkil edən camaatlardan bir qisminin fəlakətindən də əqsami-sairənin [digər qismlərin] haqqıyla mütəəssir olması qədər təbii heç bir şey yoxdur. Şamaxı və Göyçayda yıxılan evlər, yandırılan xanimanlarımız; kəsilib doğranaraq qəvafili-şühədaya [şəhid dəstələrinə] iltihaq edən [qoşulan] on minlərcə müsəlmanlar din və millət qardaşlarımız; dün dövlətli ikən bu gün bir loğma əkmək üçün göz yaşlarıyla dilənən bədbəxtlərdir, qövmdaşlarımızdır.

Allahın inayəti ilə Bakı alındı. Və ən alçaq düşmənlərimiz məqhur [qəhr olmuş] və rəzilanə bir surətdə qaçdı. Millət, min üç yüz sənə eyni məqsəd uğrunda yekdigərini təqibən yerdə yatan şühədamız ərvahını [şəhidlərimizin ruhlarını] da şad edər surətdə üst-üstə iki bayram yapdı.

Bu məsərrətlər [sevinclər] içində, ey Bakı və bütün Qafqaz türkləri, ey zəngin müsəlmanlar! Şamaxı və Göyçay zülmzədə qardaşlarımızın da göz yaşlarını təxfifən [yüngülləşdirməklə], yıxılmış könüllərini təmir etməliyiz.

Millətimizin bir qismi ağlarkən, əqsami-sairəsinin [digər qismlərinin] bila-təəssür [mütəəssir olmadan] gülməsi xeyirli bir istiqbala dəlalət edəmməz. Binaileyh [ona görə də], əgər həyat və istiqlala talib və müstəhəq [layiq] isəniz, Şamaxı və Göyçay zülmzədələrinə və Ermənistandan qismən öldürülərək, qismən də fərar surətilə həyatlarını qurtara bilərək sayeyi-üxüvvətinizə iltica edən [qardaşlığınızın kölgəsinə pənah gətirən] sair din və millət qardaşlarımıza kiseyi-müavinəti [yardım kisəsini, cibinizi] açınız, onlara lazımi dərəcədə ianələr veriniz, çünki siz onlara versəniz, Allah da sizə verər.

İştə, haydı, qardaşlar, verin zavallılara.

*Əl-mücahid fi-səbilillah*
*[Allah yolunda cəhd edən]*
*Bakı,*
*2/10/34*
*[2 oktyabr 1918]*

## BAKI XƏBƏRLƏRİ

*2-3 gündən sonra teleqraf ilə telefon açılır.*

**Alman Heyəti-mürəxxəsəsi şəhərimizdə**
3 gün əvvəl xüsusi qatar ilə Tiflisdən şəhərimizə Almaniya dövləti Heyəti-mürəxxəsəsi [Səlahiyyətli heyəti] varid oldu. Heyətin sədri sabiq Türkiyə hərbi işlərini islah etmək üçün Almaniyadan dəvət edilmiş məşhur hərbi mütəxəssis general fon der Qolts paşanın məxdumu [oğlu] Baron fon der Qoltsdur. Mumaileyh [adı çəkilən şəxs] Azərbaycan Hökuməti nəzdində mürəxxəsdir [səlahiyyətli nümayəndədir].

Srağagün axşam Almaniya Hökuməti heyəti Heyəti-Vükəlanı [Nazirlər Kabinetini] "Metropol"da ziyarət etmişlər. Alman heyətini Baş vəzir Fətəli xan, Maarif naziri Nəsib bəy, Daxiliyyə naziri Behbud xan və Maliyyə naziri Əbdüləli bəy qəbul etmişlər və qonaqlar üçün süfrə açmışlar. Almaniya ilə yeni təşəkkül etmiş Azərbaycan dövləti arasında münasibati-səmimanə yapılması xüsusunda bir çox nitqlər irad olunmuşdur. Nitqlərinin birində baron həzrətləri söyləmişdir ki, onun pədərinin [atasının] türklər və bilümum [ümumiyyətlə] müsəlmanlara olan hissiyyati-dostanəsini Almaniya dövləti nəzərə alıb da, onu cəbhədən çağırıb Qafqaziyaya göndərmişdir. Təbii ki, pədərinin hissiyyatını baron həzrətləri öz qəlbində bəsləməkdə davam edəcəkdir.

**Gürcü heyəti**
Srağagün gürcü Heyəti-mürəxxəsəsi [Səlahiyyətli heyəti] Knyaz Maqalov təhti-sədarətində [başçılığı altında] Azərbaycan Heyəti-Vükəlasına [Nazirlər Kabinetinə] ziyarət edib, onu öz paytaxtı olan Bakıya köçmək münasibətilə təbrik etmişdir. Baş Vəkilimiz Fətəli xan həzrətləri cavabında təşəkkürlər izhar etmişdir. Gürcü heyəti Gürcüstana Bakıdan neft aparılmasına icazə istəmişdir. Həmin təmənna vəzirlərin srağagünki iclasında mövqeyi-müzakirəyə qoyulub böylə qərar verilmiş ki, həman məsələnin həlli üçün xüsusi bir komisyon təşkil edilsin və həmin komisyon gürcü heyəti ilə bərabər lazımi tədbirlər ittixaz [qəbul] etsin.

**Rusların istidası [xahişi]**
Srağagün axşam hökumət ricalı [xadimləri] nəzdinə dava [məhkəmə] vəkili Smirnov cənablarının təhti-rəyasəti ilə [sədrliyi altında] bir rus heyəti gəlib, Şamaxı uyezdindən qaçmış malakanların öz yerlərinə getməyinə icazə istəmiş. Hökumət buna razı olmuş, bu şərtlə ki, əvvəla, sabiqdə müsəlmanlardan qarət edilmiş mallar sahiblərinə qaytarılsın və saniyən [ikincisi], evsiz və yersiz olan müsəlmanlara onlar özlərinin yanında yer versinlər.

**Qarabağ üsyançılarının yumşalması**
Şayiata [şayiələrə] görə, Qarabağda üsyan edən erməni əşqiyası [quldurları] Türk Komandanlığı nəzdinə gəlib aman istəmişlər və təslim olmalarına rizalıq izhar etmişlər. Andranik isə İrəvan tərəfə qaçmışdır.

**Lənkərana göndərilən heyət**
Bir neçə gün əvvəl Lənkəran üsyançılarıyla danışığa girişmək üçün Bakıdan göndərilən rus heyəti şayiata görə hələlik Salyandadır.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 4 oktyabr (Cümə günü) tarixli VI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Otriş nümayəndəsi**

3 gün əvvəl şəhərimizdə olan Otriş [Avstriya] Hökuməti mürəxxəsi [nümayəndəsi] Baş Vəzirimizə vizit icra etmişdir. Həman gün Baş Vəzir cənabları İaşə naziri ilə bərabər mumaileyhə [adı çəkilən şəxsə] vizit iadə etmişlər.

Eşitdiyimizə görə, bu il edadi məktəblərdə oxuyan tələbələrin sayı azaldığından naşi [azaldığına görə], Bakıdakı gimnaziyaları birləşdirmək fikrindədirlər. Ünas [qızlar] gimnaziyaları da birləşib "Svyataya Nina" məktəbində oxunacaqdır. Yavuq zamanda Birinci Müsəlman gimnaziyası, sonra da qeyri məktəblər açılacaqdır.

* * *

Sentyabrın 30-dan etibarən Bakı tamojnası [gömrüyü] fəaliyyətə başlamışdır. Tamojnanın naziri Qoqibadze əmr verib üç günə kimi qulluqçuların işə başlamalarını tələb etmişdir. Əks surətdə işə başlamayanlar vəzifələrindən xaric olunacaqlar. Bundan əlavə, camaat öz mallarını almağa dəvət olunurlar.

* * *

Oktyabrın 2-də Ənzəlidən "Arxangelsk" paraxodu gəlmişdir.

* * *

Bu günlərdə Xəzər istehlak cəmiyyəti "Feodosiya"nın musiqi heyəti Petroqrad və Moskvada məktəblər məramnaməsi ilə fəaliyyətə başlayacaqdır.

* * *

Əhalini məmur sifətiylə qorxuya salıb onlardan maddən istifadə edən, daha doğrusu, dolandırıcılıq eyləyən on doqquz nəfər alçağın heyəti-zabitan tərəfindən dərdəst edildiyini [saxlanıldığını] xəbər aldıq.

## NƏZARƏTLƏRİMİZDƏ [NAZİRLİKLƏRİMİZDƏ]

Bu günlərdə xüsusi müxbirlərimizdən birisi Maliyyə vəzirini ziyarət edib, aldığı məlumatından anlaşılır ki, Mərkəzi Komandanlıq bizə heç bir müavinətdən geri durmayacağını elam etmiş [bildirmiş] və işbu Komandanlıq binagüzarlığıyla [tapşırığıyla] bu günlərdə Azərbaycan Dövlət Bankası açılmaqdadır.

Böyləliklə, xüsusi istiqraz və digər bankalar üçün maliyyə əməliyyatına mübaşirət etmək [başlamaq] imkanı verilmiş olur. Aksiz İnhisar İdarəsi yenə əski fəaliyyətinə başlamışdır. Bu vaxta kimi böylə xüsusi məxaric məmləkətdə satılmaqda olan şərabdan alınammamışdı. Bundan sonra şərabdan da alınacaqdır. Halən Şamaxı nahiyəsi Mədrəsə köyündə mövcud sahibsiz şərabı Hökumət gətirib satacaqdır.

Xəzinə 17 iyuldan başlayıb kəndi işlərini idarə edir; idarədən qaçıb getməmiş xidmətçilərə məvacib verilmək üçün lazımi para vardır.

Vəzifəsində isbati-vücud edən [işə gəlməyə davam edən] xidmətçilərə aylıq vermək üçün Bələdiyyə İdarəsinə bir milyon yarım rublə verilmişdir.

**Sənaət və Ticarət Nəzarətində [Sənaye və Ticarət Nazirliyində]**

Şu Nəzarət başlıca mədənlərin sabiq bolşevik fərmanıyla milliləşdirmə (dövlət ixtiyarına keçmə) qanununu ləğv etmək ilə yavaş-yavaş gərək sənaət və gərək ticarətdə bir intizam və tərtib yaratmaqla, Bakının keçmişdəki təntənəli ticarəti-mənəviyyəsini iadəyə çalışır. Bunun üçün də ətraf ilə əlaqədar olaraq təşəbbüsatına girişmişdir. Bununla bərabər, birdən-birə qarışıqlıq salmamaq üçün Xalq Təsərrüfatı Şurası (Savet Narodnaqo Xozyaystva) adlı idarəni bu vaxtadək pozmamış, çünki idarənin təhti-nəzarətində bir çox millət təsərrüfatı mövcuddur. Vaxtı gəldikcə, Təsviyə Komissiyası bunların təsviyə [ləğv] edilməsinə girişəcəkdir.

**Xariciyyə Nəzarətində**

Tiflisdə mövcud Beynəlmiləl Təxliyyə Komissiyasının işlərindən bir şey istintac [nəticə] ediləmməyəcəyindən dolayı, Azərbaycan Hökuməti kəndi nümayəndəsini şu Komissiyadan tələb etmişdi [geri çağırmışdı]. Şimdi Xariciyyə Nəzarətinə gəlmiş vərəqədə Erməni Cümhuriyyəti də kəndi nümayəndələrini oradan geri çağırdığı məlum edilir.

Azərbaycan Hökuməti yanında Gürcüstanın siyasi məmurluğuna Kartsivadze təyin edilmişdir.

**Qaçqınlara müavinət şöbəsində**

– Qaçqınlara müavinət şöbəsi tərəfindən Bakı qaçqınları üçün üç min put buğda alınmışdır.

– Bolşeviklər tərəfindən qapadılmış darüleytamlar [yetimxanalar] hamı millətlər üçün açılıb yenə də işləməyə başlamışdır.

– Gökçay gölü ətrafında olan müsəlman əhalisini Yeni Bayəzid erməni çetələri (banda) tərəfindən yəğma və talan edildiyindən bunlar Qazax və Gəncə cəhətlərinə toplanmışlardır. Bu zavallıların əhvalı pək fənadır. Mühacirlər İdarəsi onları Şamaxı və Ərəş nahiyəsindəki boş köylərdə yerləşdirəcəkdir.

## XƏZƏR DƏNİZİNDƏ

Üç gün bundan əqdəm "Semyon" adlı yelkən gəmisində Tazəşəhərdən gəlmiş bakılı Z. P. xanım öz səyahəti barəsində böylə məlumat verir:

P. xanım şənbə günü sentyabrın 14-də Astraxandan "Türkmən" paraxodunda Bakıya qayıdıbmış. Şəhərin halını həyəcanlı gördükdə paraxod iskələdən çəkilib, o biri paraxodlar cümləsi də Nargin cəzirəsinə [adasına] getməyə məcbur oldu. Qaçmış paraxodlar hərə bir tərəfə dağıldıqda, P. xanım olan paraxod da Krasnovodska gedir. Bu paraxodda Bayılov həbsxanasından xilas olmuş Bakı bolşevikləri köhnə komissarları Şaumyan, Şeboldayev, Korqanov, Balayan, Koqanov, Avakyan və qeyriləri var idi. Bunlar mühafizlərdən savayı 29 nəfər idilər. Paraxodda olan 1500 sərnişinlərin çoxusu qadın və çocuq idi.

Komissarlar kəndi pullarından paraxodun kapitanına 1 milyona kimi pul təklif edib, sərnişinləri sahilə çıxardıqdan sonra özlərini Astraxana aparmağı xahiş edirlər. Kapitan bu təklifdən boyun qaçırıb Krasnovodska gəlir. Burada komissarları bir dəstə saldat qarşılayır. Ciddi axtarışdan sonra (Petrovun çəkməsi altından 14 min manat pul tapılmışdır), sabiq komissarları hara isə aparıb güllələyirlər.

Bakıya gəlmək istədikdə P. xanım paraxod arxasında gələn "Semyon" adlı yük gəmisinə minib Krasnovodskdan çıxır. Yolda paraxodda yanğın başlanıb gəmini başlı-başına buraxmağa məcbur olur, çox vaxt artıq məşəqqət ilə dənizdə durduqdan sonra (paraxodda şirin su olmadığından kartofu dəniz suyunda qaynadırdıq) gəmi hərəkət edib Bakıya yönəldi. Bakının yavuqluğunda sərnişinlər öz aralarından nümayəndələr seçib sahilə göndərdilər. Nümayəndələr bir gün yarım dolaşdıqdan sonra Bakıya gəlirlər. Buradan Hökumət əmrilə barkas gedib "Semyon"u bargaha [limana] gətirir.

## BAKININ SON DƏQİQƏLƏRİ

Hacı-Turxanda nəşr edilən "İzvestiya" bolşevik qəzetəsi axırıncı Bakı hadisələrini böylə bir lisanla təsvir edir:

*"Sabah saat 3-də şəhər bombardman edilib, gündüz saat 12-yə qədər top atəşi davam etməkdə idi. Bu zaman makinalı tüfəng [pulemyot] atəşi başlayıb davanın yaxın zamanda itmama [sona] yetəcəyini əhaliyə andırırdı.*

*Bolşeviklər[in] göstərdiyi kimi, "gəlmə yardımçı"ların müvəffəqiyyəti olmadı.*

*Müfəttin [fitnəkar] menşevik və inqilabçıların inandığı və gözlədiyi bu beynəlmiləl dolandırıçıların kafi dərəcədə qüvvələri olmadıqları ümuma məlum oldu.*

*Bakı əhalisi ancaq axırıncı nəfəsdə keçmişdəki iştirakiyyunları [sosialistləri] xatirəsinə gətirib vaxtın keçməsinə heyflənirdi.*

*Daşnaklar öz sözü üstündə durub, hərəkatlərində bərqərar idilər. Bunlar bu axırıncı zamanı keçmiş bolşeviklər zamanındakı kimi yenə də müfəttin və xainlik rolunu gözəlcəsinə ifa etdilər.*

*Hətta cəbhədən qaçan daşnakların matros və İngiltərə tərəfindən güllələnməsi çarə[si] dəxi bu xainləri düşmən qarşısına çıxara bilməyirdi. Çünki alçaq və rəzil bir zatdan heç vaxt alicənab və qəhrəmanlıq gözləmək olmaz. Dinc əhalini soymaq, cəbhəni sındırmaq bunların köhnə adətidir. Doğru, bunların arasında tək-tək qəhrəmanlar tapılırdı, amma bununla ümum daşnakların eyib və nöqsanlarını məstur etmək [gizlətmək] heç mümkün deyil, zənn ediriz.*

*İndi yalançı sosialist Ayolla, Sadovski və Məlik-Yolçuyanların siyasəti sayəsində Türkiyəyə keçən Bakının axırıncı dəqiqələrindən danışalım.*

*Sentyabrın 14[-də] sabahdan axşam saat 7-dək dışarı çıxmaq mümkün deyil idi, çünki küçələrdə qarovullar qoyulub nəinki küçəyə çıxmağa, bəlkə pəncərələri açmaq qadağan edilmişdi.*

*Saat 8-də bazarlarda su paylayan quyular ətrafında camaat toplaşırdı. Bu vaxtlarda dışarıda gəzib-dolaşmaq xətərdən xali deyildi.*

*Yuxarı bazarda patlayan bombadan xeyli növbədə dayanan arvadlar həlak oldu. Əhali küçədən qorxa-qorxa divar dibiylə qonşu evlərə gedə bilirdilər. Şəhərin üstündə top səsləri kəsilməyirdi.*

*Saat 9-da mən, Hacınskinin dərya kənarında olan mülkünə gedib qəbristan ətrafında dava gedişinə tamaşa edirdim.*

*Bizim səngərlər düşmənin böylə hücumuna qarşı dura bilməyəcəyinə əmin idim. Düşmən tərəfindən atılan top güllələri bizim əsgərləri səngərlərdə rahat qoymayırdı.*

*Bizim qoşunlar az dəstələrlə Çəmbərəkənd tərəfindən əsləhələri [silahları] dəxi qoyub qaçmağa başladılar. Bizim əsgərlərimiz əhalini yaddan çıxarıb, özləri paraxodlara dolurdular. Başda duranlar öylə şaşmışdılar ki, şəhərin müntəzəm surətdə köçürülməsi heç xatirlərinə gəlməyirdi. Xain siyasətçilər ancaq öz canlarını xilas etməyə çalışırdılar. Hələ Bakı alınmamışdan üç həftə müqəddəm on beşdən ziyadə qoşunu qaçırtmaq üçün paraxodlar hazır etmişdlər.*

*İngiltərə ordusu türk hücumundan üç gün müqəddəm özünə yeddi paraxod alıb yerləşmişdi.*

*Bolşevikləri Bakını atıb qaçmaqda müttəhim edən "hökumət" özü də qadın və çocuqları buraxıb qaçırdı. Bununla belə axırıncı dəqiqələrədək cəbhələrdən gələn xəbərlər dava meydanında müzəffəriyyətimizi andırırdı. Birdən cəbhədə düşmən qabağında duran qoşunları, xüsusən daşnakları və Biçeraxov dəstəsini paraxodlarda əyləşmiş gördük. Camaat isə hələ güllə, atəş altında qalmışdı. Çocuqlarını atıb özünü xilas etmək istəyən anaların nalə və fəryadlarını eşitmək mümkün deyildi.*

*Paraxodlara əyləşən daşnak əsgərləri özlərindən başqa kimsəni götürmək istəməyib, tələsik iskələlərdən uzaqlaşırdılar. Bu əsnada top gülləbri iskələlərə düşüb yanğın edirdi. Bununla da qadın və çocuq ilə məmlu [dolu] olan barjaya düşüb çox tələfata səbəb oldu.*

*Əlbəttə bu xainlik Bakı Hökuməti başçıları tərəfindən birinci deyil. Mərkəzi Rusiyadan və inqilabın ən birinci müdafii [müdafiəçisi] zəhmətkeşlərdən üz çöndərən xainlər yapdıqları cinayətlərdən məsul olacaqlardır."*

## QƏZETƏLƏRDƏN

**I**

**İngilislərin kəndi rəyi**

Sentyabrın 20-də çıxan nömrəsində "Dayli" ingilis qəzetəsi Bakının alınması barəsində böylə yazır:

*"Bu mənasız macəraların məsuliyyəti kimin öhdəsindədir? Rusiyanın indiki halını nəzərə aldıqda, böylə səfərin nəticəsiz olduğunu biz anlamalıydıq. Bu qədər ordunu Şamdan Ənzəli ilə Bakıya aparmağın əhəmiyyəti vardımı? Bu davanın fəlakətsiz qurtarmasıyla biz pək məsud olduq."*

**III**

**Bitərəf ordu**

Alman heyətindən Tiflis qəzetələrinə xəbər verirlər:

General Alekseyev Rostovda rəsmi surətdə məlum etmişdir ki, Almaniya ilə İngiltərə arasında olan davada Könüllü ordusu bitərəf qalacaqdır. Bu ordunun məqsədi ancaq Rusiyada müşahidə olunan yeni həyatı və bolşevizmi məhv etməkdir.

**IV**

**Milyukov və Şulgin**

Kiyevdə kadet və qeyri firqə nümayəndələrinin ziyafətində Milyukov ilə Şulginin arasında Kiyev kadetlərin[in] və xüsusən Milyukovun nəzəriyyəsi barəsində böyük danışıq olmuşdur. Söhbətin axırı feli həqarətlə qurtarmışdır.

*Hekayə*

## İNTİZAR

Bakı Mart həvadisindən [hadisələrindən] beş-altı gün keçmişdi. Hələ bizim köydə damların üzərində bəyaz "əl-aman bayrağı" asılmışdı. Baharın lətif rüzgarı bayraqlara dəydikdə, həzin bir səs duyardınız. Əgər diqqəti-tamam ilə dinləsəydin yəqin o səs sənə deyərdi: "Qorxma, qorxaq olma, sənin qorxaq əcdadın olmamışdır. Əcdadından utan da alçaqlara təbəiyyət etmə [tabe olma]. Qaç, qaç da dağlara, meşələrə, səhranişin ol. Qorxaqlara təbəiyyət etmə, utan, utan əcdadından. Əcdadın kiməsə olsun da təbəiyyət etməmişdir."

Əvət, o bayraqla düşünüb söyləşən kimdi? Məhəmməd əmi idi. Əcəba Məhəmməd [əmini] düşündürən nə idi? Məhəmməd əmini düşündürən o idi ki, həman gün erməni saldatları gəlib Güzdək köyünə savet seçib getdikdə, iki göz nuru olan oğlanlarını qurşunlamışdılar, süngüləmişdilər, başlarını kəsmişdilər. Məhəmməd əmidən sorardın, sənə deyərdi: "Bolşeviklər." Məhəmməd əminin bir işi daha vardı. Əgər köyə eşitsəydi bolşevik gəlib, həman saat gedərdi, həm qorxmazdı. Erməni olsun bilməzdi, rus deməzdi, müsəlman bilməzdi, başlardı təhqir etməyə.

İslam bolşeviki olsaydı, deyərdi: "Allah sənə lənət eyləsin! Məgər səndə türk qeyrəti, islam mürvəti yoxdur? Səndə zərrəcə olsun da əlac üçün islam qanı yoxdur", deyib gedərdi. Artıq öldürsən də kişini durmazdı, gedərdi. Nərəyə? Məscidə, abdəst alıb namazını əda edərdi, iki diz üstə çöküb, əllərini Allahın dərgahına qaldırıb, dua edərdi. Nə deyərdi?

"İlahi, sən özün bizə kömək et. Ənvər paşanın qılıncını iti edib, tezliklən Bakıya yetir ki, şəhərimiz düşmənə qismət olmasın!"

Bir neçə ay dolandı. Bir gün Cəngidə türk toplarının səsi gəldi. Məhəmməd əmi nə yapardı? Gah oynardı, gah gülərdi. Top səsi duyulduqca Məhəmməd əmi: "Bax, şimdi bir az yaxında gəlir, bax sabah Arpat çayına gələr, o birisi gün Xırdalana, daha o biri gün Bakıya yetər inşallah." Doğrudan da sabah, gəlib Şubanıya əsgər yetişdi. Xəbəri gəldi bizim köyə, türk əsakiri [əsgərləri] üçün su aparsın. Su aparanlarla bərabər Məhəmməd əmini də görərdim. Məhəmməd əmi deyərdi: "Allah bizim su aparanlara qanad verəydi ki çapuq yetişdirəydik."

Məhəmməd əmi əsakirə su aparar verərdi, içirərdi, bir çoxunu əllərindən öpərdi.

Əsgərlər, "Aman baba, Allah eşqinə, bizi günaha soxma, böylə yapma! İnşallah sənin oğullarının intiqamını alarız!" deyərdilər.

Məhəmməd əmi "amin" deyib bəyaz saqqalına əl çəkərdi.

Şimdi Məhəmməd əmi Güzdək köyündə bir ictima olanda deyir:

"Verin oğullarınızı əsgərliyə. Mən üç nəfər yerdə qalanını daha verdim!"

*Rəşid oğlu Ümid bəy*

## İSPANYOL NƏZLƏSİ

Nəhayət, bu müzic [usandırıcı], səyyar xəstəlik Bakıya da gəldi. Hərbi-ümumi yeni-yeni bir çox şeylər çıxardığı kimi, yeni xəstəliklərin də zühuruna şahid olur. Cahan hərbi də bitərəf bir məmləkətdən çıxan yeni bir xəstəliklə təməyyüz edir [seçilir]: ispanyol nəzləsi [zökəmi]!

İbtida, teleqraflarda İspaniyada zühur edən qərib və əsrarəngiz bir xəstəlikdən bəhs olunduğunu görənlər, təbii bir heyrət hiss etmişlərdi. Hələ bu xəstəliyə başda İspaniyanın gənc kralıyla sevimli kraliçası olmaq üzrə bütün ricalın [dövlət adamlarının] yaxalandıqları xəbərləri, hərb vəlvələləri arasında pozulmuş dimağlarda [başlarda, beyinlərdə] bir çox təfsirlər oyandırırdı. Fəqət ispanyol nəzləsi, təhlükəsiz və atəşin [atəşli, odlu] varlığını digər millətlərə də göstərərək, o kimi sui-təfsirin önünü almaqda gecikmədi. İsveçrəyə, Almaniyaya, Avstriyaya atladı; nəhayət, şəhərimizə də gəldi.

İspanyol nəzləsi, keçdiyi yerlərdə həman kimsəni ziyarətindən məhrum etmək istəməyən qərib və növzühur [yeni peyda olmuş] bir "dəvətsiz müsafir" üzsüzlüyünü göstərdi.

Dörd sənədən bəri davam edib gedən ümumi hərb əsnasında heç bir şeyə qarışmayan, sakitanə yaşamağa çalışan İspaniya, nəhayət bizə böylə bir "əzizlik" [mənfi mənada sürpriz] yapacaqmış, kimin xatirinə gələrdi! Amerika müharibəyə girməzdən əvvəl ən kiçik hökumətlər belə Vilsona imtisalən [Vilsondan misal götürərək] sülh təvəssüt [vasitəçilik] və təklifinə qalxışdıqları vaxtda, hənuz [hələ ki] zəmin və zamanı müsaid görmədiyi iddiasıyla buna belə iştirak etməyə[n] İspaniya, şimdi bütün mühariblərə [savaşanlara] böylə yepyeni xəstəlik hədiyyə edir. Kimlər bilir, bəlkə də xəstəliyin dalğın və hərarətli dövrələrində hərbi-ümuminin müdhiş mənzərələrini ələn bu xunin qitalı [qanlı qırğınları] beyhudə yerə davam etdirənlərin gözü önündə təcəssüm etdirərək, onları sülhə yumşaltmaq məqsədilədir.

İspanyol nəzləsinin mahiyyəti hələ məchul bulunur: mənbeyizühuru olan İspaniyadan tutunuz da, buraya qədər güzərgahını qovurduğu halda, ələn [hələ ki] bakterioloqlar buna səbəb olan mikrobu quyruğundan yaxalayammamış, hələ ətibba [təbiblər] əsbabi-mərəzi [xəstəlik səbəblərini] anlayammamış, kimi bunu influanzanın bir növüədd [hesab] edir; kimi üç gün humması [qızdırması] növündən sayır.

Mahiyyət və əsbabı məchul olmasına rəğmən xəstəliyin ə'razı [əlamətləri] pək əla bilinir; hətta məəttəəssüf əksəriyyən maddən də hiss edilir: ani və səri [sürətli] bir tərfiyi-hərarət [hərarətin qalxması], bel, baş və məfsil [oynaq] ağrıları, öksürək və bəzi dəfə cümlə əsəbiyyədə [bütün sinirlərdə], bəzi dəfə də cihazi-həzmidə [həzm aparatında] ə'raz zühuru [əlamətlərin üzə çıxması]... İştə, bir qaç gündən bəri şəhərimizdə də bir çoxlarını döşəklərə sərən xəstəliyin başlıca əlaimi [əlamətləri] bunlardır.

İspanyol nəzləsinə tutulanlar üçün ətibbanın tövsiyə edə bildikləri başlıca şeylər, mütləq bir istirahət, ixtilatatdan ictinab [başqaları ilə təmasda olmaqdan çəkinmək], tərləyici və kəmikləri təqviyə edici [sümükləri gücləndirici] aspirin kimi müalicatdan [müalicələrdən] ibarət. Fəqət anlaşılır ki, xəstəliyin başlıca əlacı zamandır, üç-dörd gün istirahət edilincə, artıq müafiyət istehsal edilir [immunluq əldə edilir]; həm də bütün fənalıqlarına müqabil şu faydası var ki, bir kərə tutulan artıq bir daha bu xəstəliyə yaxalanmırmış.

Madam ki, hər kəsin başından keçəcək, nə deyəlim, Allah yaxalananlara səri [tez] bir afiyət [sağalma] ehsan etsin, yaxalanmayanlara da heç olmazsa, işlərini görə bilmək üzrə növbəylə tutulmaq imkanını bəxş eyləsin!..

## MÜHARİBƏ MEYDANI

**Balkan cəbhəsi**

Sofiya – 19 sentyabr, (rəsmi) hərbi xəbər. Makedoniya cəbhəsi. Tsirnadan şərqə düşmən tərəfindən heç bir mümaniət [maneçilik] olmayaraq bizim qoşunlar təzə səngərləri tutub möhkəmlədirlər. Düşmənin bir taboru bizim atəşimizlə Divodan cənuba büsbütün məhv olmuş. Bizim toplar Vardar yanında düşmənin ləvazimati-hərbiyyəsini yandırmışdır. Hər iki tərəfdən Doyran gölü ətrafında dava şiddətlənirdi. Gündüz Doyran[dan] qərbə və cənuba hərb şiddətlənirdi. Bərk top atışmasından sonra üç İngiltərə və iki yunan firqəsi [dəstəsi] hücuma başladı. Düşmən 250 min müxtəlif əndazələrdə qranat [qumbara] atdı. Onlar bir neçə tərəfdən bizim səngərlərə girməyə müvəffəq oldular. Sonradan bizim əks-hücumumuzla yenidən düşmən tutduğu səngərlərdən çıxarılıb böyük tələfat ilə dala çəkilməyə məcbur edildi. 500-dən ziyadə İngiltərə və yunan əsakiri [əsgərləri], hərbi ləvazimat əlimizə keçdi.

Bu halda bir yunan firqəsi üzərimizə hücum edib Doyran gölündən şərqi-şimala doğru bizim səngərləri çıxışdırmışlar. Bunlar bizim firqəyə yavuqlaşdıqda, bizim tərəfimizdən top atəşi altına alınıb çox tələfat verib qaçmağa məcbur oldular. Bunlardan çoxlu əsir də aldıq. Tsirnanın şərq tərəfində alman vitse-feldfebeli 17-ci hava zəfərini yapdı.

## XARİCİ XƏBƏRLƏR

**Nyu Yorkda bahalıq**

Avropanın böyük mərkəzlərində müşahidə olunan bahalıq əhalinin məişətini çətinləşdirdikdə, Yeni Dünyanın mərkəzlərindəki həyat dəxi maraqdan xali deyil. Çox zaman Nyu York şəhərində yaşayan bir nəfər, xüsusi məktubunda bu ilin əvailinə [əvvəllərinə] aid böylə məlumat verir:

"Şəhərin ümumi həyatı keçmişdə kimi dəyişməyibsə də, yeyinti şeylərin qiyməti hərbdən sabiqki qiymətlərə görə birə on artmışdır. Məsələn çox vaxt kömür, odun, qənd və bu kimi şeyləri heç bir qiymətə almaq mümkün olmayır. Burada buğda unu çox azdır."

**Berlində türk tələbəsi**

**Berlin** – Fünuni-ziraiyyə [kənd təsərrüfatı fənləri] təhsili üçün buraya 150 türk tələbəsi gəlmişdir. Bunlardan qırxı Konya vilayətindən göndərilmişdir. Bu tələbələrin əksəri Ənvər paşa həzrətləri tərəfindən göndərilmişdir.

**Kolonya** – "Qazetdö-Kolonya"nın Kopenhaq müxabiri [müxbiri] Petersburqdan gələn xəbərlərə nəzərən rus qəzetələrinin Etilaf dövlətləri ilə müahidatı [sazişləri] yenidən tədqiq etmək lüzumunu surəti-ciddiyyədə [ciddi surətdə] mövzui-bəhs eylədiklərini və Almaniya ilə ittifaq əqd etmək [bağlamaq] arzusunu açıqdan-açığa izhar eylədiklərini bildirir.

**Finlandada**

Fin sosial-demokratlarının mərkəzi komitəsinin xitabı.

Fin sosial-demokrat təşkilatının mərkəzi komitəsi Murmandakı finlərə bu yolda bir xitabda bulunmuşdur:

"İnqilab zəhmətkeşləri Rusiyaya xainanə bir surətdə hücum edən müstəbid ingilis və fransızlar ilə heç bir əlaqədə olmasınlar gərəkdir. Buna görə hər bir fin inqilabçısı müstəbid İngiltərə qoşununa qarşı çıxmalıdır. Rusiya Şura hökumətinin mübarizəsində inqilabçı sosialistlər İngiltərəyə kömək edərsə, beynəlmiləl fəhlə yürüşünə xəyanət etmiş olar. Hər bir sosialist fin-rus zəhmətkeşinə yardım etməlidir."

**Hərbin vicdan məhkəməsi ilə bitməsi**

"Frankfurt[er] zaytunq" avqustun 27-dən xəbər verir ki, İtaliya senatoru Ponti hərbin vicdan məhkəməsi ilə bitməsini təklif edir. Vicdan məhkəməsi bərabər olmaq şərtilə hər iki dava edən dövlətlərin və bitərəf hökumətlərin mötəbər nümayəndələrindən ibarət olmalıdır. Müharib [savaşan] dövlətlər bu məhkəmənin qətnaməsinə tabe olmalıdırlar. Bu məhkəmə ümumiyyətlə qəbul olunmuş əsaslara və Vilsonun sülh məramnaməsində göstərilən [on] dörd maddəyə müraat [riayət] etməlidir. Ancaq bu əsaslar üzrə ümum millətlərlə sülh ittifaqı bağlamaq mümkündür. Hərgah bu ittifaqı tək müharib dövlətlər düzəltmək istərlərsə, o vaxt bitərəf dövlətlər öz bitərəfliyini pozmamaq üçün sülhdə iştirak etməyəcəklər. Vicdan məhkəməsi baş tutarsa, sülh konfransına dəxi ehtiyac qalmayacaqdır.

**İtaliyada ərzaq böhranı**

İtaliyanın Ərzaq vəziri Qrimodi şəhərlərdəki ictimai idarələrə müraciətən İtaliya məmləkətində çörəyin qənaətlə sərf edilməsini tələb etmişdir. Qarğıdalı məhsulunun azlığından naşi 60 milyon santar taxılın gətirilməsi lazımdır. Hərçənd bu yaxında taxıl gətiriləcəksə də, lakin hərəkati-nəqliyyənin [daşıma hərəkətlərinin] pozğunluğundan camaat arasına paylanılması müşküldür.

*Dünkü nömrədən mabəd*

## TÜRKİYƏDƏKİ ERMƏNİ QƏZETƏLƏRİ NƏ SÖYLƏYİR?

Bə'dəhu [ondan sonra] məzkur [adı çəkilən] qəzetə ermənilərin ticarət və sənayedə və saheyi-iqtisadda tərəqqiyə istedad və qabiliyyətləri türklər tərəfindən daima lisani-təqdirlə yad və təzkar olunduğundan [xatırlandığından] və türklərlə ermənilərin münasibati-səmimanəsindən məmləkət üçün təvəllüd etmiş və edəcək olan fəvaid [faydalar] və möhsünatından [yaxşılıqlarından] bəhslə məqaləsinə şu sözlərlə xitam verir:

"Hökumətcə bu dəfə ittixaz [qəbul] olunan qərari-müsib [yerinə düşən qərar] nəticəsində ermənilər üçün yenə kəndi istedad və qabiliyyətlərini göstərəcək vase [geniş] sahələr açılmış olur. Ermənilər ziraət [kənd təsərrüfatı], ticarət və sənaye kimi ümuri-ümranpər-vəranə [abadlıq işləri] ilə iştiğala [məşğul olmağa] başlayacaqlar və bu xüsusda dəxi daima Hökumətin müzahirətinə [köməyinə] məzhər [nail] olacaqlardır. Yeni Türkiyə kəndi xeyirxahlığının səmərati-nafeəsini kamali-məmnuniyyətlə iqtitaf edəcəyi [faydalı səmərələrini tam bir məmnuniyyətlə toplayacağı] kimi, bu məmləkətin düşməni olan Rusiyanın izmihlalıyla da [çökməsiylə də] Türkiyənin nə böyük bir ünsüri-sülh və səlah olduğunu aləm görəcəkdir."

**Heyəti-təhririyyə**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Bakı şəhəri və ətrafı əhalisinə***

*səh. 64. "2/10/34": Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 2 oktyabr 1918-ci ilə uyğundur.*

***Hökumət qərardadları:***

*26 iyul 1918*

*səh. 65. "Put" (yaxud "pud"): metrik ölçü sistemindən əvvəl işlədilən çəki ölçüsü; 16,4 kiloqrama bərabər idi.*

*"Girvənkə": metrik ölçü sistemindən əvvəl işlədilən çəki ölçüsü; 400 qrama bərabər idi.*

***Verin zavallılara***

*səh. 67. "Vatəsimu bihəblillahi cəmiən və lətəfərrəqu": Quran, Ali-İmran surəsinin 103-cü ayəsinin əvvəli. Mənası: "Allahın ipinə hamılıqla möhkəm sarılın və firqələrə bölünməyin."*

*"Əl-müminu lil-mümini kalbünyani yəşüddü bə'zuhü bə'zə": Hədis, Müslim və Buxaridə nəql edilmişdir. Mənası: "Mömin mömin üçün, bir binanın bir-birini saxlayan daşları kimidir."*

*səh. 68. "2/10/34": Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 2 oktyabr 1918-ci ilə uyğundur.*

***Nəzarətlərimizdə: Qaçqınlara müavinət şöbəsində***

*səh. 71. "Gökçay [Göyçay]": Gökçə [Göyçə] gölü nəzərdə tutulmuşdur.*

***Xəzər dənizində***

*səh. 71. "Tazəşəhr": Krasnovodsk (bugünkü Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.*

*"Balayan": Böyük ehtimalla, Rusyanın Qafqaz ordusunun Hərbi-İnqilab Komitəsinin Tibbi-Sanitar komissiyasının sədri Q. Balayan nəzərdə tutulmuşdur.*

*"Barkas": Kiçik ölçülü gəmi, əsasən liman daxilində istifadə olunur.*

***Bakının son dəqiqələri***

*səh. 72. "Saat 9-da mən, Hacınskinin dərya kənarında olan mülkünə gedib…": burada söhbət İsa bəy Hacınskidən gedir.*

*səh. 73. "Barja", yaxud "barj": adətən yedəkdə çəkilən böyük yük gəmisi.*

*"Əlbəttə bu xainlik Bakı Hökuməti başçıları tərəfindən…": burada "Bakı Hökuməti" deyərkən, Bakı Xalq Komissarları Soveti nəzərdə tutulur.*

***Qəzetələrdən***

*səh. 73. Bu hissədəki sıra nömrələri I, III, IV kimi verilmişdir, II nömrə yoxdur.*

*"Dayli" ingilis qəzetəsi: güman ki, "Deyli teleqraf" [The Daily Telegraph] qəzeti nəzərdə tutulur.*

*"General Alekseyev Rostovda rəsmi surətdə…": Rostovna-Donu nəzərdə tutulur.*

***İspanyol nəzləsi***

*səh. 75. "Hələ bu xəstəliyə başda İspaniyanın gənc kralıyla sevimli kraliçası olmaq üzrə…": İspaniya kralı XIII Alfonso və həyat yoldaşı Viktoriya Yevgeniya nəzərdə tutulur.*

***Müharibə meydanı***

*səh. 76. "Vitse-feldfebel": Alman ordusunda aşağı rütbəli zabit.*

***Xarici xəbərlər: Finlandada***

*səh. 77. "İnqilab zəhmətkeşləri Rusiyaya xainanə bir surətdə hücum edən…": qəzetdə "…hücum edib…" getmişdir.*

***Xarici xəbərlər: İtaliyada ərzaq böhranı***

*səh. 77. "Santar": Metrik ölçü sisteminin tətbiq edilməsindən əvvəl müxtəlif ölkələrdə (xüsusən Yaxın Şərq və Aralıq dənizi ölkələrində) işlədilən kütlə ölçüsü vahidi, qantar. Bir çox ölkədə 45-60 kq arasında dəyişsə də, bəzi ölkələrdə bu rəqəm 300 kq-a qədər artmaqda idi.*



# İLHAM ƏLİYEV babalarımız Şah İsmayılın, Nadir şahın qələbə bayrağını Qarabağda dalğalandırdı



## Dünya Qızılbaşları Müzəffər Komandanın "dəmir yumruğ"u ətrafında mütəşəkkil şəkildə birləşir

*"Əsrlər sonra baba yurdum Azərbaycana, əcdadım Əliqulu xanın yaşadığı Qarabağa, Şuşaya ayaq basanda qəlbimdə heyrətamiz duyğular oyandı... Bu hisslər məni 400 il əvvələ apardı...*

*Şuşanı gəzərkən sanki ulu babalarımın şad olan ruhları da mənimlə birgə addımlayırdı. Hərdən mənə elə gəlirdi ki, əcdadlarım kimi mən də Qarabağın qızılı rəngli atının üstündə Cıdır düzündə çapıram. Həmin gün həyatımın ən qürurlu anlarını yaşadım və ömrümdə heç vaxt özümü belə xoşbəxt hiss etməmişdim".*

Hazırda Kanadada yaşayan tibb elmləri doktoru, əslən azərbaycanlı Arşi Qızılbaş illər sonra Vətənə dönüşünün, xüsusən də əcdadlarının yaşadığı Qarabağın tacı sayılan Şuşaya səfərinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zəfər qurultayında iştirakının onda yaratdığı böyük fəxr və qürur hissini bizimlə bölüşür.

### 400 ildən sonra Vətənə qayıdışın qüruru

ABŞ-ın Harvard Tibb Məktəbinin məzunu olan Arşi Qızılbaş Amerikada tibbi klinik araşdırmalar üzrə fəaliyyət göstərən "Delta Health" firmasının baş direktoru, həmçinin Dünya Qızılbaş Qlobal İrsi Şura Təşkilatının (Qizilbash Global Heritage Şura) Amerika regionları üzrə rəhbəridir.

Əcdadlarının yurduna səfər Arşinin həyatında silinməz izlər qoyub və özünün təbirincə desək, həyatındakı ən böyük arzusu reallaşıb. Qarabağın, Şuşanın ecazkarlığı, doğmalığı ömür səhifələrində unudulmaz anlara çevrilib: "Həyatımın ən qürurlu anlarını yaşayıram. İllər sonra əcdadlarımın yurduna səfərlə ən böyük arzumu gerçəkliyə çevirdim. Buna görə də qüdrətli Azərbaycanın Müzəffər Komandanı İlham Əliyevə minnətdaram".

Arşi Qızılbaş bir etnik azərbaycanlı kimi İlham Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Zəfər Qurultayının məhz Şuşada keçirilməsi, 65-dən çox ölkədən 400-dən artıq soydaşımızın bu mütəşəkkil toplantıda iştirakını yüksək qiymətləndirir. Sözlərinə görə, dünya Qızılbaş irsinin nümayəndələri müxtəlif ölkələrdə - Kanadada, Amerikada, Pakistanda, Əfqanıstanda yaşasalar da, nəbzləri hər zaman Azərbaycanla döyünür. Azərbaycanın hər bir uğuru, qələbəsi onları da qürurlandırır.

Qarabağın işğalı nəticəsində el-obasından didərgin salınan Azərbaycan vətəndaşlarının artıq məcburi köçkün sayılmadıqları kimi, dünyadakı Qızılbaş irsinin nümayəndələrinin də vətənsizlik "statusunun" ləğv olunduğunu söyləyən Arşi Qızılbaş deyir ki, onlar bu günləri əsrlərlə gözləyiblər: "Qarabağın işğalı ilə bir milyondan çox azərbaycanlı yurdundan didərgin düşüb 30 il məcburi köçkün həyatı sürdülər. Dünyanın müxtəlif ölkələrində yaşayan Qızılbaş irsinin nümayəndələri də elə eyni ağrı-acını, qəm-qüssəni, yurd həsrətini əsrlərlə yaşadılar. Yəni sizlərin Qarabağ həsrəti 30 il çəkdisə, biz bu günləri 400 il gözlədik, Vətən nisgilimiz 4 əsrə bərabər oldu. Uzun zaman gözlədik, səbir etdik. Sonunda Uca Tanrı Azərbaycana cənab İlham Əliyevin timsalında elə bir qüdrətli sərkərdə, xilaskar lider nəsib etdi ki, yürütdüyü siyasətlə bütün dünya azərbaycanlılarını "dəmir yumruq" ətrafında sıx birləşdirdi. Qızılbaşların tarixi vətəni Qarabağı azad etdi".

Azərbaycanın 44 günlük Vətən müharibəsindəki şanlı zəfərini də qiymətləndirən Arşi Qızılbaşın fikrincə, bu tarixi qələbənin memarı Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun qüdrətli ordusudur: "İndi biz Qızılbaşlar dünyanın istənilən yerində qürurla gəzirik, çünki qalib xalqın nümayəndələriyik. İlham Əliyev dünya siyasi arenasında qətiyyətli, prinsipial siyasətçi olmaqla yanaşı, savaş meydanında da əsl sərkərdə olduğunu sübut etdi. Son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirən, soyqırıma məruz qalan Azərbaycan xalqının milli mənliyini, gücünü özünə qaytardı. Müzəffər Komandan kimi böyük xilaskarlıq missiyasını yerinə yetirməklə xalqın qəhrəmanlıq salnaməsini qızıl hərflərlə yazdı. Ən əsası isə İlham Əliyev babalarımız Şah İsmayılın, Nadir şahın qaldırdığı qələbə bayrağını Qarabağda dalğalandırdı. Dünya Qızılbaşları da Müzəffər Komandanın "dəmir yumruğ"u ətrafında sıx birləşir".

İndi Arşi Qızılbaşın bir arzusu da var. Qızılbaş ailəsinə mənsub hər kəsin doğma yurdları olan Qarabağı ziyarət etmələridir. Şəxsən özü isə Qarabağ və Şərqi Zəngəzurun inkişafı istiqamətində görülən işlərə dəstək vermək niyyətindədir. Buna görə də yenidən qurulan bölgədə xüsusən, səhiyyə sahəsinə öz dəstəyini göstərmək üçün bir daha Azərbaycana səfər etməyi planlaşdırır.

### Qızılbaşlar dünyaya necə yayılıblar?

Tarixdən məlum olduğu kimi, Qızılbaşlıq Azərbaycanda yaranıb. Bu tayfanın hakim mövqedə olduğu Səfəvilər dövləti həm də "Qızılbaşlar dövləti" adlandırılıb. Səfəvilər dövləti bugünkü Azərbaycan, İran, İraq, Ermənistan, Əfqanıstan, Qərbi Pakistan, Türkmənistan, Şərqi Türkiyə, Şimal-şərqi Hindistan və Özbəkistan ərazilərini əhatə edib. Bu da onu deməyə əsas verir ki, qızılbaşlar bu ərazilərdə kök salaraq dünyanın dörd bir yanına səpələniblər.

XV əsrin ikinci yarısında meydana çıxmış olan Qızılbaşlıq hərəkatı Azərbaycan, İran, İraq və Şərqi Anadoluda yaşayan türk tayfalarının tarixində yeni bir səhifə açıb. Qızılbaşlar əvvəlcə şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər, varsaq, qaradağlı, sonralar isə bayat, qaramanlı, baharlı, alpaut, ərəşli, qazaxlı və başqa türk tayfalarını birləşdirirdi. Talışlar qızılbaşların tərkibində yeganə irandilli xalq idi.

Tariximizin iki mərhələsində Azərbaycan torpaqlarından böyük köç baş verib. Bunlardan biri Şah Təhmasib tərəfindən Moğol imperatoruna göndərilən 12000 qızılbaş döyüşçüsü, digəri isə Nadir Şah Avşar tərəfindən Hindistan və Əfqanıstanın istilası zamanı ora apardığı Cavanşirlər, Bayat və Avşar boylarıdır. İngilislərin apardığı siyahıyaalmaya görə, 1901-ci ildə indiki Hindistanın Uttar Pradeş əyalətinə uyğun gələn ərazidə 2877 nəfər, 1911-ci ilin siyahıya alınmasına görə isə, indiki Pakistan və Hindistan Pəncabında, Dehlidə 1959 soydaşımız yaşayıb. Hazırda isə dünyanın müxtəlif ölkələrində milyonlarla Qızılbaş məskunlaşıb.








Əhalinin təbii artımını və xaricə köçü də nəzərə aldıqda Pakistan və Hindistanda qızılbaş sayını 20 min nəfər təxmin etmək olar. Pakistanda qızılbaşların sayı və rolu daha çoxdur. Qızılbaşlar bu ölkəyə prezident, nazirlər, generallar, səfir, hakim bəxş ediblər. Bu gün də Pakistan ordusunda xidmət edən qızılbaş generallar və yüksəkrütbəli zabitlər var.

Pakistan və Hindistan ərazisində Azərbaycan türkləri 15-20-ci yüzilliklərdən bəri yaşayırlar. Onların çoxu 19-cu yüzillikdə Əfqanıstandan köçənlərdir və burada da Əfqanıstanda olduğu kimi, qızılbaş soyadını daşıyırlar. Özbəkistana Azərbaycan türklərinin - qızılbaşların köçü 16-19-cu yüzilliklərdə baş verib. Oradakı icmanın təmsilçilərinin bir çoxu 1785-1830-cu illər arasında indiki Türkmənistanda yerləşən tarixi Mərv şəhərindən köçürülən əslən Gəncəli Qacarlardır.

### Dünya Qızılbaşlarını bir araya toplayan gəncin uğurlu missiyası

Əsrlər öncə Azərbaycanın tarixi torpaqlarından köçən soydaşlarımızın yenidən bir araya gəlməsi, təşkilatlanması üçün ciddi səylər göstərilir. Onların vahid mərkəzdə birləşməsini təmin etmək üçün yaradılan Dünya Qızılbaş Qlobal İrsi Şura Təşkilatında xaricdə yaşayan soydaşlarımız, xüsusən də gənclər təmsil olunurlar.

Bu vacib təşəbbüsün müəllifi isə gənc vətənpərvər Babək Hüseynlidir. Babək İngiltərədə təhsil alıb, London şəhərində aktiv diaspor fəaliyyəti ilə məşğul olub. Təhsilini bitirdikdən sonra ölkəyə qayıdıb müxtəlif özəl və dövlət qurumlarında çalışıb.

Qızılbaşların baş məskənlərindən sayılan Qarabağda, Xocavənd rayonunda vətənpərvər ailədə doğulan Babəkin əmisi, Birinci Qarabağ müharibəsində igidliyi, qəhrəmanlığı ilə düşmənə gözdağı verən Azərbaycanın Milli Qəhrəmanı İbad Hüseynovdur. Atası Birinci Qarabağ müharibəsi zamanı Xocavənd rayonunun özünümüdafiə taborunun komandiri olmuş Eyvaz Hüseynov çoxsaylı döyüş əməliyyatlarına rəhbərlik etmiş, həmçinin 2016-cı il Aprel döyüşlərində və Vətən müharibəsində də yenidən hərbi mundiri geyinərək haqq savaşına qatılmışdı. Əmiləri Əbülfət və İlyas Hüseynovlar da torpaqlarımızın müdafiəsi uğrunda erməni separatçılarına qarşı aparılan döyüşlərdə iştirak edən qəhrəmanlardır. Həm Babək Hüseynli, həm də qardaşı Cavidan Hüseynli II Qarabağ müharibəsində iştirak etmişlər.

İndi Babək Hüseynli sələflərinin Qarabağ yürüşünü, qəhrəmanlıq salnamələrini zehni, təşkilatçılıq bacarığı ilə davam etdirir, çox mühüm əhəmiyyətli xoşməramlı missiyanı üzərinə götürərək Azərbaycan tarixinə töhfə verir.

Onunla qızılbaşların sayı, yaratdığı təşkilat, qarşıda duran məqsədlər, planlar barədə söhbətləşdikdə bəlli oldu ki, əvvəllər Pakistan, Hindistan, Əfqanıstan, Türkmənistan və Özbəkistanda yaşayan soydaşlarımızın sayı ilə bağlı dəqiq rəsmi məlumat olmayıb. Türkmənistan və Özbəkistandakı soydaşlarımızın statistikası, əsasən, sovet və postsovet dövründə Azərbaycandan oraya köçənləri ehtiva edir. Lakin bu ölkələrdə daha qədim və köklü icmalarımız var ki, onlar indiyəcən "kəşf edilməyib".

Müxtəlif ölkələrdə yaşayan qızılbaş nəslinin davamçılarını əvvəlcə "Feysbuk" sosial şəbəkəsi üzərindən bir araya toplayan Babək Hüseynli bu təşəbbüsün daha böyük hədəflərə doğru irəlilədiyini deyir. O, dünyada qızılbaş adı altında yaşayan azərbaycanlıların soy yaddaşının yaradılması ilə bağlı işlərin başladığını, yüzlərlə soydaşımızın məlumatlarının (ad, soyad və əlaqə nömrələri) toplandığını bildirir. Hazırda "Feysbuk"da yaratdığı "Qizilbash Global Heritage Şura" səhifəsi də bu məqsədlərə xidmət edir.

"Qizilbash Global Heritage Şura" səhifəsində 20-dən artıq ölkədən minlərlə həmvətənimiz aktiv fəaliyyət göstərir, müxtəlif sahələrdə fikir və informasiya mübadiləsi aparırlar. Qrup üzvlərinin əksəriyyətini gənclər təşkil edir. Əcnəbi ölkədə doğulub oranın bir parçasına çevrilmiş və qloballaşma dövrünün reallıqlarını yaşayan bu gənclər indi soy-köklərinə bağlılıq göstərir, qızılbaş mahiyyətləri və Azərbaycan əsilli olmaları ilə qürur duyurlar: "Əsas məqsədimiz Azərbaycanı, dilimizi, tariximizi, zəngin mədəniyyətimizi tanıtmaq, dünyanın hər yerində Azərbaycana bağlı insanların sayını artırmaqdır".

Babək Hüseynli və Arşi Qızılbaşın birgə təşəbbüsü ilə yaradılan Qızılbaş Qlobal İrsi Şura Təşkilatı bu ilin fevral ayının 10-da Kanadada rəsmi qeydiyyatdan keçib. Şuranın prioritet fəaliyyət istiqamətləri Pakistan, Hindistan, Əfqanıstan, Türkmənistan və Özbəkistanda yaşayan, eyni zamanda bu ölkələrdən dünyanın müxtəlif istiqamətlərinə köçmüş, orada yaşayan Qızılbaş əsilli soydaşlarımıza ölkəmizi, dilimizi, tariximizi, zəngin mədəniyyətimizi tanıtmaqla, dünyanın hər yerində Azərbaycana bağlı insanların sayını artırmaq, Azərbaycan Səfəvi dövlətinin əsas özəyini təşkil edən dünya qızılbaşlarını bir yerə cəmləmək, Azərbaycanın şanlı tarixi, mədəniyyəti ilə tanış etmək və ölkəmizin beynəlxalq aləmdə etibarını artırmaqdır.

### Prezident Zəfər qurultayında gənclərin üzərinə mühüm vəzifələr qoydu

Babək Hüseynli həmçinin Şuşada İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zəfər qurultayı və orada qəbul edilən qərarları çox yüksək qiymətləndirərək deyir ki, dövlət başçısının Azərbaycan diasporuna, xaricdə yaşayan soydaşlarımıza verdiyi tapşırıqlar icra olunarsa, çox uğurlu nəticələr verəcək.

Onun fikrincə, 400-dən artıq soydaşımız qarşısında qətiyyətli, iftixarlı çıxışı ilə dünyaya mesaj verən Müzəffər Komandan İlham Əliyevin konseptual xarakter daşıyan nitqi eyni zamanda diaspor fəaliyyətinin inkişafı üçün də əsas hədəfləri aydın şəkildə özündə ehtiva edib: "Zəfər qurultayında əsas mövzular arasında postmüharibə dövründə diaspor fəaliyyətinin təşkili dayanırdı. Prezident İlham Əliyev hər zamankı kimi əsl reallıqları açıqlayıb bizlərə doğru yol göstərdi. Xilaskar liderin hər bir hikmətli fikri Azərbaycan diasporunun fəaliyyəti üçün həm də yol xəritəsi oldu. Cənab Prezident xaricdə yaşayan hər bir azərbaycanlı, diaspor üzvləri üçün postmünaqişə dövrünün reallıqları fonunda görüləcək işlərin əsas istiqamətlərini, fəaliyyət platformasını müəyyənləşdirdi. Dövlət başçısı tövsiyələri, tapşırıqları ilə xüsusən biz gənclərin üzərinə mühüm vəzifələr qoydu. İnanıram ki, Zəfər qurultayı Azərbaycan diasporunun fəaliyyətinin güclənməsində böyük rol oynayacaq".

Babək həmçinin deyir ki, Bakıya səfər çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovla Qızılbaş Qlobal İrsi Şurasının müxtəlif ölkələrində yaşayan bir qrup üzvü ilə onlayn formatlı görüşü də keçirilib. Görüşdə təşkilatın fəaliyyət istiqaməti, indiyə qədər həyata keçirilən proseslər barədə komitə sədri və üzvlərinə geniş məlumat verilib. Çoxsaylı Azərbaycan diasporunun sırasında yeni təşkilat kimi Qızılbaş Qlobal İrsi Şura Təşkilatının yaradıcılarına və üzvlərinə uğurlar arzulayan Fuad Muradov vurğulayıb ki, xalqımızın tarixi-mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsinin çox böyük önəmi var. Sədr həmçinin təşkilatla komitənin gələcək əməkdaşlıq perspektivləri haqqında mühüm məqamlara diqqəti cəlb edib. Görüşdə qərara alınıb ki, səmərəli əməkdaşlıq davam etdirilsin və təşkilatın müxtəlif ölkələrdə yaşayan üzvləri Azərbaycanla daha sıx əlaqələr qurulması istiqamətində öz töhfələrini versinlər.

Babək Hüseynlinin fikrincə, bu görüş təşkilatın fəaliyyət istiqamətində daha səmərəli işlərin görülməsi üçün müsbət impuls verib. Əlaqələrin daha da genişlənməsi, diaspor komitəsi ilə iş birliyi Azərbaycan tarixinə mühüm töhfələrin verəcəyini deməyə əsas yaradır.

### Arzular, istəklər reallığa çevriləcək

Göründüyü kimi, dünyanın bir çox ölkəsinə səpələnmiş Qızılbaşlar bir araya gələrək təşkilatlanırlar. Onların daha sıx əlaqələrinin yaranması işində təşəbbüs göstərən, daim araşdırmalar aparan, yorulmadan çalışan insanlara bu çətin və məsuliyyətli işlərində uğurlar azulayırıq.

Əminik ki, indiyədək bu istiqamətdə yorulmaz fəaliyyət göstərən Babəkin dünyadakı Qızılbaş irsini bir araya toplayıb tariximizə vermək istədiyi töhfəsi uğurlu nəticələr verəcək.

*Arşi Qızılbaşın arzusu da reallığa çevriləcək. Bir gün dünyada yaşayan Qızılbaşlar ailəsinin hər bir üzvü babalarının yurdu olan Azərbaycana, xüsusən də Qarabağa səfər edib, əcdadlarının yaşadıqları torpağı bağırlarına basıb onların ruhlarını şad edəcəklər.*

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Sarsılmaz birliyin təntənəsi

## Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyi tarixindəki ən yüksək zirvəyə yetişib

Bir millət, iki dövlət - Azərbaycan-Türkiyə əbədi birliyi, bu gün Yer üzündə tayına, bərabərinə rastlanmayan örnək götürüləsi misilsiz nümunədir. Prezident İlham Əliyevin də çıxışlarında dəfələrlə vurğuladığı kimi, dünya miqyasında ikinci belə ölkələr tapılmaz ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, belə arxa-dayaq dursun. Tarixən var olan və möhkəm özüllər üzərində qurulan bu qardaşlıq körpüsü gündən-günə daha da möhkəmlənir.

### Qardaş köməyi

İstər xoş günlərdə, istərsə də çətin məqamlarda Azərbaycan daim qardaş Türkiyənin, Türkiyə isə Azərbaycanın yanında olur. Bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində bütün dünya bir daha şahid oldu. Tarixi torpaqlarımızın işğalçılardan azad edilməsi üçün qalxdığımız Vətən savaşında qardaş ölkə Türkiyə haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu.

O da təsadüfi deyildi ki, Vətən müharibəmizin qələbə ilə başa çatmasından cəmi bir ay sonra, Azadlıq meydanında keçirilən təntənəli Zəfər paradında qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan da fəxri qonaq qismində iştirak etdi, möhtəşəm qələbə qürurumuzu bizimlə birlikdə yaşadı, sevincimizi paylaşdı.

Türkiyə Prezidenti işğaldan azad olunan ərazilərimizə də səfər edərək barbar ermənilərin o torpaqlarda törətdiyi vəhşiliklərə, tarixi, mədəni, dini irsimizə qarşı nümayiş etdirdiyi vandallığa əyani şahidlik etdi.

Eyni zamanda Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılışına qatılaraq bu torpaqlarda yalnız quruculuq-bərpa işlərinin aparılacağına, bu yerlərdə yalnız sülh və əmin-amanlıq olacağına dair dosta da, düşmənə də mesaj verdi. Azərbaycanın böyük qayıdışla bağlı həyata keçirdiyi irimiqyaslı işlərə hər zaman köməklik göstərəcəklərini nümayiş etdirdi.

Bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərində Türkiyə şirkətləri fəal iştirak edirlər.

### Müttəfiqlik zirvəsi

2021-ci ilin 15 iyunu Azərbaycan Türkiyə əlaqələri tarixinə daha bir əlamətdar gün kimi yazıldı. Azərbaycan Prezidenti Türkiyə Prezidentini Qarabağda qarşıladı və bütün türk dünyasının qürur ünvanı hesab olunan Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında möhtəşəm Şuşa Bəyannaməsi imzalandı.

Azərbaycanın qurtuluş günündə, tarixi Qars müqaviləsindən yüz il sonra iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair imzalanan bu bəyannamə ilə əzəldən var olan münasibətlərimiz daha yüksək zirvəyə ucaldı. Bəyannamədə göstərilən müddəalar da onu deməyə əsas verir ki, tarixən olduğu kimi, bundan sonra da qardaş Türkiyə hər zaman Azərbaycanın yanında olacaq.

Bu il fevralın 1-də, Milli Məclisin yaz sessiyasının ilk plenar iclasında, fevralın 3-də isə Türkiyə Böyük Millət Məclisində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi iki qardaş xalq arasında olan tarixi həmrəyliyin hər ötən gün daha da gücləndiyinin bariz göstəricisi, eyni zamanda Türkiyə-Azərbaycan müttəfiqliyinin qanun səviyyəsində təsbiti oldu.

### Atalardan qalan miras

Bir neçə gün əvvəl Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Prezident İlham Əliyevin fəxri qonaq kimi iştirak etməsi ölkələrimiz arasındakı qardaşlıq və birlik münasibətlərinin inkişafı istiqamətində mühüm hadisələrdən, uğurlu pillələrdən daha biri oldu. Bu, həm də Azərbaycan-Türkiyə arasında var olan bütün sahələr üzrə - siyasi, iqtisadi, ticari, mədəni və digər əlaqələrin inkişafı ilə yanaşı, ölkələrimizə yeni-yeni uğurlar vəd edən mötəbər tədbir kimi tarixə yazıldı, əbədi birliyimizi göstərdi.

Sözügedən hava limanının açılışında Azərbaycan Prezidentinin vurğuladığı kimi: "Biz hər zaman bir yerdəyik - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi. Savaşın ilk saatlarından son gününə qədər mənim qardaşım bizim yanımızda idi, qardaş Türkiyə xalqı bizim yanımızda idi".

İlham Əliyev onu da diqqətə çatdırdı ki, biz dünya miqyasında bir-birinə ən yaxın dövlətlərik və ölkələrimiz çox böyük sınaqlardan keçibdir. Keçən il bizim qədim və tarixi şəhərimizdə - Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında birgə bəyannamənin imzalanması bizim əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırdı: "Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik".

### Başımızın üzərində qürurla dalğalandırılan ay-ulduzlu qoşa bayraqlar

Bu gün bir millət, iki dövlət - Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyi tarixindəki ən yüksək zirvəyə yetişib. İndi Azərbaycan və Türkiyə bütün beynəlxalq layihələrdə birgə iştirak edir, xoş gündə də, dar gündə də bir-birinin yanında olur, dayağını, dəstəyini göstərir. Bütün çətinliklərə, problemlərə qarşı çiyin-çiyinə mübarizə aparır və birgəliyin verdiyi əzmlə, güclə də hər zaman qalib gəlir. Bir sözlə, Azərbaycan-Türkiyə uğurlu gələcəyə doğru qoşa addımlayır...

Elə iki ölkə arasında yaşanan həmrəyliyin, mənəvi bağlılığın təntənəsi olan bu münasibətlərin əyani təzahürüdür ki, ay-ulduzlu üçrəngli bayrağımız türk qardaşlarımızın, ay-ulduzlu al bayraq isə Azərbaycan xalqının başının üzərində daim qürurla dalğalandırılır...

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**




# Yazılı sözə ali qayğı

Xəbər verildiyi kimi, Nazirlər Kabinetinin 13 may tarixli müvafiq qərarı ilə ölkəmizdə kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışı əlavə dəyər vergisindən (ƏDV) azad edilmişdir.

Prezidentin mətbuata yüksək diqqət və qayğısının daha bir təzahürü kimi böyük ictimai rəğbətlə qarşılanan bu yenilikdən sonra ölkədə kitab, qəzet, jurnal, həmçinin onların istehsalı ilə bağlı kağız məhsullarının idxal və satışına görə 18 faiz ƏDV tutulmayacaq. Bu qərarla çap sənayesi sahəsində çalışan minlərlə insanın arzusu yerinə yetirilmiş oldu. Yada salaq ki, hələ ötən ilin dekabrında Vergilər Məcəlləsində əlavə və dəyişikliklərin icrası ilə bağlı fərmanında Prezident İlham Əliyev məsələ ilə əlaqədar Nazirlər Kabinetinə müvafiq tapşırıq vermişdi. Nazirlər Kabinetinin sözügedən qərarı həmin tapşırığın icrasıdır.

## Oxu ənənəsi qorunmalıdır

Hər bir ölkənin mənəvi tərəqqisində mətbuat, kitab müstəsna rol oynayır. İnformasiya texnologiyalarının inkişafı bu sahələrdə hər nə qədər yeni meyillər yaratsa da, texnologiyalar ənənəvi mətbuatın, kitabın yerini verə bilmir. Reallıqlar göstərir ki, əsrlərlə yaşı olan bu ənənələr bundan sonra da müəyyən səviyyələrdə yaşamaqda davam edəcək.

Məhz çap məhsullarının - qəzetin, jurnalın, kitabın və digər bu kimi vəsaitlərin həm tarixilik, həm mənbə kimi mötəbərlik, həm də müəyyən oxucu kütləsinin əsrlərdir dəyişməyən zövqü baxımından elə funksiyaları var ki, onlayn format onu əvəz edə bilmir. Sadə bir misal göstərək: istənilən informasiya portalının proqram təminatında bir neçə dəqiqəlik əməliyyat aparmaqla onun onillərlə formalaşmış arxivini yoxa çıxarmaq mümkündür. Yaxud onlayn mətni istədiyin kimi dəyişə, redaktələr, düzəlişlər apara, eləcə də məzmununu tamam başqalaşdıra bilərsən. Hər hansı texnogen amillərin təsiri ilə də onlayn məlumatların itməsi adi haldır. Kağızda nəşr edilmiş mətbuat orqanlarında, kitablarda isə bu, mümkünsüzdür. Burada məzmun necə varsa, elə qalır və keçmişdən gələcək nəsillərə soraq aparır. Dövrün ruhu, ab-havası məhz onların saralmış səhifələrində duyulur. Bir dəfə dərc edilmiş mətndə kağız üzərində hər hansı dəyişiklik aparmaq mümkün olmadığından yaradıcı kollektiv daha məsuliyyətli davranmağa, hər hansı səhvlərə yol verməməyə çalışır. Bu səbəbdən hazırda dünyanın əksər inkişaf etmiş ölkələrində insanlar ən mötəbər məlumatları yenə də məhz ənənəvi qəzetlərdən, jurnallardan, kitablardan əldə etməyə üstünlük verirlər.

Çap materiallarına maraq azalmır ki, artır. Hər halda dünyada kitab sənayesinin inkişafdan qalmaması, real kitab mütaliəsinin əksəriyyət üçün xoş bir zövq kimi öz statusunu qoruması bunu təsdiqləyə bilər. Orasını da qeyd edək ki, onlayn resurslar üçün ciddi, əsaslı, mötəbər kontentlərin hazırlanmasında da çap mediası, kitablar mötəbər mənbə kimi böyük rol oynayır. Əgər onlayn resurslardakı materialların təhlilini aparsaq, onların böyük qisminin məhz kitablardan, qəzet və jurnallardan əldə olunduğunu görərik. Deməli, kitab, qəzet, jurnal bu gün də biliyin əsas mənbəyi rolunda çıxış edir.

## Çap sənayesinə dəstək həm də məsuliyyət yaradır

Amma bütün bunlarla yanaşı, qeyd edilən fəaliyyət sahələrinin də biznesin bir istiqaməti olması və bazar iqtisadiyyatının prinsiplərinə məruz qalması reallıqdır. Onlayn alternativlərin yaratdığı rəqabət ənənəvi mətbuatın, kitabın mövqeyini əvvəlki onilliklərlə müqayisədə xeyli dərəcə zəiflədib. Hələlik bu sahələr yaşlı və orta nəslin ənənələrə sadiqliyi, vərdişləri hesabına mövcudluğunu saxlayır. Rəqəmsallaşmanı gündəlik həyat tərzinə çevirmiş gənc nəsil özündən əvvəlki nəsli əvəz etdikcə bu, təbii ki, ənənəvi mətbuata, kitabçılıq işinə də təsirini göstərəcək.

Ona görə də qeyd edilən sahələrin qorunması və inkişafı üçün müxtəlif tədbirlərə, müəyyən dövlət dəstəyinə ehtiyac var. Bu dəstək gənc nəsildə də həmin ənənəvi vərdişlərin formalaşdırılması baxımından çox önəmlidir. Əks halda onlar heç bir əlavə araşdırma aparmadan, mənbələrin nə dərəcədə mötəbərliyinə fərq qoymadan sosial mediadakı saxta məlumatların həqiqət kimi qəbul olunmasını özləri üçün bir həyat tərzinə çevirə bilərlər.

Kitab oxumayan, keyfiyyətli məzmunla özünü yetişdirməyən gəncliyin çap sənayesi ənənələrindən uzaq düşməsi gələcəyimiz üçün ciddi təhdiddir. Bu baxımdan hökumətin bu addımı mətbuata, kitaba qayğıkeşliklə yanaşı, eyni zamanda gələcək qarşısında məsuliyyət məsələsini aktuallaşdırır. Amma paralel olaraq mətbuatımızın, kitab sənayemizin də üzərinə böyük vəzifələr qoyur. Bu sahələrdə yaranmış imkanın düzgün dəyərləndirilməsini, auditoriyaya faydalı materialların təqdim olunmasını zəruri edir.

Onlayn alternativlərindən fərqli olaraq mətbuat orqanlarının, kitab nəşrinin yaşaması böyük maliyyə, texniki, material, eləcə də insan resursları tələb edən işdir. Bunun üçün kağız və digər materiallar olmalı, mətbəələr fəaliyyət göstərməli, orada peşəkar insanlar çalışmalı, son mərhələdə isə qəzet və jurnalın, kitabın satışı işi təşkil edilməlidir. Müasir biznes reallığında bu istiqamətlərin hər birində yüksək gəlirliliyə nail olmaq o qədər də asan başa gəlmir. Dövlətin dəstəyinə, bu sahədə müəyyən güzəştlərin tətbiqinə ehtiyac yaradır. Bu baxımdan Azərbaycan Prezidenti bu istiqamətdə nümunə ortaya qoymuş və cəmiyyətimizin ictimai inkişafına xidmət edən belə sahələrin dövlətimiz üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini növbəti dəfə göstərmişdir.

## Xərclərin azalması çap məhsullarını ucuzlaşdıracaq

Nazirlər Kabinetinin məlum qərarı çap mediası məhsullarının maya dəyərini və onların istehsal xərclərini əsaslı şəkildə azaldacaq, bu sahənin inkişafına təkan verəcək. Məsələn, araşdırmalar göstərir ki, kitab kağızının idxalına görə ƏDV-nin götürüldüyü ölkələrdə kitabların satışında 20 faizə qədər artım baş verir. Bunun da əsaslı səbəbləri var. Çünki kağız vergidən azad edildikdə kitabın maya dəyəri aşağı düşür. Xərclərin azalması isə istehsalçılara onu oxuculara daha ucuz qiymətə satmaq imkanı yaradır. Qiymət ucuzlaşdıqda oxucu da daha çox kitab alıb oxuya bilir. Beləliklə, bazar özü-özünü inkişaf etdirir. Məsələ ilə bağlı ölkənin çap mediası subyektləri rəhbərləri ilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində aparılan müzakirələr və yayım şirkətləri ilə görüşlərdə səsləndirilən fikirlər də bu yanaşmanı dəstəkləyir.

Bir daha təkrar edirik: Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişiklik və mayın 13-də imzalanmış qərar media sahəsində aparılan əsaslı islahatların ardıcıllığının və vahidliyinin təmin edilməsinin, eləcə də bu sahədə görülən tədbirlərə kompleks yanaşmanın təzahürü olmaqla, çap mediası subyektlərinin və çap məhsullarının yayımını həyata keçirən şirkətlərin səmərəli fəaliyyətinə və iqtisadi dayanıqlılığının artmasına əhəmiyyətli dərəcədə təsir göstərəcək.

Bu qərar milli mətbuatımıza da dövlət qayğısının daha bir təzahürü olmaqla Ümummilli Lider Heydər Əliyevin milli dövlətçilik ənənələrinin davamıdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Ulu Öndər ölkəmizdə zəngin tarixi ənənələr üzərində müstəqil mətbuatın formalaşması və inkişafı istiqamətində də mühüm addımlar atdı.

Ölkəmizdə müstəqil mətbuatın, azad sözün inkişafı dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrildi. Bu, 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyasında da öz əksini tapdı. 1998-ci il avqustun 6-da mətbuat üzərində senzura götürüldü. Senzuranın ləğvi və bu qəbildən olan digər tədbirlər müstəqil mətbuatın yeni mərhələdə inkişafını təmin etdi. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğvi ilə Azərbaycanda kütləvi informasiya vasitələrinin təsis olunması daha da asanlaşdı. Üstəlik qəzet və jurnalların mətbəələrə olan borcları ləğv edildi.

2003-cü ildən başlayaraq Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələr üzrə inkişafı milli mətbuatımız üçün də yeni bir inkişaf mərhələsi yaratdı. Dövlət başçısının 2008-ci il 31 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında KİV-in inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi", 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlardan sayılır.

Mətbuat Şurasının yeni binasının açılış mərasimində Prezident İlham Əliyevin jurnalistlər qarşısındakı çıxışı bir daha təsdiq etdi ki, azad mətbuatın inkişafı dövlət siyasətində prioritetdir. Ölkə rəhbərinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 2010-cu il 22 iyul tarixli sərəncamı isə jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı dövlət siyasətini bir daha ortaya qoydu.

Azərbaycan milli mətbuatının yaranmasının 130, 135, 140 və 145 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə mətbuat işçilərinin təltif olunması, onlara fəxri adların verilməsi, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi dövlət başçısının bütövlükdə milli mətbuatımıza diqqət və dəstəyinin göstəricisidir.

Ölkəmizdə kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışının əlavə dəyər vergisindən (ƏDV) azad edilməsi də bu inkişaf tarixinin davamı kimi böyük ictimai fayda verəcək, ümumən cəmiyyətimizin mənəvi tərəqqsinə xidmət göstərəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ədalətli oyunlar sahəsində fərqlənən şəxslərə mükafatlar təqdim edilib





Mayın 17-də Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Ədalətli Oyunlar Komissiyası 2021-ci ilin yekunlarına əsasən, ədalətli oyunlar sahəsində fərqlənənlərə və "Ədalətli oyun ruhu" mövzusunda fotomüsabiqənin qaliblərinə mükafatlar təqdim edib.



AZƏRTAC xəbər verir ki, MOK-un inzibati binasında keçirilən tədbirə qurumun vitse-prezidentləri Çingiz Hüseynzadə, Zemfira Meftaxetdinova, baş katibi Azər Əliyev, sabiq baş katib Ağacan Abiyev, Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev və müxtəlif idman federasiyalarının nümayəndələri qatılıblar.

MOK-un vitse-prezidenti Ç.Hüseynzadə son iki ildə pandemiya ilə əlaqədar çətinliklərlə üzləşdiklərini vurğulayaraq deyib: "Bu mükafatlandırmanı hər il keçirirdik. Bu, bizim üçün əlamətdar gündür. 2021-ci ildə bunu gerçəkləşdirə bilmədik. Ötən il MOK-da hesabat-seçki konfransı oldu. Seçkilər zamanı komitənin rəhbər heyətinə yeni şəxslər seçildi. Həmin tədbirdə qərara gəldik ki, sabiq vitse-prezident Xəzər İsayev və sabiq baş katib Ağacan Abiyev komissiyada qalsınlar".

Ədalətli Oyunlar Komissiyasının sədri X.İsayev ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, komissiyanın həyata keçirdiyi tədbirlər barədə məlumat verib. O, fotomüsabiqəyə 170-dən artıq fotonun göndərildiyini diqqətə çatdırıb.

Sonra qaliblərə mükafatların təqdimatı mərasimi keçirilib. Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi nominasiyasında mükafat MOK-un baş katibi Azər Əliyevə təqdim olunub. Ədalətli oyun prinsiplərinə sadiq hakim nominasiyasında Asif Şirəliyev (güləş), ədalətli oyun prinsiplərinə sadiq məşqçi nominasiyasında isə Radiq Hüseynov (güləş) fərqləniblər. Ədalətli oyun prinsiplərinə sadiq idmançı mükafatı karateçi Rafael Ağayevə verilib.

"İdman TV" və "Olimpiyası dünyası" qəzeti də mükafata layiq görülüb. Daha sonra "Ədalətli oyun ruhu" mövzusunda fotomüsabiqənin qaliblərinə mükafatlar təqdim edilib. Belə ki, Zaur Mustafayev ("Trend" informasiya agentliyi) birinci, Azər Əlizadə ("Olimpiya dünyası" qəzeti) ikinci, Dilavər Nəcəfov (Gənclər və İdman Nazirliyi) isə üçüncü olublar. Sonda xatirə şəkli çəkdirilib.

# Fransa portalında Azərbaycanın hərtərəfli inkişafı ilə bağlı məqalə dərc olunub

"Multikultural, tolerant, polietnik və çoxkonfessiyalı, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycan, konstitusiyasına əsasən dünyəvi ölkədir və bütün milli azlıqların mənəvi rifahını bərabər şəkildə təmin edir".




AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Musulmansenfrance" portalında Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin (CNRS) islamşünas alimi, Paris Tədqiqatlar Ali Məktəbinin doktoru, bir çox beynəlxalq tədqiqat qrupunun üzvü Karim İfrakın "Azərbaycan: Siyasi sabitlik iqtisadi tərəqqinin təməli olanda" adlı məqaləsində yer alıb.

Məqalədə qeyd edilib ki, Sovet İttifaqının süqutundan sonra müstəqilliyini bərpa edən Azərbaycan ərazisinin 20 faizinin işğalı ilə üzləşib. Bununla bağlı olaraq 1993-cü ildə BMT Təhlükəsizlik Şurası bütün işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib.

Bildirilib ki, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan torpaqlarını işğaldan azad edib.

Məqalədə Azərbaycanın hərtərəfli inkişafında Prezident İlham Əliyevin töhfələri vurğulanıb. Ölkənin iqtisadi inkişafından, beynəlxalq arenada layiqli yerini tutmasından bəhs olunub.

Qeyd edilib ki, Sovet İttifaqı dağıldıqdan sonra iqtisadi göstəricilərinə görə Azərbaycan bir çox müşahidəçilər tərəfindən "Qafqazın pələngi" (Tigre du Caucase) adlandırılıb. Azərbaycanın Avropa və Asiya qitələrini birləşdirən yol infrastrukturundan və ölkəmizin iqtisadiyyatının uğurla şaxələndirilməsindən yazılıb. Bugünkü Azərbaycanın digər ölkələrə sərmayə yatırmasından bəhs olunub. Beynəlxalq şirkətlərin, o cümlədən 177 alman şirkətinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi diqqətə çatdırılıb. Xarici investisiyaların cəlb edilməsi üçün ölkədə münbit şərait yaradıldığı qeyd edilib.

# Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

Mayın 17-si axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd və Aşağı Şorca yaşayış məntəqələrində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yellicə və Barmaqbinə məntəqələri istiqamətlərində yerləşən ordumuzun mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb.

# Rəy sorğusunda iştirak edən Avropa şirkətlərinin 54 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiyalar yatırmağa hazırdır

Rəy sorğusunda iştirak edən Avropa şirkətlərinin 54 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiyalar yatırmağa hazırdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə hazırlanmış "Azərbaycanda Biznes Mühiti-2021" hesabatında bildirilir.

Hesabatda qeyd edilib ki, rəy sorğusunda iştirak edən investorlar tərəfindən Azərbaycanda siyasi və sosial sabitlik ən çox qiymətləndirilən amil olaraq qalır. Belə ki, sorğuda iştirak edən



Avropa şirkətlərinin 14 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında artıq investisiya layihələri istiqamətində işə başlayıb.

# Avropa şirkətlərinin 80 faizi öz biznes əməliyyatları üçün yenidən Azərbaycanı seçməyə hazırdır

Avropa şirkətlərinin 80 faizi öz biznes əməliyyatları üçün yenidən Azərbaycanı seçməyə hazırdır, respondentlərin 53 faizi isə burada gələcək genişlənmə planlarına malikdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə hazırlanmış "Azərbaycanda Biznes Mühiti-2021" hesabatında bildirilir.

Hesabatda qeyd edilib ki, "Aİ Biznes Mühiti Hesabatı Azərbaycan 2021" özündə 20 Aİ üzv dövləti, 2 EFTA üzv ölkəsi, Böyük Britaniya və Azərbaycan daxil olmaqla ümumilikdə 24 ölkənin nümayəndələrinin fikirlərini əks etdirir. Sorğuda iştirak edən şirkətlərin 90 faizi KOB-lardır və müəssisələrin əksəriyyəti Azərbaycanda Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) (58 faiz) və ya nümayəndəlik ofisləri (31 faiz) və 5 ildən çoxdur ölkədə mövcud olan şirkətlər (77 faiz) kimi fəaliyyət göstərirlər.

## 18 May Beynəlxalq Muzeylər Günüdür






# Tarixin və mədəniyyətin XINALIQ zirvəsi

## Bizi dağlarda axtarın...

**"Uşaqlığım bu dağların, qayaların üstündə keçib... Bəzən düşünürəm ki, buranın hər qarışını, cığırını, dolanbaclarını, keçidlərini gözüyumulu təsvir edə bilərəm...**
**Özümü tanıyandan bu dağlarda, dərələrdə, çəmənlərdə qaçıb oynadım, onların qoynunda böyüdüm, yetkinləşdim, qocaldım...**
**İndi də hər fürsətdə təbiətə qayıdıb, hüzuru, mənəvi rahatlığı gəzirəm. Ahıl yaşıma qədər evimdə topladığım qiymətli daşlara, qədim sikkələrə, kəndin tarixini gözümdə canlandıran digər dəyərli nümunələrə baxdıqca, sanki ötən əsrlərə səyahət edirəm..."**

Hacıbala Bədəlov hər daşı bir tarix olan Qubanın Xınalıq kəndinin ağsaqqal sakinlərindən biridir. Ulu babaları da bu kənddə yaşayıb. Elə onların irsini, yurdunun tarixini yaşatmaq üçün topladığı qədim eksponatlarla "muzey içərisində muzey" yaradıb. Xınalığa səfər edən istənilən şəxs bu muzeylə tanış ola bilər...

Beynəlxalq Muzeylər Günü ərəfəsində Xınalığa səfərimiz zamanı biz də həm canlı muzeyi xatırladan bu kəndin həyatı, həm də Hacıbala kişinin yaratdığı muzeydən əlavə iki digər muzeylə ətraflı tanış olduq.

### Dəniz səviyyəsindən 2300 metr yüksəklikdə olan qədim oba

Nadir, qiymətli əşyalar var ki, onların hansısa muzey rəflərində kütləyə nümayiş etdirilməsi mütləqdir. Çünki insanlar tarixin qədimiliyini yalnız həmin dövrdən qalan nümunələrə baxarkən anlaya bilirlər. Fəqət bəzən də olur ki, bir məkan özü başdan-ayağa muzey kimi, açıq səma altında, içi dolu xəzinə formasında yadigar qalır. Qubanın Xınalıq kəndi kimi…

Dəniz səviyyəsindən 2300 metr yüksəklikdəyik. Muzeylər günündə məhz bu kəndi seçməyimiz də əbəs yerə olmadı. Xınalıq hər daşında tarix yaşayan, hər qarışında mədəniyyət aşılayan xalis muzeylərdəndir. Buranın eksponatları isə ta Qəçrəşdən sıralanmağa başlayır....

Təbiətin oyanan vaxtında Xınalığa səfərin ayrı yeri var. Yol boyu yaşıl rəngin müxtəlif çalarları ilə rastlaşırsan. Böyük Qafqazın nəhəng dağlarının arası ilə üzüyuxarı qalxdıqca, ecazkar mənzərənin rəngarəngliyi daha da çoxalır. Tam zirvəyə qalxıb əzəmətli mənzərəyə tamaşa etdikcə insanın sanki könlü açılır.

Kəndin girişində bizi qarşılayan "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun direktoru Həsən Ağayev öncə Xınalığın tarixindən söhbət açır. Onun sözlərinə görə, bu kənd elə qədimiliyə malikdir ki, arxeoloji qazıntılarda tapılan hər əşyada tarix bir dövr daha geriyə adlayır. Son araşdırmalara əsasən, ilkin məskunlaşmanın Tunc dövründən, eramızdan əvvəl IV minillikdən başlandığı sübuta yetirilib. Kənddəki arxeoloji qazıntılara 2012-ci ildən başlanılıb. Hazırda bu yöndə aparılan işlərə arxeoloq İdris Əliyev rəhbərlik edir.

Xınalığın adı Qafqaz Albaniyası dövründə Kətiş kimi qeyd edilir. Özlərini Nuh peyğəmbərin nəslindən sayan, "kətdid" adlandıranların 26 alban tayfasından biri olduğu vurğulanır. Xınalıq adına ilk dəfə yazılı mənbələrdə XV əsrdə Mahmud Əl Xinaluqinin "Şirvan və Dağıstan hadisələri" adlı əlyazmasında rast gəlinir. O, özünə Xınalıqlı təxəllüsünü götürmüşdü. Lakin bu yerin adının əsas qaynağı məlum deyil. Bəzi tarixçilərin fikrincə, Xınalığın yaranması Albaniya şəhəri olan Xena ilə əlaqəlidir. Sonrakı dövrlərdə də müxtəlif mənbələrdə kəndlə bağlı faktlar öz əksini tapıb.

Xınalıq zəngin xəzinəyə bənzəyir. Hər daşından tarix tapılır. Maraqlısı odur ki, sovet dövründə kənd "heç bir arxeoloji əhəmiyyətə malik deyil" damğası ilə sənədlərdə möhürlənib kənara atılıb. Hazırda aşkarlanan çeşid-çeşid dünya əhəmiyyətli tapıntılar qoruğun fondunda saxlanılır. Müxtəlif qəbirlərdən və yaşayış yerlərindən əldə edilən əşyaların bir qismi 2017-ci ildən elə kəndin girəcəyindəki Arxeoloji Muzeydə sərgilənir. Həsən Ağayev bildirir ki, eramızdan əvvəl III minilliyə aid tunc bilərziklər, sırğalar, balıqqulağı, domino tipli muncuqlar, sümükdən hazırlanmış deşici alətlər, bizlər qədim yaşayış məskəni olan Zanqardan tapılıb.

Muzeyin divarları kənd camaatının toxuyub hədiyyə etdiyi xalçalarla bəzədilib. Xüsusi ahəng qatan xalçalar buranı daha doğma bir məkana çevirir. Qədim qəbiristanlıq, kurqanlardan tapılan əşyalardan savayı digər rəfləri Orta əsrlərə aid xınalıqlıların məişət və təsərrüfatda istifadə etdikləri alətlər tutur. Direktor söyləyir ki, biçində kəndlilərin ən əvəzolunmaz vasitəsi vəl olub. Xırmanda sünbülü dəndən ayırmaq üçün nəzərdə tutulan bu alət heyvan qoşularaq hərəkətə gətirilirdi. Digər cərgələrdə sıralanan qayçı, bıçaq, oraqlar, məişət üçün nəzərdə tutulan digər qablar isə sanki insanı həmin dövrlərə qaytarırdı.

Muzeydə qovluqlara yığılan köhnəlmiş vərəqlər də diqqətimizi çəkir. Həsən Ağayev bildirir ki, bu əlyazmalar müxtəlif yerlərdən, xüsusilə məscidlərdən tapılmış məktublar, qeydlərdir. Onların əksəriyyəti cırılıb, xırdalanmış formadadır. Bir çoxlarının hissələri tapılıb birləşdirilərək oxunacaq hala gətirilib.

Hissələri bərpa etdirilən əlyazmaların surəti çap edilərək elektron variantları hazırlanır.

### Pilləvari evlərlə qorunan qədim mədəniyyət, kətiş əlifbası

Eramızdan əvvəldən Orta əsrlərə qədər olan dövrü bu muzeydə tamamlayıb XXI əsrin Xınalığına qayıdırıq. Daşlı-kəsəkli yollarla küçələri gəzirik.





Arxeoloji Muzey

Bələdçimiz İzzət Bağırov söyləyir ki, Xınalıqdakı tarixi evlər çay daşından hörülmüş xüsusi memarlıq quruluşundadır. Pilləli formada bir-birinin üst cərgəsində salınan evlərin damı da köhnə üslubuna yenidən qaytarılır. Buradakı tikililərin 200-dən 400-ə qədər yaşı var. Həmçinin əldə edilən tarixi şəkillərdən görünür ki, əksər evlər aynabəndli olub. Kəndin qoruq hissəsinin yenidən tarixi görünüşünə qaytarılması üçün evlərin bərpası prosesləri həyata keçirilir. Bu il daha 19 evin öz əzəli formasına qaytarılması planlaşdırılıb. Təxmin edilir ki, 7-8 ilə bütövlükdə qədim görünüşü görmək mümkün olacaq.

Xınalıq kəndi iki hissədən ibarətdir. Qoruğa daxil olan qədimi ərazidə evlər yalnız xüsusi standartlarla tikilə və təmir oluna bilər. Qoruqdan aşağıda, kəndin ətəyində isə yeni yaşayış massivi salınıb. Burada yeni üslublu evlərin sakinləri yaşamlarını davam etdirirlər. Ümumilikdə 260 evdən 159-u qoruğun ərazisində yerləşir. 2100 nəfər xınalıqlı sakin isə bu bənzərsiz kəndin inciləridir.

Tinlərdən birini dönəndə əsrlərin yadigarı olan ətirli təndir çörəyinin iyinə qərq oluruq. Xınalıqda bişən dadlı təndir çörəyindən bir parça qoparıb xəmirləri təndirə yapan xanıma təşəkkür edərək yolumuza davam edirik. İrəliləyən yolla döngələrdən burulub kəndin ikinci bir muzeyinə - Tarix-Etnoqrafiya Muzeyinə gəlib çatırıq. Hər qarışı tarix olan kənddə iki muzeyin olması heç də təəccüblü deyil.

Tarix-Etnoqrafiya Muzeyi 2001-ci ildən fəaliyyətdədir. Burada çeşidli eksponatlar əsl milli-etnik kimliyi üzə çıxarır. Muzey Xəlilrəhman Cabbarovun təşəbbüsü və yerli əhalinin köməyi ilə yaradılıb. Hər bir ocaqdan toplanan maddi nümunələr, maraqlı əsərlər saçdığı işıqlarla diqqəti üzərinə çəkir. Buradakı yerli sakinlərə məxsus müxtəlif gil, mis qablar, daş ütülər, silahlar, qılınclar, nizələr zəngin mədəniyyətin göstəriciləridir. Digər vitrinlərdə isə XV əsrdən XX əsrin əvvəllərinə qədər tarixiləşən Osmanlı türkcəsində, farsca, ərəbcə əlyazmalar toplusu sərgilənir. Sovet dövrü istilası zamanı bu kitablar gizlədilib, sonralar evlərin damlarından, qəbirlərdən ortaya çıxarılıb. Tapılan kitablardan da aydın olur ki, kəndin keçmişi elmlə sıx bağlı olub.

Muzeyi gəzdikcə divardan asılan kətiş əlifbası nəzərə çarpır. Xınalıq dilində danışan xalqın öz əlifbaları da var. İzzət Bağırov qeyd edir ki, bu əlifbanın hazırlanmasında Frankfurt şəhərində yerləşən Höte Universitetinin elmi işçisi Monika Rind Pavlovskinin əvəzsiz xidmətləri olub. O, uzun müddət Xınalıqda yaşayaraq dili öyrənib və bütün səslərin əhatə olunduğu 49 hərfdən ibarət əlifbanı təkmilləşdirib. Hazırda bu əlifba ibtidai sinif proqramına daxil edilib və bu dildə dərslik də mövcuddur.





Tarix-Etnoqrafiya Muzeyi

Muzeydəki hər eksponata diqqətlə baxıb yaddaşımıza həkk etdikdən sonra buradan ayrılıb yenidən səfalı təbiətə qayıdırıq.

Xınalıqda yaz gec gəlir, yay isə tez bitir. Artıq hiss olunurdu ki, günortadan azca keçsə də, hava soyumağa başlamışdı. Axşama doğru isə bahar sərinliyindən daha çox payız soyuğu hiss olunacaqdı. Bəlkə də elə bu soyuq qarşıdakı başıqarlı dağlardan üzü sarı gəlirdi.

### Tarix boyu bir çox dinlərə etiqad edən xalq

Xınalıqlılar müsəlman olaraq dinə çox yaxındırlar. Bunu buradakı dini məbədlərin çoxluğu da sübut edir. Əvvəllər burada Ay məbədlərinin olmasını isə qazıntılar zamanı tapılan abidələrə məxsus simvollar aşkara çıxarıb. Həmin simvollardan biri də elə fondda sərgilənir. Ümumilikdə kənddə pirlərin, türbələrin, məscidlərin sayı çoxdur. Onlardan birinə - kəndin ən hündür yerində yerləşən Abu Müslüm Cümə məscidinə də baş çəkirik.

Məscidin tarixi IX-X əsrlərə aid edilir. Dini məbədin girişinin çöl hissəsindəki divarda Zərdüştlüyə dair simvollar var. Runik əlifbasına xas yazı nümunələrindən iki parça elə məscidin əsas sütunlarını təşkil edən daşların arasında saxlanılıb. Bu dini ibadətgah sovet dövründə anbara çevrilib, sonrakı vaxtlarda kəskin hava şəraiti ucbatından qəzalı vəziyyətə düşüb. Ancaq 2012-2014-cü illər ərzində əsaslı bərpadan sonra öz əvvəlki görünüşünə qaytarılıb. Hazırda cümə günləri məsciddə kütləvi namazlar qılınır, ibadətlər edilir.

Həqiqətən də bura kəndin ən yüksək zirvəsi idi. Nəzərləri çevirib ayaqlar altında qalan evlərə, Xınalığa baxdıqda insan heyrətləndirici mənzərəni səmadan seyr edirmiş kimi hisslərə qərq olursan.

Kənddə indi nisbətən evlərin sayı azalsa da, əvvəllər yaşayış yerləri bir-birinə o qədər sıx yerləşib ki, damların üzərindən adlayıb ən yüksək təpədən kəndin yamaclarına enmək olurmuş. Sovet dövründə Xınalığa dağların arasından yol çəkilsə də, tez-tez qayalardan düşən daşlar yolu yararsız hala salıb. Yolsuzluq, şəraitsizlik isə kənddən insanların sürətlə köç etməsinə səbəb olub. 2006-cı ildən salınan yeni asfalt yol xınalıqlıları yurdlarına yenidən qaytarıb. Qışı sərt keçən kəndin rayon mərkəzi ilə əlaqələri 4 fəsil təmin edilir. Bununla da qarın metrlərlə yağdığı bu kənddə bütün işlər daim fasiləsiz öz axarı ilə davam edir.

Bu zirvədə olarkən qarlı dağlarda süzən nəsli kəsilməkdə olan kərkəsləri görmək də nəsibimiz oldu. İzzət Bağırov qeyd etdi ki, statistikalara əsasən, Azərbaycanda bu quş növündən cəmi 86 ədəd qalıb. Hazırda onların əksəriyyəti şimal zonalarına üz tutub. Kərkəslər Böyük Qafqazın sıldırım qayalarında yuva quraraq özlərinə məskən salıb. Nadir kəndə köç edən də məhz elə nadir quşlar ola bilər.

### Qoçaq xalqın qədimlərdən bəri dəyişməyən işgüzarlığı

Xınaqlıqda 30 faiz oskigen çatışmazlığı olduğundan sakinlərə verilən məvaciblərin miqdarı da 30 faiz çoxdur. Dağlar qoynunda yaşayan əhalinin əsas məşğuliyyəti maldarlıq, qoyunçuluq, kənd təsərrüfatıdır.

Bir çox tövlələr isə elə evlərin altında yerləşir. Bunun isə səbəbi şaxtalı keçən qışın çovğunundan qorunmaq üçün olub. Keçmiş vaxtlarda insanlar günlərlə evlərindən çıxa bilmədikləri zaman mal-qaranı yemləməkdə çətinlik çəkiblər. Birbaşa tövləyə enmək üçün əsas çıxış yolu olan belə üslublu tikililər onların işlərini asanlaşdırıb.

Bu evlərin birində də Xasməmmədovlar ailəsi yaşayır. Ocaqlarının qapılarını üzümüzə kəndin mahir ovçularından olan Kəbir kişi açdı. Böyük məmnunluqla bizi içəri dəvət edib əsl kənd süfrəsi açdı.

Ovçuluqdan əlavə Kəbir kişinin ən sevimli fəaliyyətlərindən biri də dağ zirvələrinə yürüşlər olub. Deyilənlər qonaq otağının divarından asılan sertifikatlardan da bəlli idi. Ovçu söyləyir ki, əvvəlki qohum-qonşu mehribanlığının dadı damağında qalıb: "Yadıma gəlir, uşaq olanda hər həftənin 5-ci günü yığılıb bir evdə gecəyarısına qədər söhbətlər edər, müxtəlif işlərlə birlikdə məşğul olardıq. Qadınlar paltar, xalça toxuyar, yun təmizləyər, kişilərsə tədarük üçün lazımi işləri görərdilər. Ancaq indi bu səmimiyyəti toyda, bayramda tapmaq olur".

Kəndin qoçaq xanımları da təsərrüfatla kişilərlə birgə ta əzəldən məşğul olublar. Şəkər xanım Kəbir kişinin ömür-gün yoldaşıdır. Deyir ki, övladlarından birini rayona köçürüb. Digər 3 övladı ilə birlikdə Xınalıqda xoş ömür sürürlər. Şəkər xanım həm də kəndin məktəbində çalışaraq bir neçə işi eyni anda görməyə qadir zəhmətkeş analardandır.

Xasməmmədovlar ailəsi ilə xeyli söhbətləşdikdən sonra yolumuzu evində muzey yaradan Hacıbala Bədəlovun mənzilindən salırıq.

Hacıbala kişi kəndin əsilli ailələrindəndir. Deyir ki, babaları Xınalıq bəylərindən olublar. Lakin onlar da 1936-1938-ci illərdə "qolçomaq" damğası ilə sovet rejiminin qurbanlarına çevriliblər. Var-dövlətləri əllərindən alınaraq müxtəlif yerlərə sürgün ediliblər. Hacıbala Bədəlovun atası bəraət aldıqdan sonra kəndə qayıdaraq yenidən özünə həyat qurub.

Hacıbala kişinin şəxsi mülkündəki nadir qiymətli əşyalardan olan pullar, daşlaşmış balıq, meduza, pirit daşı və s. qızıl dəyərində olan maddi tarix nümunələridir. Digər küncdə olan müxtəlif formalı papaqlar isə öz əlinin əməyidir: "Sovet hakimiyyəti dağılandan sonra güzəranımız çox acınacaqlı idi. Bircə quru çörəyə möhtac qalmamaq üçün papaqlar, gödəkçələr tikib satmağa başlamışdım. Beləliklə də, tək-başıma öyrəndiyim sənətin qısa zamanda ustasına çevrildim".

Kolleksiyanın bir qismini də bıçaqlar, xəncərlər, silah və tüfənglər təşkil edir. Ağsaqqal vurğulayır ki, sovet istilası dönəmində hər kəsin silah-sursatları müsadirə edilirdi. Kənd sakinləri öz müdafiə vasitələrini əldən verməmək üçün tüfənglərini, qılınclarını evlərinin divarlarına hörürdülər. Məhz Hacıbala Bədəlovun topladığı alətlər də Xınalıqdakı evlərdən aşkarlanan tapıntılardır.





Hacıbala Bədəlovun şəxsi muzeyi

Ev muzeyinin ən nadir eksponatı 1920-ci ilə aid xalçadır. Xalının üzərindəki aypara simvolunun içərisində Xınalıq yazısı, mərkəzində isə Azərbaycanın 3 rəngli bayrağı həkk edilib. Repressiyalar zamanı əldən-ələ keçən xalça cırılıb. Təsadüfi şəkildə bu xalını tapan Hacıbala kişi isə xanımı ilə birlikdə onu yenidən əsl görkəminə qovuşdurublar.

Bədəlovlar ailəsi Xınalığa gələn turistləri evlərində qonaq etməkdən də böyük zövq alırlar. Hətta ayrıca gecələmək üçün ziyarətçilərə otaq da ayırıblar. Hacıbala kişinin bir xatirə dəftəri də var. Onları ziyarətə gələn hər bir şəxs bu dəftərə öz ürək sözlərini yazır. Elə biz də xınalıqlıların həmin günkü qonağı olaraq könlümüzdən keçənləri sətirlərə düzüb xudahafizləşdik.

### Zəhmətsevər əhali, fədakar müəllimlər, məktəbdə qalan uşaqlar

Kəndin yuxarısından aşağıya uzanan cığır Xınalığın yeni yaşayış massivinə çıxır. Burada yeni tikililərdən əlavə məktəb də yerləşir. Ucqar dağ kəndində belə bir məktəbin olması xüsusilə yaşayış səviyyəsini nisbətən yüksəldir.

İnternat tipli təhsil ocağının direktoru Yunis Dəmirov bildirir ki, hazırda məktəbdə 248 nəfər şagirddən ibarət 14 sinif var. Şagirdlərdən 30 nəfəri dərs ili müddətində məktəbdə qalır. Məktəbdə qalan şagirdlər qonşu kəndlərdən və ya ailələri köçəri maldarlıqla məşğul olanlardır.

Məktəbin həyətinə daxil olanda tənəffüs idi. Uşaqlar da dərsarası fasilədən istifadə edərək həyətdə oynayırdılar. Çöhrələrindəki xoşbəxtlik heç bir füsunkarlığın əvəzini onlara yaşada bilməzdi. Məktəbin 2007-ci ildən yeni formada tikilərək şagirdlərə təqdim edilməsi onların dərsə olan marağını artırıb. Direktor vurğulayır ki, əvvəllər müşahidə edilən xoşagəlməz hallar indi yaşanmır: "Əvvəllər kənddə qızlarını məktəbə göndərən ailələr yox dərəcəsində idi. Hazırda məzunlarımızdan savayı 7-8 qız yetirməyimiz ölkənin öndəgedən universitetlərində təhsil alırlar. Hətta xaricdə təhsillərini davam etdirən xınalıqlı gənclərimiz də var".

Bir çox şagirdin həyatında önəmli rol oynayan müəllimlərdən biri Səxavət Sultanovla həmsöhbət oluruq. İngilis dili fənnindən dərs deyən müəllim qeyd edir ki, kənddə salınan yeni yol və müasir standartlarla inşa edilən məktəb təhsildə böyük dönüşə səbəb olub: "Yolun olmaması əhalini kənddən uzaq salır, şəraitsiz məktəb isə şagirdləri təhsildən yanındırırdı. Hətta əvvəlki vaxtlarda magistratura təhsili alan şagirdlərə, ümumiyyətlə, rast gəlinmirdi. İndi isə ali təhsillərini başa vuran məzunlarımızın soraqları yüksək yerlərdən gəlir".

Səxavət Sultanov deyir ki, kənddə "repetitor" hazırlığına rast gəlinmədiyindən müəllimlər universitetə hazırlaşan abituriyentlərlə heç bir mənfəət gözləmədən əlavə məşğul olurlar. Məktəbdə dərs deyən müəllimlər kəndin sakinləri olmaqla yanaşı, digər bölgələrdən ezam olunanlar da var. Hətta öyrənirik ki, Xınalığa ezamiyyə olan cavan xanım müəllimlərdən biri də elə xınalıqlı bir bəylə ailə həyatı qurub.

Məktəbin müəllim heyətini narahat edən əsas məqam Xınalıq dilinin aqibətidir. Bu məskən öz dili olan yeganə kəndlərdəndir. Xınalıq dilinin bənzərinə heç yerdə rast gəlmək mümkün deyil. Hətta dünya dillərində olan bütün səslər bu dildə ehtiva olunub. Dilin məhvi isə eyni zamanda bir etnik qrupun məhvi ilə nəticələnə bilər. Buna görə də, bu istiqamətdə əsaslı ardıcıl araşdırmalar aparılmalı, əbədiliyini qorumaq üçün müvafiq tədbirlər görülməlidir.

*Qədim kəndin ətəyində durub son dəfə əsrarəngizliyə tamaşa edib, təmiz dağ havasını ciyərlərimizə çəkərək Xınalıqdan ayrılırıq. Böyük Qafqaz dağlarının suyu da, havası da, mənzərəsi də bir başqadır. Bir görən, bir də o gözəlliklərin ağuşundan qayıtmaq istəmir...*

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

*Bakı-Xınalıq-Bakı*

# REGİONLAR



## Tərtərlilər aqrar sektorda ötənilki göstəricilərini üstələmək əzmindədirlər

**Tərtərdə də qeyri-neft sektorunun əsas sahəsi olan kənd təsərrüfatının inkişafı üçün ardıcıl tədbirlər görülür. Bu hesaba kənd təsərrüfatının həm əkinçilik, həm də heyvandarlıq sahələrində yüksək göstəricilər əldə olunur.**

Ötən il rayonda 13 min 553 kiloqram barama istehsal edilib. Cari il isə 14 min kiloqram barama istehsalı nəzərdə tutulur. Bu məqsədlə Qax Damazlıq İpəkçilik Stansiyasından gətirilən 330 qutu barama qurdu kümçülərə təhvil verilib. Onu da qeyd edək ki, ipəkqurdunun yemlənməsi üçün rayon ərazisində 263 mindən artıq tut tingi əkilib.

Qazyan kəndinin kümçüləri keçən il dövlətə 400 kiloqram barama təhvil veriblər. Bu il isə onlar 500 kiloqram barama təhvil verməyi hədəfləyiblər.

Azad Qaraqoyunlu kəndinin əkinçiləri isə bu günlər daha çox pambıq tarlalarında becərmə işləri ilə məşğul olurlar. Onlar sahələrə aqrotexniki qaydada qulluq göstərilməsi hesabına bu il məhsuldarlığı artırmaq istəyirlər.

Xatırladaq ki, ötən il Tərtər pambıqçıları 3440 hektardan 10701 ton pambıq istehsal etmiş, hər hektardan 31,1 sentner məhsul toplayaraq ölkə üzrə məhsuldarlığa görə yüksək nəticə göstərən rayonlar sırasında olmuşlar. Bu il isə 3450,7 hektar sahədə məhsul yetişdirmək üçün müqavilə bağlanmışdır. İndiyəcən 3388,2 hektara çiyid səpilmişdir. Qalan sahələrdə isə səpin davam etdirilir.

***L.QULİYEV,***
***"Azərbaycan"***

## "Peşələr festivalı"na Şamaxı rayonundan start verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən Şamaxıda ölkəmizdə ilk dəfə olaraq "Peşələr festivalı"na start verilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev parkında açıq havada "Öyrən, əylən, peşəni seç" devizi ilə keçirilən festivalda iştirakçılara peşələr üzrə inkişaf yolunu tapmaqda dəstək göstəriləcək. Onlar gələcəkdə əmək bazarının necə formalaşacağı və peşələr üzrə hansı bacarıqların tələb olunacağını öyrənmiş olacaqlar.

Layihə çərçivəsində aşpaz, dərzi, bərbər-vizajist, frontend developer, qrafik dizayner, interyer dizayner, kompüter proqram təminatı, barista, turizm agenti, elektron cihazların təmiri peşələri üzrə peşəkar ekspertlər tərəfindən təqdimat və vörkşoplar keçirilib.

Festivalda iştirakçılar düzgün peşə seçimi, işçi qüvvəsinə olan tələblər, gələcəyin peşə və bacarıqları barədə məlumatlandırılır.

"Peşələr festivalı"nın 10 şəhərdə keçirilməsi nəzərdə tutulub. Növbəti festival mayın 17-də Sumqayıt şəhərində təşkil olunacaq.

## Qusara bahar gec gəlsə də...

### Əkinçilər yaz-tarla işlərini gecikdirmirlər



**Qusar rayonunda da bu günlər sahələrdə qızğın iş gedir. Şimal bölgəsinə fəsillər bir qədər gec gəlsə də, əkinçi üçün fərqi yoxdur, bahar bahardır, yəni səpin vaxtıdır.**

Bu il Qusarda 23010 hektar ərazidə taxıl toxumu səpilib. Bunun 15120 hektarı buğda, 7890 hektarı arpadır. İlin əvvəlindən bəri sahələrdə aqrotexniki tədbirlər həyata keçirilir. Məsələn, 3632,25 hektara su, 3249 hektara isə siçanabənzər gəmiricilərə qarşı mübarizə məqsədilə xüsusi maye verilib (Qusarda torpaqlar dağlıq ərazilərdə olduğundan burada çoxlu zərərvericilər olur və bu səbəbdən onlarla mübarizə aparılması vacib şərtlərdəndir). Bundan əlavə, buğda və arpa sahələrinə yemləmə gübrəsi, alaq otlarına qarşı mübarizə məqsədilə xüsusi maye ilə birinci vegetasiya suvarılması aparılıb. Ardınca 1072 hektar ümumi əkin sahəsindən 1862 torpaq nümunəsi götürülüb.

Rayonda həmçinin mütəxəssislərlə fermerlər arasında vaxtaşırı görüşlər keçirilir. Bir neçə gün əvvəl Mucuqpalasa adlanan ərazidə Kənd Təsərrüfatı Nazirliyinin bir qrup əməkdaşı ilə açıq sahədə fermerlərin müşavirəsi baş tutub. Müşavirənin keçirilməsində əsas məqsəd sahibkarlara payızlıq taxıl əkinlərinə kökdən kənar yemləmə gübrələrinin verilməsini əyani şəkildə göstərmək və bunun gələcəkdə məhsuldarlığın artmasına təsirini izah etmək idi. Nazirliyin mütəxəssisləri həm yemləmə, həm də alaq otlarına qarşı kompleks mübarizə tədbirlərini əyani şəkildə nümayiş etdiriblər. Sonra onlar sahələrdə normal alınan çıxışlarla zəif olan ərazilərin müqayisəsini aparıblar. Səbəb kimi səpinin gec aparılmasını qeyd ediblər.

Bundan əlavə, əvvəlki illərdə yaranmış problemlərin qarşısını vaxtında almaq üçün rayon mütəxəssislərindən ibarət xüsusi qrup yaradılıb. Onlar hər gün sahələri gəzərək fermerlərə kömək edirlər. Bu, fermerlər tərəfindən razılıqla qarşılanır.

Fermerlər arasında karbomid gübrəsinin səpin qaydaları və normaları ilə əlaqədar maarifləndirmə işləri də aparılıb. İzah edilib ki, gübrədən normal qaydada istifadə olunan sahələrdə həmişə yüksək məhsuldarlıq olur. Karbomidin digər gübrələrdən fərqi bitknin onun tərkibindəki elementləri uzun müddət mənimsəməsidir. Bu həm də bitkinin yaşılqalma müddətini artırır, dəni yaxşı doldurur və sünbülü normal inkişaf etdirir.

Sahələrin suvarılması da davam edir. Bu zaman sudan qənaətlə və səmərəli istifadə olunur. Növbəlilik əsasında aparılan bu işdə fermerlər arasında razılaşma var. Rayonun mütəxəssisləri öncədən sahələri gəzir, suya ehtiyacı olan ərazilər müəyyənləşdirilir və bu əsasda qrafik tutulur.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Türkiyənin Atatürk Universitetinin nümayəndə heyəti ADAU-da olub





Türkiyənin Atatürk Universitetinin nümayəndə heyəti Azərbaycan Dövlət Aqrar Universitetinə (ADAU) olmuşdur.

Səfərdə Səhiyyə Elmləri İnstitutunun müdiri professor Elif Çadırcı, müdir müavini professor Abdulmecit Albayrak, Klinik Tədqiqat, İnkişaf və Dizayn Tətbiqi və Tədqiqat Mərkəzinin müdiri, professor Zekai Halıcı, Əczaçılıq fakültəsinin əməkdaşı professor Yasin Bayır iştirak etmişlər.

Baytarlıq təbabəti fakültəsində qonaqlarla keçirilən görüşdə çıxış edən ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov qarşılıqlı elmi-tədqiqat işlərinin aparılmasının vacibliyini diqqətə çatdırmış, xüsusilə balıqçılıq sahəsində birgə əməkdaşlığın əhəmiyyətindən danışmışdır.

Görüşdə Atatürk Universitetinin tanıtım çarxı nümayiş olunduqdan sonra çıxış edən professor Abdulmecit Albayrak Atatürk Universitetinin tarixi barədə ətraflı məlumat vermişdir.

Türkiyəli professor Zekai Halıcının təmsil etdiyi mərkəzdə görülən işlər və aparılan araşdırmalar barədə iştirakçılara verdiyi məlumatdan sonra professor Elif Çadırcı ADAU-nun Baytarlıq təbabəti fakültəsinin müxtəlif ixtisasdan olan tələbələri ilə görüşmüşdür. Tələbələrə Atatürk Universitetinin maddi-texniki bazası və təhsil imkanları barədə ətraflı məlumat verilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəmkirdə "KOB Fest" sərgi-satış yarmarkası təşkil olunub

**Bölgədə KOB subyektləri tərəfindən istehsal olunan məhsulların satışına dəstək olmaq, yerli məhsulların tanıdılması, eləcə də istehsalçılar və təchizatçılar arasında əlaqələrin genişləndirilməsi məqsədilə Şəmkirdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə satış-yarmarka keçirilmişdir.**

Yarmarkada Şəmkir, Tovuz, Daşkəsən, Göygöl rayonlarında fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri, sənətkarlar məhsul və xidmətlərini, əl işlərini təqdim etmişlər. Ümumilikdə yarmarkada 70-ə yaxın KOB subyekti tərəfindən 800 adda qida və qeyri-qida məhsulları, bank və sığorta xidmətləri, əl işləri, sənətkarlıq nümunələri nümayiş olunmuşdur.



"KOB Fest" çərçivəsində həmçinin sahibkarlar arasında "B2B" görüşlər keçirilmiş, biznes xidmətlər göstərilmiş, eləcə də mədəni-əyləncəli proqramlar, yaradıcı şəxslər və sənətkarlar tərəfindən master-klasslar təşkil olunmuşdur.

# Fermerin könlü olanda



## Gədəbəydə iri heyvandarlıq təsərrüfatlarının sayı artır

**Gədəbəy heyvandarlığın inkişafı üçün əlverişli şəraitə malikdir. Yaşıl örpəyə bürünmüş dağ yamacları, bol sulu çaylar bu bölgəyə gözəllik bəxş etməklə yanaşı, heyvandarlığın inkişaf etdirilməsinə də geniş imkanlar açır.**

Gədəbəy Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyevlə söhbətimiz də bu istiqamətdə oldu. Mərkəzin direktoru dedi ki, rayon əhalisi əkinçiliklə yanaşı, heyvandarlıqla da məşğul olur. Hazırda rayon üzrə 45,3 min baş qaramal, 222,5 min davar var. Ötən il 70 min 682 sentner ət, 476 min 182 sentner süd tədarük edilmişdir ki, bu da əvvəlki ildəkindən xeyli çoxdur.

Öyrəndik ki, indi rayonda çoxlu sayda heyvandarlıq təsərrüfatı var. Onlardan biri "Şahin" fermer təsərrüfatıdır. Təsərrüfata Şahlar Zeynalov rəhbərlik edir. Hər il olduğu kimi, keçən il də təsərrüfatda yüksək göstəricilərə nail olunub.

Söhbət zamanı məlum oldu ki, təsərrüfat Şahlara atası Əli kişidən qalıb. O, 20 il əvvəl dünyasını dəyişəndə təsərrüfatda cəmi 500 baş qoyun, 20 baş qaramal olmuşdur. Şahlar bu müddət ərzində gecəni gündüzə qataraq malqaranın baş sayını artırmaq üçün əlindən gələni əsirgəməmişdir. Nəticədə istəyinə nail olaraq böyük bir heyvandarlıq təsərrüfatı yaratmışdır. Hazırda onun təsərrüfatında 2 min baş qoyun, 150-dən artıq qaramal var.

Bu uğura necə nail olduğunu soruşduqda Şahlar dedi ki, insan hər şeyə qadirdir: "Təki istəyin olsun. Mən qarşıma məqsəd qoydum ki, heyvandarlığı mütləq inkişaf etdirməliyəm. Bilmədiklərimi təcrübəli heyvandarlardan öyrəndim. İndi təsərrüfatın idarə olunmasında heç bir problemim yoxdur. Əksinə, gənclər mənə tez-tez müraciət edərək təcrübəmdən bəhrələnirlər".

Təsərrüfatın 5 hektar əkin sahəsi var. Hər il həmin sahədə taxıl və bostan bitkiləri yetişdirir. Bostandan götürülən qazanc heyvandarlığın inkişafına yönəldilir. Heyvanların qış mövsümündə saxlanması üçün qışlama yeri də var.

Şahlar 4 qardaşını təsərrüfata cəlb edib. İndi onların da bu sahədə zəngin təcrübəsi var. Şahlar deyir ki, bu gün əvvəlki çətinlik yoxdur. Qardaşlarının hərəsi bir işin arxasınca gedəndə çətinlik olmur.

Rayonda Şahlar kimi uğur qazanan fermerlər çoxdur. Onlardan biri də Nofəl Qasımovdur. O, 20 ilə yaxındır ki, Slavyanka kəndi ərazisində "Şırxan" adlı fermer təsərrüfatı yaradıb. 15 hektardan çox əkinəyararlı torpaq sahəsi var. Fermer həmin sahədə qüvvəli yem üçün taxılla yanaşı, bostan bitkiləri də yetişdirir. Keçən il dəmyə şəraitində hər hektardan 35 sentner məhsul götürüb.

Nofəl qabaqcıl texnologiyalara üstünlük verir. Arzusu əkin sahələrində suvarma qurğuları quraşdırmaqdır. Deyir ki, bu üsul məhsuldarlığa müsbət təsir göstərməklə yanaşı, suya qənaət etməyə imkan verir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Beyləqanda 7 yaşayış məntəqəsini əhatə edən avtomobil yolu yenidən qurulur

**Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə uyğun olaraq, respublikanın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələrin icrası davam edir.**

Belə layihələrdən biri də Beyləqan rayonunda Gödəklər-Arısu-Qəhrəmanlı-Allahyarlı-Bünyadlı avtomobil yolunun əsaslı şəkildə yenidən qurulmasıdır.

Sözügedən avtomobil yolu uzun müddət istismar nəticəsində deformasiyaya uğramışdır. Bu üzdən nəqliyyat vasitələrinin hərəkətində çətinliklər yaratdığı üçün yolun əsaslı şəkildə yenidən qurulmasına ehtiyac var idi.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi xəbər verir ki, Beyləqan rayonu ərazisində 7 yaşayış məntəqəsini əhatə edən 36 km-lik avtomobil yolu IV texniki dərəcəyə uyğun inşa olunur. Torpaq yatağının eni 9, yolun hərəkət hissəsinin eni müvafiq olaraq 6 metr təşkil edir.

Yenidənqurma işləri hazırda uzunluğu 8 km olan Allahyarlı yolu istiqamətində aparılır. Görülən işlər çərçivəsində örtüyün və yol geyiminin, həmçinin torpaq yatağının yararsız hissələri qazılaraq çıxarılıb. Karxana çınqılı materialından torpaq yatağının bərpası və qazılmış hissələrin doldurulması işləri görülüb. Torpaq işləri aparılan hissələr profilə salınıb və kipləşdirilib.

Hazırda suvarma və qrunt sularının ötürülməsi üçün 10 yeni suötürücü boruların tikintisi aparılır. Texnoloji ardıcıllığa uyğun olaraq, daha sonra yeni yol əsasının inşası, əsasın alt layının tikintisi, son mərhələdə yeni asfalt-beton örtüyünün döşənməsi işləri görüləcək.

Asfaltlanma işləri qurtaran kimi yolboyu avtonəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədilə üfüqi nişanlanma xətləri çəkiləcək, yol nişanları, zəruri yerlərdə avtobus dayanacaqları, km göstəriciləri quraşdırılacaq.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında aparılan yenidənqurma işləri təkcə 17 min əhalinin yaşadığı yaşayış məntəqələrinə rahat gedişgəlişin təmin edilməsinə deyil, həm də kənd təsərrüfatının inkişafına da şərait yaradacaq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



# "Azercell"in baş sponsorluğu ilə "Bakı Marafonu-2022" baş tutdu

## Lider mobil operator yarışın qaliblərini mükafatlandırdı









May ayının 15-i Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, "Azercell Telekom" MMC-nin baş sponsorluğu ilə keçirilən "Bakı Marafonu - 2022" baş tutdu. Minlərlə idmansevər Bakı bulvarına toplaşaraq "Küləyə qalib gəl" şüarı altında həyata keçən bu yarışa qatıldı.

Ölkəmizin idman təqvimində mühüm yer alan "Bakı Marafonu"nun 5 illik yubileyi bir sıra yeniliklərlə yadda qaldı. Belə ki, yarışçılar üçün yeni marşrut tətbiq edilərək start və finiş nöqtəsi eyni məkanda yerləşdirildi. İştirakçılar Dövlət Bayrağı meydanında toplaşaraq 21 kilometrlik məsafəni qət edib yenidən bu nöqtəyə qayıtdılar. Bu yenilik xüsusi hazırlığı olmayan iştirakçılara ehtiyac yarandığı halda başlanğıc nöqtəsinə qayıdaraq qalibləri qarşılamaq imkanı yaratdı.

2017-ci ildən etibarən tədbirə tərəfdaşlıq edən "Azercell" növbəti dəfə abunəçilərini sağlam həyat tərzinə səslədi. Ənənəvi olaraq bu il də təşkil edilən marafona "Azercell Telekom" MMC-nin prezidenti və rəhbər heyəti, eləcə də şirkət əməkdaşları və "Azercell"in korporativ abunəçiləri qatıldılar.

Yarışın rəqəmsal tərəfdaşının dəstəyilə iştirakçıların qaçış nömrələrinin üzərinə xüsusi cihaz - çip yerləşdirildi. Bu texnoloji həll mobil operatorun "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" kimi səslənən strateji məqsədinin tələblərinə də tam cavab verdi. Belə ki, marafonda iştirak edən hər kəsin marşrutboyu göstəricilərini detallı şəkildə görmək, finiş xəttini keçərkən göstərdiyi nəticəni izləmək imkanı yaradıldı.

Qaliblər "Azercell" tərəfindən xüsusi hədiyyələr ilə mükafatlandırıldı. Finiş xəttini keçən ilk üç qadın və ilk üç kişi iştirakçıya lider mobil operator xüsusi hədiyyələr, 010 prefiksli prestijli nömrə və "Sərbəst 15" tarif paketinə 6 aylıq abunəlik hədiyyə etdi. "Azercell" "Bakı Marafonu"nda iştirak edən tələbələri də diqqət mərkəzində saxladı. Tələbələr arasında birinci yeri tutan xanım və kişi iştirakçıya xüsusi hədiyyələr, 010 prefiksli prestijli nömrə və 6 aylıq pulsuz istifadə müddəti olan "GəncOL9" tarif paketi təqdim edildi.

Yarışçılara dəstək olmaq üçün tədbirə qatılanlar da asudə vaxtlarını yüksək dəyərləndirdilər. Musiqi ilə müşayiət olunan tədbirdə atletlər zonasında pilates məşqləri təşkil edildi. Uşaqlar üçün əyləncə zonasında isə marafonun kiçik qonaqları xüsusi proqram ilə qarşılandı. Marafon məşhur müğənnilərin konsert proqramı ilə yekunlaşdı.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | | |
|---|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 | *1 illik* 124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 | |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 | *6 aylıq* 62,40 (altmış iki manat qırx qəpik) manat |
| *"Səma-M" MMC* | (012) 594-09-59 | |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 | *3 aylıq* 31,20 (otuz bir manat iyirmi qəpik) manat |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 | |
| *"City press" MMC* | (055) 819-09-26 | |

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranın satın alınması və Azərbaycan Respublikasının Mərkəzi Bankında nağd pul və qiymətlilərin daşınmasını təmin etmək üçün inkassasiya avtomobillərinin satın alınması ilə bağlı 12 aprel 2022-ci ildə dövlət satınalmalarının vahid internet Portalında və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində elan edilmiş açıq tenderlər Tender komissiyasının 17 may 2022-ci il tarixli qərarına əsasən, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 18.05.2022-ci il saat 23:30-dan etibarən 19.05.2022-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# Qlobal iqtisadiyyat 2,5 faiz azalıb




Avropa Komissiyası Ukraynadakı münaqişə və Rusiyaya qarşı sanksiyaları nəzərə alaraq qlobal makroiqtisadi proqnozunu yeniləyib. Qeyd edilir ki, 2022-ci ildə qlobal iqtisadiyyatın artım tempinin 5,7 faizdən 3,2 faizə, avro zonası ölkələrində 4 faizdən 2,7 faizə qədər azalacağı gözlənilir.

Çində də artım templəri ləngiyəcək. Bu ölkənin iqtisadi potensialına təkcə anti-COVID məhdudiyyətləri deyil, həm də xarici tələbatın azalması mənfi təsir göstərir.

### Proqnozlar ürəkaçan deyil

Avropa Komissiyası etiraf edir ki, enerji təchizatından yüksək asılılıq, habelə Rusiya və Ukraynaya coğrafi yaxınlıq səbəbindən böhranın iqtisadi fəsadları məhz Avropa ölkələri üçün daha ağrılı olacaq.

Avro zonası üçün proqnoz 4 faizdən (bu təxmin fevralda verilmişdi) 2,7 faizə endirilib. Gələn il bu göstərici də 2,7 faizdən 2,3 faizə qədər azala bilər.

Valyuta blokunda inflyasiyanın 2021-ci ildəki 2,6 faizdən bu il 6,1 faizə qədər sürətlənəcəyi, 2023-cü ildə isə 2,7 faizə enəcəyi gözlənilir.

Eyni zamanda işsizlik artmağa davam edəcək və ümumi büdcə kəsiri də bu il keçənilki 4,7 faizdən 3,6 faizə düşməlidir.

2022-2023-cü illərdə Avropa İttifaqında artan enerji qiymətləri ilə mübarizə və humanitar böhranın aradan qaldırılması üçün əlavə xərclər ÜDM-in müvafiq olaraq 0,6 və 0,1 faizi həcmində qiymətləndirilir.

Gözlənildiyi kimi, komissiyanın ekspertləri Rusiya üçün də proqnoza yenidən baxıblar. Onlar bu il ÜDM-in 10,4 faiz azalacağını, ardınca - 2023-cü ildə isə 1,5 faiz bərpa olacağını təxmin edirlər.

Bundan əvvəlki proqnoz müvafiq olaraq 2,6 və 2,2 faiz artımı nəzərdə tuturdu.

### Çinin sənaye ixracı 10 faiz azalıb

Çin üçün verilən proqnozlara da düzəlişlər edilib. Ölkədə bu il ÜDM artımı 5,3 faiz əvəzinə 4,6 faiz, gələn il isə 5,3 faiz əvəzinə 5 faiz ola bilər.

Qeyd edək ki, Çinin aprel ayı statistikası gözləniləndən də pis çıxıb - ölkədə pərakəndə satışlar martda 3,5 faiz azalmadan sonra ötən ay 11,1 faiz azalıb. Sənaye istehsalı da mənfi zonada olub - mart ayında 5 faiz artdıqdan sonra apreldə mənfi 2,9 faiz olub.

Londonda yerləşən iqtisadi tədqiqatlar üzrə müstəqil konsaltinq şirkəti "Capital Economics"in analitikləri qeyd edirlər ki, aprel məlumatları Çində işgüzar aktivliyin kəskin azalmasına işarə edir, bunun bərpası isə guman ki, ləngiyəcək.

Öz növbəsində, Niderlandın iri banklar qrupu "ING Bank" Çin ÜDM-nin ikinci rübdə 1 faiz azalacağını proqnozlaşdırır. Azalmanın əsas səbəbi Şanxayda pərakəndə satışın kəskin azalmasıdır ki, bu da lokdaunla bağlıdır. Məhdudiyyətlər həmçinin bir çox fabrikin bağlanmasına və logistikanın pozulmasına səbəb olub.

Bununla belə, "Capital Economics" qeyd edir ki, işgüzar aktivliyin azalmasında təkcə məhdudiyyətlərin deyil, həm də xarici tələbatın azalmasının rolu var. Aprel ayında Çinin sənaye ixracı 10 faiz azalıb. Qeyd edək ki, Çində anti-COVID məhdudiyyətlərinin iyunun 1-dən iyunun 30-dək mərhələli şəkildə ləğv edilməsi planlaşdırılır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Ölkənin ən böyük elektrik stansiyalarından olan "Cənub" ES əsaslı təmir edilib






2013-cü ildə Şirvan şəhərində istismara verilən, ölkənin ən böyük elektrik stansiyalarından olan 2 bloklu 780 meqavatlıq "Cənub" Elektrik Stansiyasının 2-ci bloku "AzərEnerji" tərəfindən əsaslı təmir olunub.

Qeyd edək ki, istismar normativlərinə görə "Cənub" Elektrik Stansiyasının birinci bloku 2018-ci ildə əsaslı təmir ediləndən sonra "itirilmiş" güclər bərpa olunmuşdu və indi də ikinci blok əsaslı təmir edilməklə analoji nəticə alınır. Belə ki, stansiyanın ikinci blokunun buxar və qaz turbinləri, util-qazanları, transformatorları, generatorları və köməkçi avadanlıqları əsaslı təmir edilərək stansiyanın istismar müddəti uzadılır, etibarlılıq və dayanıqlılıq bərpa edilməklə "itirilmiş" güclər bərpa olunur.

"AzərEnerji"nin İctimaiyyətlə əlaqələr və media mərkəzinin rəisi Teymur Abdullayev bildirib ki, əvvəllər stansiyaların əsaslı təmiri xarici şirkətlər tərəfindən aparılırdısa, "Cənub" Elektrik Stansiyasında bu dəfə aparılan əsaslı təmir işləri əsas etibarı ilə "AzərEnerji"nin yerli mütəxəssisləri tərəfindən həyata keçirilib.

Məlumat üçün bildirək ki, 2018-ci ildən başlayaraq ölkədəki 12 ən böyük elektrik stansiyasında yenidənqurma, təmir və bərpa işləri aparılmaqla 1000 meqavatdan artıq "itirilmiş" güc bərpa edilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Şəhər İcra Hakimiyyətinin kollektivi Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının rəhbəri Ayaz İmaməliyevə atası

**AĞALAR İMAMƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Şəhər İcra Hakimiyyətinin kollektivi Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin sədri Rəfail Mehralıyevə əmisi

**İSRAFİL MEHRALIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının keçmiş sədri

**SEMYON BORİSOVİÇ İXİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Bakı Şəhəri üzrə Baş Maliyyə İdarəsinin kollektivi Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının rəhbəri Ayaz İmaməliyevə atası

**AĞALAR İMAMƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5951
Sifariş 1368
Qiyməti 40 qəpik